RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 37 (9782) 19 fevral 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Prezident İlham Əliyev Böyük qayıdışı sürətlə reallaşdırır



◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanış olublar.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib.**

**Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam Muğam Mərkəzində görülən tikinti işləri, "Ağdam Residence" yaşayış kompleksində yaradılan şərait, Ağdam şəhərində 1268 mənzilli 2-ci yaşayış kompleksində, 1 nömrəli körpələr evi-uşaq bağçasında, Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri və Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış olublar.**

→ 2-5

## Uğurlarımız onun adı ilə bağlıdır

### İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilib



Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrindəki inkişafının əsası dövlət başçısının uzaqgörən siyasətinin nəticəsi olduğu kimi, Olimpiya Hərəkatı və idmandakı uğurlarımız da Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Hesabat dövründə ölkəmizin Olimpiya və idman həyatında bir sıra olduqca əlamətdar tarixi hadisələr baş verib. Azərbaycan Parisdə keçirilmiş Yay Olimpiya Oyunlarında qazanılmış 7 (2 qızıl, 2 gümüş, 3 bürünc) medalla ümumi komanda hesabında 30-cu yeri tutub. Ötən dövrləri əhatə edən hesabat kitabında Azərbaycan Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələri, Prezident İlham Əliyevin görüşləri, çıxışları, qəbulları, iştirak etdiyi tədbirlər, beynəlxalq yarışlar, idmançılarımızın Olimpiya Oyunlarında, Olimpiya festivallarında, İslam Həmrəyliyi Oyunlarında çıxışı, Olimpiya Həmrəyliyi Fondunun proqramları, maliyyə-marketinq, informasiya və nəşriyyat məsələləri öz əksini tapıb.

→ 6

## Azərbaycan ilə Qambiya əməkdaşlığının inkişaf etməsi məmnunluq doğurur

### Qambiya Respublikasının Prezidenti zati-aliləri cənab Adama Barrouya

Hörmətli cənab Prezident!

Qambiya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

Biz Azərbaycan-Qambiya dostluq əlaqələrinə böyük önəm veririk. Bu gün həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın uğurla inkişaf etməsi məmnunluq doğurur.

İnanıram ki, ölkələrimiz arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq məcrasında inkişafı, çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Qambiya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2025-ci il*

## Dövlət növbəti dəfə sahibkara sahib çıxdı

### Özəl sektorda yoxlamaların dayandırılması müddəti daha bir il uzadıldı

Dövlət başçısının sahibkarlıq sektorunda apardığı məqsədyönlü siyasətin nəticələri onu deməyə əsas verir ki, bu sahədə uğurlar hələ uzun zaman davam edəcək. Prezident İlham Əliyevin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə imzaladığı növbəti qanun bunun əyani sübutudur. Qanuna dəyişikliyə əsasən, Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasının müddəti 2026-cı il yanvarın 1-nə qədər uzadılır. Bu müddətdə sahibkarlıq subyektlərində yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar da müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır. Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluğun apardığı yoxlamalara şamil edilmir. Sahibkarların bu qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti və prokurorluq orqanlarına, həmçinin inzibati və məhkəmə qaydasında şikayət etmək hüquqları var.

→ 18

## Belə bir məhkəmə bir gün Koçaryan üçün də qurulacaq

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2020-ci il noyabrın 23-də Ağdam Cümə məscidinin qarşısındakı çıxışında "Biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik" demişdi: "Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız".

Erməni şovinistləri tərəfindən başladılan və Qarabağın Ermənistana birləşdirilməsi kimi çirkin məqsədə xidmət edən münaqişədə məhz Koçaryan və Sarkisyan kimilərin hərbi cinayətlər törətməsi nəticəsində on minlərlə insan həyatını itirib. Azərbaycanın əraziləri işğal edilib, xalqımıza qarşı qətliamlar, soyqırımlar törədilib. Ancaq haqq-ədalət sonda öz yerini tapıb və İkinci Qarabağ müharibəsində Koçaryan-Sarkisyan cütlüyü bir daha özünə gələ bilməyəcəyi ağır məğlubiyyətə düçar edilib.

Bu qaniçənlərin hər ikisi torpaqlarımızı işğal etmələri, azərbaycanlılara qarşı tükürpədici cinayət əməlləri törətmələri ilə həyasızcasına qürrələnirdilər. Məsələn, Robert Koçaryan 2003-cü ildə AŞPA-da etdiyi çıxışında ermənilərlə azərbaycanlıların etnik uyuşmazlığı barədə bəyanat vermişdi. Bir ildən sonra sözügedən qurumda özünün faşist xislətini bir daha nümayiş etdirmişdi. Belə ki, həmin zaman həm çıxışında, həm də suallara cavabında Koçaryan daxili hisslərini büruzə verməklə özünü ifşa etmiş və hərbi əməliyyatlarda iştirakı ilə fəxr etdiyini demişdi.

→ 14

◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

# Prezident İlham Əliyev Böyük

## Ağdam şəhərində "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanışlıq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma hoteldə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Hilton Garden İnn" hoteli Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunub.

Ümumi sahəsi 2,16 hektar olan hotel 2, 6 və 7 mərtəbəli 3 bloklu binadan ibarətdir. Ən müasir standartlara cavab verən hotel binasında 127 otaq var, qonaqların zövqünü oxşayan interyer işləri görülüb.

Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Hoteldə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans və iclas zallarının yaradılması nəzərdə tutulur. Buradakı restoran, banket zalları qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını keçirmələrinə geniş imkanlar yaradır.

Müasir hoteldə qonaqların sağlamlığını və istirahətini təmin etmək məqsədilə hovuz, fitnes və SPA mərkəzləri də yaradılır. Bildirildi ki, hoteldə işlərin icrası 60 faiz yerinə yetirilib.



"Hilton Garden İnn" hotelində 100-dən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Qeyd edək ki, Azərbaycanda turizmin inkişafı istiqamətində mühüm işlər görülsə də, böyük turizm potensialına malik Qarabağ işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar Müzəffər Ali Baş Komandanın qətiyyəti və Ordumuzun rəşadəti sayəsində artıq düşmən tapdağından azad edilib. Qarabağın işğaldan azad olunmasından qısa müddət ötməsinə baxmayaraq, bu tarixi torpaqlarımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu prosesdə diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.

Ağdam rayonunda ən müasir standartlara cavab verən hotellərin inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin inkişafına mühüm töhfə verəcək. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti nümunəsidir.

# Prezident İlham Əliyev Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına mərkəzdə görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, Azərbaycanın işğaldan azad edilən ərazilərində elektrik şəbəkələrinin qəza vəziyyətindən çıxarılması, enerji təhlükəsizliyinin təmin olunması və yaradılacaq infrastrukturların elektrik enerjisi ilə təchizatı üçün "Azərişıq" ASC tərəfindən genişmiqyaslı təmir, yenidənqurma və tikinti işləri aparılır. Ağdam şəhərinin Baş Planına uyğun olaraq, şəhər ərazisində 35/0,4 kilovoltluq iki transformator məntəqəsi inşa edilib. Bu məntəqələr güc mərkəzləri olaraq, ilk mərhələdə ətrafda salınacaq yeni yaşayış sahələrini elektrik enerjisi ilə təmin edəcək. Baş Planda həmin transformator məntəqələrinin digər yaşayış sahələri





üçün inşa ediləcək güc mərkəzləri ilə əlaqələndirilməsi və dairəvi elektrik təchizatı sxeminin yaradılması nəzərdə tutulub. Eyni zamanda şəhərdə Baş Plana uyğun yaradılacaq müxtəlif təyinatlı infrastrukturun keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunması məqsədilə Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi həyata keçirilib. Prezident İlham Əliyev tərəfindən 2023-cü il mayın 2-də təməli qoyulan bu Regional Rəqəmsal İdarəetmə Mərkəzi yüksək səviyyədə inşa olunub.

Mərkəz iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə hər birinin gücü 2500 kVA olan 35/0,4 kilovoltluq iki güc transformatoru, 35 və 0,4 kilovoltluq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə idarəetmə, texniki və köməkçi otaqlar yerləşir. Regional Rəqəmsal İdarəetmə Mərkəzinin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq "Ağdam-2" yarımstansiyasından 35 kilovoltluq hava-kabel xətti çəkilib.

Mərkəz şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək. Müasir tipli mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacaq. Eyni zamanda burada mühəndis-texniki heyətin səmərəli işini təmin edən müasir avadanlıqlarla təchiz olunmuş iş otaqları, vətəndaş qəbulu üçün lazımi şərait yaradılıb.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı. Təlim-Tədris Kompleksində beynəlxalq tədbirlərin keçirilməsi üçün bütün zəruri şərait yaradılıb. Burada yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışları təşkil ediləcək. Kompleksdəki tədris zalı 35/0,4 kilovoltluq müasir şəbəkə modelinin, 35 və 0,4 kilovoltluq fiber-optik kabellərin, kompozit şüşə-lifli dayaqların tətbiq sahələrinin perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə təqdim edilməsi üçün nəzərdə tutulub.

Həmçinin Kompleksdə xüsusi dayaqlarda şəbəkədə istifadə olunan element və ləvazimatlar nümayiş etdirilir. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" mənbələrinin (Günəş və külək enerji qurğuları) tətbiqinə dair model yaradılıb. Bu modelin həm işçi heyətin, həm də gələcəkdə aktiv istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub. Eyni zamanda elektroenergetika sahəsində qazanılmış tarixi nailiyyətləri əks etdirən elektron guşə və əyani vəsait stendləri, müasir uçot cihazları (SMS, Smart, NFC sayğacları), təhlükəsizlik texnikası və idarəetmə plakatları nümayiş olunur.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

# qayıdışı sürətlə reallaşdırır

## Ağdam Muğam Mərkəzində görülən tikinti işləri ilə tanışlıq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam Muğam Mərkəzində görülən tikinti işləri ilə tanış olublar.**

AZƏRTAC bildirir ki, dövlətimizin başçısına və birinci xanıma Muğam Mərkəzində görülən işlərlə bağlı məlumat verildi.

Ümumi sahəsi 1,4 hektar olan Mərkəzin birinci mərtəbəsində kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 507 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri təşkil etmək üçün hərtərəfli şərait var.

İkinci mərtəbədə inzibati otaqlar yerləşir. Mərkəzdə 14 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər otağı və digər otaqlar fəaliyyət göstərəcək.

Ağdam Muğam Mərkəzinin ərazisində 1250 kvadratmetrlik açıq amfiteatr da inşa edilib.

Tikinti-quraşdırma işləri artıq yekunlaşmaq üzrədir. Hazırda tamaşa zalında, binanın çöl hissəsində son tamamlama işləri görülür, müvafiq avadanlıq və mebellər quraşdırılır.



Qeyd edək ki, muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb.

Xatırladaq ki, Ağdam Muğam Mərkəzinin təməli 2023-cü il mayın 2-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub.

## "Ağdam Residence" yaşayış kompleksində yaradılan şəraitlə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də "Ağdam Residence" yaşayış kompleksində yaradılan şəraitlə tanış olublar.**

AZƏRTAC bildirir ki, dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verildi.

Ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin 6 yaşayış binası inşa edilib. Kompleksdəki binalar 6 mərtəbəlidir və ümumi blokların sayı 11-dir. Dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində hazır mənzillərə baxdılar.

Mənzillərin 45-i birotaqlı, 108-i ikiotaqlı, 48-i üçotaqlı, 8-i isə dördotaqlıdır.

Kompleksdə tikinti-quraşdırma işləri artıq yekunlaşıb. Sakinlərin rahat yaşayışı üçün kompleksin ərazisində park, istirahət guşələri, sosial-məişət obyektləri, avtodayanacaqlar, velosiped yolları, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci il fevralın 13-də yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.











◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

# Prezident İlham Əliyev Böyük

## Prezident və birinci xanım Ağdam şəhərində 2-ci yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində 1268 mənzilli 2-ci yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksi Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş Baş Planına uyğun salınıb. Burada tikilən yaşayış binalarındakı mənzillərdən 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü isə dördotaqlıdır.

Ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunur. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.





## Ağdam şəhərində 160 yerlik körpələr evi-uşaq bağçası inşa edilir








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasında aparılan tikinti işləri ilə tanış olublar.**

AZƏRTAC bildirir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma körpələr evi-uşaq bağçasında görülən işlər barədə məlumat verdi.

Qeyd edildi ki, 160 yerlik körpələr evi-uşaq bağçasının tikintisinə 2023-cü ildə başlanılıb. Zirzəmi və iki mərtəbədən ibarət binanın ümumi sahəsi 2700 kvadratmetrdən çoxdur. Burada müxtəlif otaqlar, uşaqların təlim-tərbiyəsi üçün bütün zəruri şərait yaradılacaq.



Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

# qayıdışı sürətlə reallaşdırır



## Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanış olublar.**

AZƏRTAC bildirir ki, dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Ümumi tikinti sahəsi 4300 kvadratmetrdən çox olan yeni məktəb binası üç mərtəbədən ibarətdir. Təməli 2021-ci ilin mayında qoyulan məktəb 960 şagird yerlikdir. Burada kitabxana, muzey, iki yeməkxana, fənn kabinetləri ilə yanaşı, fizika, kimya, biologiya laboratoriyaları, akt və idman zalları, həmçinin 8 STEAM otağı olacaq.

Məktəbin tikintisinin 2025-ci ildə başa çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının yaradılmasına xüsusi diqqət göstərilir. Hazırda inşası davam etdirilən Ağdam şəhər 1 nömrəli tam orta məktəb bunun daha bir nümunəsidir. Bu orta təhsil müəssisəsi Böyük Qayıdış Proqramı çərçivəsində şəhərə qayıdacaq şagirdlərin müasir standartlara uyğun təhsil almalarına xidmət edəcək.





## Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Əsgəran qala-kompleksinin konsepsiya layihəsi barədə məlumat verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Adil Kərimli və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verdilər.

Bildirildi ki, Əsgəran qala-kompleksinin dizayn layihəsi "Mədəni və təbii irs", "İnfrastruktur və xidmətlər", "Əyləncə və istirahət", "Marketinq və təşviqat" olmaqla, 4 istiqaməti əhatə edən konsept üzrə hazırlanıb. Layihəyə əsasən, qalanın konservasiyası, möhkəmləndirilməsi, arxeoloji qazıntıların aparılması və açıq səma altında tarixi parkın yaradılması nəzərdə tutulur.

Qala ərazisində müxtəlif rekreasiya xidmətlərinin də təklif olunduğu yaşayış kompleksinin inşası, daxili yol şəbəkəsinin (piyada və nəqliyyat) hazırlanması planlaşdırılır.

Kompleks ərazisində ilin dörd fəslində festival və mədəni tədbirlərin keçirilməsi, idman, istirahət və əyləncə, ticarət, ictimai iaşə və digər sahələr üzrə müvafiq infrastrukturun yaradılması nəzərdə tutulur.

Xatırladaq ki, Qarabağın hakimi Pənahəli xanın göstərişi ilə inşa olunan XVIII əsrə aid Əsgəran qalası Azərbaycan memarlığının nadir nümunələrindəndir.

Qeyd edək ki, Azərbaycan dövləti xalqımızın milli-mədəni irsinin qorunub saxlanmasına xüsusi diqqət və qayğı göstərir. Torpaqlarımız işğal altında olduğu dövrdə Ermənistan tərəfindən dağıdılan, məhv edilən irsimiz, o cümlədən tarixi, dini abidələrimiz bu gün dövlətimiz tərəfindən təmir-bərpa edilir, yenidən qurulur. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu işlərə mühüm töhfə verir. Fond tərəfindən bu istiqamətdə aparılan işlərə Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəlinin yenidən qurulmasını, eyni zamanda Mehmandarovların malikanə kompleksinin təmirini, Zəngilan məscidinin tikilməsini, Ağdam Cümə məscidinin bərpasını və sair misal göstərmək olar. Bütün bu işlər, eyni zamanda bölgənin turizm potensialının inkişafına müsbət təsir göstərir. Bu baxımdan Əsgəran qala-kompleksinin bərpası, tarixən malik olduğu şöhrətinin özünə qaytarılması xalqımızın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin tanıdılmasına xidmət edir.













# Uğurlarımız onun adı ilə bağlıdır

## İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilib





**Fevralın 18-də Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) IX Hesabat-seçki baş məclisi keçirilib. AZƏRTAC xəbər verir ki, baş məclisdə Milli Olimpiya Komitəsinin üzvləri, Olimpiya və qeyri-Olimpiya idman növləri federasiyalarının və idman təşkilatlarının nümayəndələri iştirak ediblər.**

Baş məclisdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə qurumun 2022-2024-cü illərdəki fəaliyyəti haqqında hesabat-məruzə ilə çıxış edib. O, iqtisadi və digər sahələrdə inkişaf sürətinə görə regionun lider dövləti olan Azərbaycanın bütün dünyada idman ölkəsi kimi tanındığını bildirib.

Çingiz Hüseynzadə hesabat dövründə Azərbaycanın idman tarixində bir sıra uğurlu hadisələrin baş verdiyini diqqətə çatdıraraq, MOK-un gördüyü işlərin miqyasına görə çox əhatəli olduğunu, əldə edilmiş nailiyyətlərin həm keyfiyyətinə, həm də kəmiyyətinə görə yüksək səviyyəyə qalxdığını qeyd edib.

"Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrindəki inkişafının əsası dövlət başçısının uzaqgörən siyasətinin nəticəsi olduğu kimi, Olimpiya Hərəkatı və idmandakı uğurlarımız da Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Hesabat dövründə ölkəmizin Olimpiya və idman həyatında bir sıra olduqca əlamətdar tarixi hadisələr baş verib. Azərbaycan Parisdə keçirilmiş Yay Olimpiya Oyunlarında qazanılmış 7 (2 qızıl, 2 gümüş, 3 bürünc) medalla ümumi komanda hesabında 30-cu yeri tutub", - deyə Çingiz Hüseynzadə bildirib.

MOK-un vitse-prezidenti baş məclis iştirakçılarına məlumat verərək deyib ki, ötən dövrləri əhatə edən hesabat kitabında Azərbaycan Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələri, Prezident İlham Əliyevin görüşləri, çıxışları, qəbulları, iştirak etdiyi tədbirlər, beynəlxalq yarışlar, idmançılarımızın Olimpiya Oyunlarında, Olimpiya festivallarında, İslam Həmrəyliyi Oyunlarında çıxışı, Olimpiya Həmrəyliyi Fondunun proqramları, maliyyə-marketinq, informasiya və nəşriyyat məsələləri öz əksini tapıb. O, müxtəlif səviyyəli beynəlxalq yarışlarda atletlərimizin qazandıqları uğurlardan, Bakıda keçirilən beynəlxalq yarışlardan danışaraq, MOK-un hesabat dövründəki fəaliyyətini yüksək qiymətləndirib.

Hesabat məruzəsi dinlənildikdən sonra səsə qoyularaq yekdilliklə qəbul olunub. Sonra MOK-un Təftiş Komissiyasının hesabat məruzəsi dinlənilib.

Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev, Azərbaycan Atletika Federasiyasının prezidenti Cavid Qurbanov və idmançılar adından çıxış edən Fərid Mansurov hesabat məruzəsini və MOK-un fəaliyyətini yüksək qiymətləndirərək gələcək işlərdə uğurlar arzulayıblar.

Hesabat-seçki baş məclisində Prezident İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilib.

Daha sonra Prezident İlham Əliyev, eləcə də Azər Əliyev, Çingiz Hüseynzadə, Fərid Mansurov, Zemfira Meftahətdinova, Namiq Abdullayev, Nazim Hüseynov, Elnur Məmmədli, Faiq Qarayev və Alla Həsənova MOK-un İcraiyyə Komitəsinin üzvləri seçiliblər.

Baş məclisdə MOK-un Təftiş Komissiyasının üzvləri də seçilib.

# Azərbaycanın Baş naziri Üçüncü Xəzər İqtisadi Forumunda dənizin dayazlaşması problemindən, nəqliyyat dəhlizlərindən danışıb

## Əli Əsədov Xəzərin sülh, harmoniya, mehriban qonşuluq və səmərəli beynəlxalq əməkdaşlıq dənizi kimi qalması üçün Xəzəryanı dövlətlərin gələcək səylərinin əhəmiyyətini qeyd edib






**Fevralın 18-də İran İslam Respublikasının paytaxtı Tehranda III Xəzər İqtisadi Forumu keçirilib. Forum iştirakçıları əvvəlcə Tehran Beynəlxalq Sərgisi çərçivəsində İnnovasiyalar və Texnologiyalar Evi ilə tanış olublar. Sonra Xəzəryanı dövlətlərin hökumət başçıları məhdud tərkibdə danışıqlar aparıblar. Danışıqlarda Xəzərdə beştərəfli əməkdaşlığın bir sıra mühüm məsələləri nəzərdən keçirilib.**





Daha sonra III Xəzər İqtisadi Forumunun plenar iclası olub.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Sessiyada çıxış edən Baş nazir Əli Əsədov bildirib ki, Xəzər İqtisadi Forumu Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlığın aktual məsələlərinin müzakirəsi üçün mühüm platformadır.

Bildirilib ki, 2022-ci ildə Moskvada keçirilmiş İkinci Forumun Birgə Kommünikesində ticarət dövriyyəsinin artırılması, regionun investisiya cəlbediciliyinin və Xəzəryanı dövlətlərin iqtisadi rəqabət qabiliyyətinin gücləndirilməsində tərəflərin maraqlı olduğu təsdiqlənib.

Ə.Əsədov Azərbaycan ilə Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlığın dinamik inkişaf etdiyini diqqətə çatdırıb: "Sevindirici haldır ki, Azərbaycanın Xəzəryanı ölkələrlə ticarət dövriyyəsi 2024-cü ilin sonunda 6 faizdən çox artıb".

2018-ci ildə Aktauda imzalanmış Xəzəryanı dövlətlərin hökumətləri arasında iqtisadi-ticari əməkdaşlıq haqqında Sazişin 2023-cü ildə qüvvəyə minməsinin vacibliyini qeyd edən Ə.Əsədov bu Sazişin həyata keçirilməsinin ticarət, sənaye, kənd təsərrüfatı, turizm sahələrində və digər sektorlarda praktik tədbirlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Vurğulanıb ki, bu gün Xəzəryanı dövlətlər arasında müxtəlif səviyyələrdə qarşılıqlı fəaliyyətin bir sıra formatları və mexanizmləri mövcuddur, sahəvi əməkdaşlıq üzrə möhkəm müqavilə-hüquqi baza yaradılır, ən yüksək səviyyədə qəbul edilmiş qərar və razılaşmaların həyata keçirilməsi istiqamətində ciddi iş aparılıb.

Baş nazir əlavə edib: "Şübhəsiz ki, bununla bağlı 2018-ci ildə Aktauda imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya Xəzərdə hərtərəfli əməkdaşlıq üçün baza sənədidir".

İkinci Forumdan sonra nəqliyyat sektorunda regionun inkişaf etmiş infrastruktura malik böyük beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün əlverişli şərait yaradan mühüm razılaşmalar əldə edilib.

Forum iştirakçılarına uğurlu fəaliyyəti regionun bütün ölkələrinin maraqlarını əhatə edən "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında Azərbaycanın rolu barədə məlumat verilib.



Vurğulanıb ki, Azərbaycan ərazisindən yükdaşımaların artımını nəzərə alaraq, ölkəmiz nəqliyyat infrastrukturunun müasirləşdirilməsi hesabına bu dəhlizlərin ötürücülük qabiliyyətinin artırılmasına əlavə vəsaitlər yatırır.

"İnanırıq ki, Xəzəryanı dövlətlər Xəzərin sülh, harmoniya, mehriban qonşuluq və səmərəli beynəlxalq əməkdaşlıq dənizi olaraq qalması üçün səylərini davam etdirməlidir. Bu, ilk növbədə, bizdən Xəzər dənizində təhlükəsizliyin və sabitliyin təmin edilməsi istiqamətində qətiyyətli tədbirlər görməyi tələb edir", - deyə Baş nazir bildirib.

"Yaşıl energetika" və rəqəmsal texnologiyalar sahəsində layihələrin həyata keçirilməsi imkanları sayəsində açılan əlavə perspektivlərə toxunan Ə.Əsədov qeyd edib ki, bu mühüm sahələrdə əməkdaşlıq regiona sabit və ekoloji cəhətdən təhlükəsiz gələcək təmin edir.

"Bu baxımdan regionumuzda ilk dəfə keçirilən COP29 iqlim konfransının əhəmiyyətini qeyd etmək istərdim. Belə əlamətdar beynəlxalq tədbirin keçirilməsi Xəzər regionunun qlobal iqlim gündəmindəki əhəmiyyətini təsdiqləyir və investisiyaların ekoloji cəhətdən təmiz texnologiyalara və davamlı inkişafa fəal cəlb edilməsinə kömək edir", - deyə hökumət başçısı əlavə edib.

Qeyd olunub ki, Xəzər dənizinin ətraf mühitinin hazırkı vəziyyəti Xəzəryanı dövlətlərdə ciddi narahatlıq doğurur və Xəzərin ekoloji problemlərinin həllinə vahid yanaşma tələb edir. Ə.Əsədov deyib: "Xəzər dənizinin dayazlaşması məsələləri dövlətlərimizin başçılarının VI Xəzər Zirvə toplantısında hərtərəfli müzakirə mövzusuna çevrildi. Səbəblərin müəyyən edilməsi və dayazlaşmanın qarşısının alınması üzrə tədbirlərin müəyyən edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ekspert qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib".

İşçi qrupunun ilk iclasını Bakıda təşkil etməyə imkan verəcək bütün zəruri razılaşmaların tezliklə başa çatacağına ümid ifadə olunub.

Plenar iclasın yekununa dair III Xəzər İqtisadi Forumunun Kommünikesi qəbul edilib.

# Baş nazir Əli Əsədov İran Prezidenti Məsud Pezeşkianla görüşüb





**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 18-də Tehran şəhərinə işgüzar səfəri çərçivəsində İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana çatdırıb.

Görüşdə Azərbaycan-İran əlaqələrinin dostluq və mehriban qonşuluq prinsipləri əsasında inkişaf etdirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın yeni məzmunla zənginləşdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan ilə İran arasında nəqliyyat, energetika və neft-qaz sahələrində həyata keçirilən layihələrin icrası ilə bağlı məsələlər nəzərdən keçirilib. Üçüncü Xəzər İqtisadi Forumunun əhəmiyyəti vurğulanaraq, Azərbaycanın Xəzər dənizinə sülh, dostluq və əməkdaşlıq dənizi kimi baxdığı bir daha diqqətə çatdırılıb.

Həmçinin regiondakı yeni reallıqlar nəzərə alınaraq aktual məsələlər müzakirə olunub.

# Azərbaycan-Belarus münasibətləri səmimiliyə, etimada və dostluğa əsaslanır





Fevralın 18-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə əvvəlcə, Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Sonra iki ölkənin parlament sədrləri arasında təkbətək görüş keçirilib.

Görüşdən sonra qonaq Heydər Əliyev xatirə zalındakı eksponatlarla tanış olaraq, buradakı Xatirə kitabına ürək sözlərini yazıb. Daha sonra tərəflər arasında geniş tərkibdə görüş olub.

Belarus parlamentinin sədrini ölkəmizdə salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova onun rəsmi səfərlə yanaşı, həm də Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında iştirak etməsini yüksək qiymətləndirib, Azərbaycan və Belarus arasında münasibətlərin səmimiliyə, etimada və dostluğa əsaslandığını diqqətə çatdırıb. Bildirilib ki, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 32 il ərzində ikitərəfli əlaqələrdə fundamental ənənələr formalaşıb. Münasibətlərin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolunu vurğulayan Milli Məclisin Sədri ali və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və imzalanan 170-dən artıq sənədin əlaqələrin daha da güclənməsinə xidmət etdiyini deyib. Spiker Sahibə Qafarova ölkələrimizin beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq etməsindən, beynəlxalq platformalarda bir-birinə qarşılıqlı dəstək verməsindən məmnunluğunu ifadə edib.

Söhbət zamanı ölkələrimiz arasında əlaqələrə mühüm töhfələr verən parlamentlərarası münasibətlərin mövcud səviyyəsindən razılıqla danışılıb. Spiker Sahibə Qafarova ötən il Belarus Respublikasına rəsmi səfərini və orada keçirdiyi görüşləri xatırlayaraq, qanunverici orqanlarımızın həm qarşılıqlı əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq etdiyini bildirib. O, qeyd edib ki, Belarus APA-da müşahidəçi statusu alarsa, bu, çoxtərəfli əməkdaşlığa öz müsbət təsirini göstərəcək. Spiker Sahibə Qafarova Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti və Azərbaycanda keçirilmiş COP29 ərəfəsində bəzi qüvvələrin ölkəmizə qarşı ədalətsiz münasibəti barədə qonaqlara məlumat verib.

Görüşdə Azərbaycanda və Belarusda keçirilən seçkilərdə qarşılıqlı olaraq nümayəndə heyətlərinin geniş tərkibdə müşahidəçi qismində iştirak etməsindən razılıqla danışılıb. Ölkəmizə rəsmi səfərə və APA-nın 15-ci plenar sessiyasında iştiraka dəvətə görə təşəkkürünü bildirən Natalya Koçanova qeyd edib ki, iki ölkənin bugünkü əlaqələri illərin sınağından çıxmış qarşılıqlı münasibətlərə əsaslanır. O, iki ölkənin iqtisadi, ticarət, mədəniyyət və digər sahələrdə əlaqələrinin yüksək səviyyədə olmasından danışaraq, bu baxımdan parlamentlərarası əlaqələrin xüsusi əhəmiyyət daşıdığını qeyd edib. Qonaq Azərbaycanın öz suverenliyini tam bərpa etməsinin Belarusda da sevinclə qarşılandığını deyərək, ötən il və bu il həm Azərbaycanda, həm də Belarusda keçirilən seçkilərin vətəndaşlarımızın ölkə rəhbərliyinə güclü dəstəyinin ifadəsi olduğunu diqqətə çatdırıb.

Natalya Koçanova Azərbaycanla münasibətlərə böyük önəm verdiklərini və bu münasibətləri daha da inkişaf etdirmək əzmində olduqlarını bildirib. Qonaq Belarusun Asiya Parlament Assambleyasında müşahidəçi statusu almaq üçün namizədliyinə verdiyi dəstəyə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib və bu təşkilat çərçivəsində müzakirə olunan məsələlərin əhəmiyyətindən danışıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Belarus Milli Assambleyası Respublika Şurasının sədri ölkəmizə səfərə gəlib

Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova fevralın 18-də ölkəmizə rəsmi səfərə gəlib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Heydər Əliyev Beynəlxalq Hava Limanında qonağı Milli Məclis Sədrinin müavini Musa Qasımlı, Belarusla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ziyad Səmədzadə, qrupun üzvü Xanlar Fətiyev, hər iki ölkənin səfirləri Məhərrəm Əliyev, Dmitriy Pineviç və digər rəsmi şəxslər qarşılayıblar.

Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova ölkəmizə rəsmi səfəri çərçivəsində bir sıra görüşlər keçirəcək, bununla yanaşı, Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında iştirak edəcəkdir.

***"Azərbaycan"***

# Belarus Milli Assambleyası Respublika Şurasının sədri Heydər Əliyev Mərkəzində olub

Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova fevralın 18-də Bakıda Heydər Əliyev Mərkəzində olub.







Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib. Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Buradakı Heydər Əliyev Muzeyində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur.

Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının sədri əvvəlcə Ulu Öndərin Azərbaycana rəhbər olduğu dövrlərdə - 1969-cu ildən 2003-cü ilə qədər - rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli Liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan Natalya Koçanovaya bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Azərbaycanın qədim musiqi alətləri ilə tanışlıqdan sonra qonaq "Kukla sərgisi"nə və Azərbaycan xalçalarından ibarət "İlmələrin rəqsi" sərgisinə baxış keçirib.

Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının sədri Heydər Əliyev Mərkəzindən xoş təəssüratla ayrılıb.

***"Azərbaycan"***

# Azərbaycanla İndoneziya beynəlxalq təşkilatlarda da fəal əməkdaşlıq edirlər

Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə işgüzar səfərdə olan İndoneziya Respublikası Nümayəndələr Palatasının sədri Puan Maharani ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə APA-nın Asiya parlamentlərini birləşdirən mühüm platforma olduğu qeyd edilərək, Bakının evsahibliyi ilə keçirilən 15-ci plenar sessiyada bir sıra vacib məsələlərin müzakirə olunacağı diqqətə çatdırılıb. Bu cür tədbirlərin ikitərəfli əlaqələrin müzakirəsi və genişləndirilməsi baxımından da əhəmiyyətli olduğu qeyd edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova Nümayəndələr Palatasının sədri Puan Maharani ilə bundan öncəki görüşlərini məmnunluqla xatırlayaraq, belə görüşlərin və qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafına töhfə verdiyini bildirib.

Söhbət zamanı ölkələrimiz arasında Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi mühüm beynəlxalq təşkilatlarda müsbət əməkdaşlıq və qarşılıqlı dəstəyin mövcud olduğu vurğulanıb. Spiker Sahibə Qafarova İndoneziyanın Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində təmsil olunduğunu və Şəbəkənin tədbirlərində iştirak etdiyini bildirib. Azərbaycanın sədrliyi ilə Parlament Şəbəkəsinin qarşısında duran vəzifələr, təşkilatın institusional inkişafı istiqamətində atılan addımlar barədə də danışılıb.

Görüşdə parlamentlərimiz arasında qarşılıqlı fəaliyyətin dövlətlərimiz arasında əlaqələrin inkişafına mühüm və müsbət təsir göstərdiyi qeyd edilərək, qanunverici orqanlarımızın Parlamentlərarası İttifaq, İƏTPA, APA kimi beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etdiyi bildirilib. O cümlədən, hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsinin, həmçinin, deputatların qarşılıqlı səfərlərinin və sıx təmaslarının münasibətlərimizin daha da genişlənməsinə xidmət etdiyi bildirilib.

İndoneziya Nümayəndələr Palatasının sədri Puan Maharani Azərbaycanda olmaqdan məmnunluğunu bildirərək, plenar sessiyanın uğurla təşkil olunacağına inamını ifadə edib. O, dünyada mövcud olan böhranlar fonunda sülh və təhlükəsizliyin təmin olunmasının çox mühüm əhəmiyyətə malik olduğunu, Azərbaycan və İndoneziyanın sülhpərvər dəyərlərə malik olduqlarını qeyd edib.

Söhbət zamanı spiker Sahibə Qafarova qonağa regionda mövcud olan vəziyyət, torpaqlarımızın işğaldan azad olunmasından sonra Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən nəhəng yenidənqurma və bərpa işləri barədə də məlumat verib.

Görüşdə həmçinin gender məsələləri, qadınların idarəetmədə təmsilçiliyinin artırılması və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Belarus parlamentinin nümayəndə heyəti Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Ölkəmizdə rəsmi səfərdə olan Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanovanın rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 18-də Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Belarus parlamentinin nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri düzülüb.

Daha sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıblar, məzarları üzərinə tər çiçəklər düzüblər və "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

*"Azərbaycan"*

## "HaberGlobal" telekanalı:

# "Azərbaycan və Türkiyə liderləri təxribatlara qarşı uğurlu mübarizə aparırlar"




"Prezidentlər Rəcəb Tayyib Ərdoğanla İlham Əliyevin birgə səyləri nəticəsində Azərbaycan və Türkiyə arasında münasibətlər yeni səviyyəyə yüksəlib. Qardaşlıq bağları həm masa arxasında, həm də konkret proqram və layihələrdə özünü aydın göstərir ki, bu da Ankara və Bakının rəqiblərinin bütün planlarını məhv edir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyənin "HaberGlobal" televiziyasının reportajında yer alıb.

Telekanal qeyd edir ki, Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsi bu gün də iki dövlətin sarsılmaz dostluğunu daha yaxşı xarakterizə edir.

"Türkiyə və Azərbaycan müxtəlif dövrlərdə erməni silahlı dəstələrinin fəaliyyəti, Qərbin təxribatları və ictimai fikrin manipulyasiyası kimi bir çox çağırışı dəf edə bilib. Dialoq və prezidentlərin həqiqi qardaş münasibətləri o qədər güclüdür ki, dövlətlərin yolunda istənilən maneəni məhv etmək qüdrətinə malikdir", - deyə "HaberGlobal" vurğulayıb.

Qeyd olunub ki, Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət Türkiyə olub, iki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci ildə qurulub. "O gündən Ankara ilə Bakı arasında əlaqələr genişlənməyə davam edib. Dövlət rəhbərlərinin şəxsi mövqeləri bu yolda güclü stimul olub", - deyə reportajda bildirilir. Vurğulanır ki, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin bütün tövsiyələrinin həyata keçirilməsində qətiyyətlidir.

Daha sonra deyilir ki, Türkiyə Prezidentinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri çərçivəsində 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsi imzalanıb. Bu, "iki qardaş ölkənin əlaqələrini yeni strateji müttəfiqlik səviyyəsinə qaldırıb və bununla da rəqiblərin planlarını məhv edib".

Telekanal diqqətə çatdırıb ki, Qərbdə bəzi qüvvələr 44 günlük müharibə qazanılan qələbədən sonra Azərbaycan və Türkiyə prezidentlərinin münasibətlərinə xələl gətirməyə çalışır. Lakin bu təxribatlar ermənipərəst qüvvələrin ortaya atdığı digər uydurmalar kimi uğursuzluğa düçardır.

# Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır



Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov fevralın 18-də Asiya Parlament Assambleyasının (APA) Bakıda keçirilən 15-ci plenar sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Əli Əhmədov qonaqları səmimi salamlayaraq, onların APA-nın Milli Məclisin evsahibliyi ilə keçirilən 15-ci plenar sessiyasında geniş tərkibdə iştirakına görə təşəkkür edib, Azərbaycanın APA-ya sədrliyinin uğurlu olmasından danışıb. O, dünyanın bugünkü mürəkkəb şəraitində APA-da müzakirəyə çıxarılan məsələlərin sülhə və sabitliyə öz töhfəsini verəcəyinə inamını bildirib.

Birinci vitse-spiker Azərbaycan və Türkiyə arasında Ulu Öndər Heydər Əliyevin "Bir millət iki dövlət!" şüarına uyğun olaraq inkişaf edən əlaqələrindən məmnunluqla söz açıb. Qeyd edib ki, dövlətlərimiz arasındakı dostluq və qardaşlıq münasibətləri bir çox ölkələr üçün nümunədir. Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır və bunu dəfələrlə nümayiş etdiriblər.

TBMM-in nümayəndə heyətinin rəhbəri Abdulkadir Emin Önen qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, APA-nın Bakıda keçirilən 15-ci plenar sessiyasının gündəliyinin aktuallığını qeyd edib. O, dost və qardaş ölkələrimiz arasında münasibətlərin, parlamentlərarası əlaqələrin inkişafı ilə bağlı fikirlərini bölüşüb.

Görüşdə Milli Məclisin Səhiyyə komitəsinin sədri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov, TBMM-in millət vəkili Osman Cengiz Çandar çıxış ediblər. Onlar vurğulayıblar ki, bu gün Azərbaycan və Türkiyə bütün sahələrdə uğurlu əməkdaşlıq əlaqələrinə malikdirlər və münasibətlərimiz günbəgün daha da möhkəmlənir.

Söhbətdə parlamentlərimizin də iki qardaş və dost ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə özünəməxsus töhfələr verdiyi, həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlıq etdikləri bildirilib.

Görüşdə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, deputatlar Heydər Əsədov, Əziz Ələkbərov, Məlahət İbrahimqızı, Rizvan Nəbiyev, TBMM-in millət vəkilləri Ömer Özmen, Vecdi Gündoğdu və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Yaxın gələcəkdə Bakıda Tailand Krallığı səfirliyinin açılması planlaşdırılır



Fevralın 18-də Milli Məclisin Sədr müavini Rafael Hüseynov Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Tailand Nümayəndələr Palatası sədrinin müavini Paradorn Prissananantakul ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə qonağı salamlayan Rafael Hüseynov Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində əhəmiyyətli rola malik olan APA-nın parlament diplomatiyasının gələcək inkişaf perspektivləri üçün önəmli olduğunu bildirib.

O, Tailand Krallığı ilə 30 ildən artıq davam edən diplomatik, o cümlədən iqtisadi, mədəni, siyasi sahələrdə də münasibətlərimizin yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb. Rafael Hüseynov iki ölkə arasında Qoşulmama Hərəkatı, Birləşmiş Millətlər Təşkilatı kimi mühüm beynəlxalq təşkilatlarda mövcud olan əməkdaşlıqdan da söz açıb.

Qonaq Tailand Parlamentinin Nümayəndələr Palatası adından göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, ötən il Tailandın Parlament Sədrinin 14-cü sessiyada iştirakı çərçivəsində Milli Məclisin Sədri ilə görüşünün parlamentlərarası münasibətlərimizin inkişafına öz müsbət təsirini göstərdiyini qeyd edib. Paradorn Prissananantakul artıq Bonqkok şəhərində Azərbaycan Respublikasının səfirliyinin açıldığını və yaxın gələcəkdə Bakıda Tailand Krallığı səfirliyinin açılmasının planlaşdırıldığını bildirib.

Söhbətdə Azərbaycan-Tailand parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Göydəniz Qəhrəmanov, qrupun üzvü Əlibala Məhərrəmzadə, tailandlı səfir Apirat Suqondhabhirom dövlətlərimiz arasındakı münasibətlərin gələcək inkişaf istiqamətləri barədə fikirlərini bölüşüblər.

Görüşdə Azərbaycan-Tailand parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Fatma Yıldırım və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycan-Pakistan münasibətləri dostluq, qardaşlıq, qarşılıqlı hörmət və dəstəyə əsaslanır



Fevralın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Asiya Parlament Assambleyasının 15-ci plenar iclası çərçivəsində ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Senatının sədri Yusif Rza Gilaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Pakistan strateji tərəfdaşlığı, parlament diplomatiyasının əhəmiyyəti, habelə postmünaqişə dövründə bölgədəki mövcud vəziyyət müzakirə olunub. Ötən il Pakistana rəsmi səfəri və bu çərçivədə Yusif Rza Gilani ilə görüşünü məmnunluqla xatırlayan Ceyhun Bayramov intensiv qarşılıqlı təmas və səfərlərin strateji tərəfdaşlığımızın inkişafına töhfə verdiyini qeyd edib.

Söhbət zamanı dostluq, qardaşlıq, qarşılıqlı hörmət və dəstəyə əsaslanan Azərbaycan-Pakistan münasibətlərinin ikitərəfli, o cümlədən çoxtərəfli müstəvidə inkişaf etdirilməsi üçün potensialın mövcud olduğu diqqətə çatdırılıb. Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, AQEM çərçivəsində əməkdaşlıq imkanlarının müzakirə olunduğu görüşdə, iki ölkə tərəfindən bir-birinin ərazi bütövlüyü və suverenliyinə göstərilən davamlı dəstək minnətdarlıqla vurğulanıb. İki ölkənin qanunvericilik orqanları, deputatları arasında əlaqələrin, habelə parlament diplomatiyasının gücləndirilməsinin tarixi və mədəni baxımdan yaxın olan xalqlarımız arasında münasibətlərə töhfə verdiyi bildirilib.

Nazir Ceyhun Bayramov həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, minatəmizləmə fəaliyyəti, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumatlandırıb.

Görüşdə eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanda iqtisadi şaxələndirməyə və yaşıl artıma dəstək məsələləri müzakirə olunub

İqtisadiyyat naziri Mikayıl Cabbarov Asiya İnkişaf Bankının (AİB) Azərbaycandakı Nümayəndəliyinin ölkə üzrə direktoru Sunniya Durrani-Camal ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə AİB ilə münasibətlərin inkişaf etdiyi vurğulanıb. Ortamüddətli dövrdə ölkəmizdə sosial-iqtisadi inkişaf, investisiyaların təşviqi üzrə prioritetlər, bankın Ölkə Tərəfdaşlıq Strategiyasının əhatə edəcəyi istiqamətlər barədə məlumat verilib.

Tərəflər işbirliyinin gündəliyində olan məsələlər haqqında fikir mübadiləsi aparıblar. Ölkəmizdə iqtisadi şaxələndirməyə və yaşıl artıma dəstək, özəl sektorun, insan kapitalının, sənaye zonalarının inkişafı, rəqəmsallaşma və sair məsələlər müzakirə olunub.

# Asiya Parlament Assambleyasının İcraedici Şurasının iclası keçirilib




Fevralın 18-də Bakıda Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyası çərçivəsində qurumun İcraedici Şurasının iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası giriş nitqi ilə APA-da Azərbaycan parlament nümayəndə heyətinin rəhbəri, qurumun İcraedici Şurasının sədri Rizvan Nəbiyev açıb. Azərbaycanın sədrliyi ilə 26 ölkəni təmsil edən 250-dən çox nümayəndə və 7 beynəlxalq təşkilatın təmsilçisinin qatıldığı APA-nın 15-ci sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətini qeyd edən nümayəndə heyətinin rəhbəri, İcraedici Şuranın iclasının iştirakçılarını Milli Məclisin Sədri Sahibə Qafarovanın adından salamlayıb və tədbirin təşkilinə yaradılan şəraitə görə ona təşəkkürünü bildirib.

Rizvan Nəbiyev, ötən il Azərbaycanın bütün suveren ərazilərində baş tutmuş növbədənkənar prezident və parlament seçkiləri haqqında məlumat verib, həmçinin Bakıda keçirilmiş COP29 - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası və onun çərçivəsində qəbul edilmiş mühüm qərarların əhəmiyyəti barədə danışıb. O, COP29 çərçivəsində qəbul edilən qərarların ətraf mühitin mühafizəsi, "yaşıl enerji" keçidi və dayanıqlı inkişaf məqsədlərinə nail olunması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi layihələr və beynəlxalq əməkdaşlığa verdiyi töhfələr xüsusi qeyd edilib. Bildirilib ki, Azərbaycanın irəli sürdüyü təkliflər iqlim dəyişmələri ilə mübarizədə önəmli addım olmaqla yanaşı, qlobal miqyasda davamlı inkişafın təmin edilməsinə töhfə verəcək.

İclasda APA-nın Baş katibi Məhəmməd Reza Məcidi qurumun ötən dövrdəki fəaliyyəti ilə bağlı hesabat təqdim edib. O, bu müddət ərzində görülən işlərdən bəhs edib, 2026-2027-ci illər üçün APA prezidentliyi və vitse-prezidentliyinə namizədliklər, bəzi ölkələrə tam hüquqlu və müşahidəçi statusunun verilməsi məsələləri, eləcə də qurumun komitələrində müzakirə olunan qətnamə layihələri üzrə fikir və təkliflər barədə məlumat verib. Baş katib evsahibliyinə görə Azərbaycana təşəkkürünü bildirib.

Sonra APA-nın 15-ci Plenar sessiyasının gündəliyi müzakirə olunub. Tədbirdə qurumun Siyasi məsələlər üzrə, İqtisadi və davamlı inkişaf üzrə, Büdcə və planlaşdırma üzrə, Sosial və mədəni məsələlər üzrə daimi komitələri tərəfindən irəli sürülən qətnamə layihələri nəzərdən keçirilib, təşkilati və digər məsələlərə baxılıb.

İclasda Milli Məclisin APA-dakı nümayəndə heyətinin üzvləri İlham Məmmədov, Naqif Həmzəyev, Aydın Hüseynov, Günay Ağamalı, deputat Zaur Şükürov, APA-ya üzv ölkələrin nümayəndə heyətləri və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Diplomatik xidmət haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının fəaliyyət istiqamətlərini və funksiyalarını, diplomatik xidmət orqanlarında xidmətin hüquqi əsaslarını və təşkili qaydalarını, eləcə də diplomatik xidmət orqanı əməkdaşlarının hüquqi vəziyyətinin əsaslarını, əməkdaşların və onların ailə üzvlərinin maddi təminatı və sosial müdafiəsi ilə bağlı məsələləri tənzimləyir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **diplomatik xidmət** - diplomatik xidmət orqanlarının fəaliyyət istiqamətləri və funksiyaları üzrə səlahiyyətlərini həyata keçirən diplomatik xidmət əməkdaşlarının dövlət qulluğunun xüsusi növü olan peşə fəaliyyəti;

1.1.2. **diplomatik xidmət əməkdaşı** - diplomatik xidmət orqanlarında diplomatik vəzifə tutan və diplomatik rütbəsi olan əməkdaş;

1.1.3. **diplomatik xidmət orqanları** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları;

1.1.4. **diplomatik xidmət orqanı əməkdaşları** - diplomatik xidmət və inzibati-texniki xidmət əməkdaşları;

1.1.5. **diplomatik nümayəndəlik** - Azərbaycan Respublikasının səfirliyi, təmsilçilik ofisi, daimi nümayəndəliyi və nümayəndəliyi;

1.1.6. **inzibati-texniki xidmət əməkdaşı** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) inzibati və ya yardımçı vəzifə tutan, diplomatik nümayəndəlikdə və konsulluqda inzibati-texniki xidməti həyata keçirən dövlət qulluqçusu;

1.1.7. **konsulluq** - Azərbaycan Respublikasının baş konsulluğu, konsulluğu, vitse-konsulluğu və konsul agentliyi;

1.1.8. **qəbul edən dövlət** - diplomatik nümayəndəliyin və ya konsulluğun yerləşdiyi, həmçinin təmsil olunduğu xarici dövlət.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

**Maddə 2. Diplomatik xidmət haqqında qanunvericilik**

2.1. Diplomatik xidmət haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

2.2. Diplomatik xidmətkeçmə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququna, dövlət qulluğuna qəbulun şəffaflıq əsasında müsabiqə və müsahibə yolu ilə həyata keçirilməsinə, dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəaları, həmçinin həmin Qanunun 15-1-ci maddəsi nəzərə alınmaqla bu Qanunla tənzimlənir.

2.3. Diplomatik xidmət orqanı əməkdaşlarının əmək münasibətlərinə dair bu Qanunda nəzərdə tutulmayan məsələlər "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Əmək Məcəlləsinin müvafiq normaları ilə tənzimlənir.

**Maddə 3. Diplomatik xidmətin prinsipləri**

3.1. Diplomatik xidmət aşağıdakı prinsiplərə əsaslanır:

3.1.1. Azərbaycan dövlətinə və xalqına sədaqətlə xidmət;

3.1.2. Azərbaycan Respublikasının milli maraqlarının qorunması;

3.1.3. qanunçuluq;

3.1.4. diplomatik xidmətə qəbulun ədalətliliyi və şəffaflığı;

3.1.5. peşəkarlıq, fərdi məsuliyyət və qərəzsizlik;

3.1.6. vətəndaşların öz qabiliyyətinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq, diplomatik xidmət orqanlarında hər hansı vəzifəni tutmaqda hüquq bərabərliyi;

3.1.7. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, diplomatik xidmət orqanı əməkdaşlarının qanuni fəaliyyətinə məhdudiyyət qoyulmasının, təsir və müdaxilə edilməsinin yolverilməzliyi;

3.1.8. həmkarlar ittifaqı istisna olmaqla, diplomatik xidmət orqanlarında siyasi partiyaların və ictimai birliklərin strukturlarının yaradılmaması;

3.1.9. irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə, əmlak və qulluq mövqeyindən, yaşayış yerindən, əqidəsindən, həmkarlar ittifaqlarına və ya ictimai birliklərə mənsubiyyətindən, habelə xidməti fəaliyyətinə aid olmayan başqa səbəblərdən asılı olmayaraq diplomatik xidmət orqanı əməkdaşlarının hüquq bərabərliyi;

3.1.10. diplomatik xidmət orqanı əməkdaşlarının potensialından səmərəli istifadə və onların rotasiyası;

3.1.11. diplomatik xidmət orqanı əməkdaşlarının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün layiqli həyat səviyyəsinin təmin edilməsi;

3.1.12. diplomatik xidmət orqanlarının və diplomatik xidmət orqanı əməkdaşlarının fəaliyyətinə nəzarət edilməsi və onların hesabat verməsi.

### 2-ci fəsil
### DİPLOMATİK XİDMƏT ORQANLARI

**Maddə 4. Diplomatik xidmət orqanlarının sistemi**

4.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), diplomatik nümayəndəliklər və konsulluqlar, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyindəki ali təhsil müəssisəsi diplomatik xidmət orqanlarının vahid sistemini təşkil edir.

4.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) diplomatik xidmət orqanlarının vahid sisteminə rəhbərlik edən diplomatik xidmət orqanıdır.

4.3. Azərbaycan Respublikasının səfirliyi və Azərbaycan Respublikasının təmsilçilik ofisi qəbul edən dövlətdə Azərbaycan Respublikasını təmsil edən diplomatik xidmət orqanlarıdır.

4.4. Azərbaycan Respublikasının daimi nümayəndəliyi və Azərbaycan Respublikasının nümayəndəliyi beynəlxalq təşkilatda və ya onun bölməsində Azərbaycan Respublikasını təmsil edən diplomatik xidmət orqanlarıdır.

4.5. Azərbaycan Respublikasının konsulluğu qəbul edən dövlətdə müvafiq konsul dairəsində Azərbaycan Respublikası adından konsul funksiyalarını həyata keçirən diplomatik xidmət orqanıdır. Qəbul edən dövlətin ərazisinin Azərbaycan Respublikası konsulluğunun konsul dairəsinə aid olmayan hissəsində, həmçinin Azərbaycan Respublikasının konsulluğunun olmadığı xarici dövlətdə konsul funksiyalarını həmin dövlətdə akkreditə olunan Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi həyata keçirir.

4.6. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının təsis edilməsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının və qəbul edən dövlətin və ya beynəlxalq təşkilatın tərəfdar çıxdıqları beynəlxalq müqavilələr və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə tənzimlənir.

4.7. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 2-ci bəndinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən, Azərbaycan Respublikasının konsulluğu isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsis edilir.

4.8. Diplomatik xidmət orqanlarının tabeliyində təhsil, elmi tədqiqat və mədəniyyət müəssisələri, eləcə də digər hüquqi şəxslər yaradıla bilər.

4.9. Diplomatik xidmət orqanlarının vahid sisteminə daxil olan orqanların, onların tabeliyində yaradılan qurumların hüquqi vəziyyəti ilə bağlı məsələlər, bu Qanun nəzərə alınmaqla, müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

**Maddə 5. Diplomatik xidmət orqanlarının fəaliyyət istiqamətləri**

5.1. Diplomatik xidmət orqanlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

5.1.1. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsi, xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda təmsil olunması;

5.1.2. Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, milli təhlükəsizliyinin və milli maraqlarının xarici siyasət vasitələri ilə və diplomatik üsullarla qorunması və təmin olunması;

5.1.3. Azərbaycan Respublikası ilə xarici dövlətlər və beynəlxalq təşkilatlar arasında dostluq münasibətlərinin, sülhün və əməkdaşlığın inkişaf etdirilməsi;

5.1.4. beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına xarici siyasət vasitələri ilə töhfə və diplomatik üsullarla dəstək verilməsi;

5.1.5. xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarının və qanuni mənafelərinin xarici siyasət vasitələri ilə və diplomatik üsullarla müdafiəsi;

5.1.6. Azərbaycan Respublikasının xarici siyasətinin vahid xətt üzrə həyata keçirilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət orqanlarının (qurumlarının) xarici əlaqələr sahəsində fəaliyyətinin əlaqələndirilməsi;

5.1.7. beynəlxalq siyasi, ictimai, iqtisadi və təhlükəsizlik vəziyyətinin, xarici dövlətlərin xarici və daxili siyasətinin, beynəlxalq təşkilatların fəaliyyətinin təhlili;

5.1.8. Azərbaycan Respublikasının xarici dövlətlərlə diplomatik və konsul əlaqələrinin, beynəlxalq təşkilatlarla diplomatik əlaqələrinin həyata keçirilməsi;

5.1.9. xaricdə yaşayan soydaşlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə və əlaqələrin inkişafına dəstək verilməsi;

5.1.10. Azərbaycan Respublikasının dövlət protokolunun təmin olunması;

5.1.11. konsul işinin təşkil edilməsi və konsul funksiyalarının həyata keçirilməsi.

5.2. Diplomatik xidmət orqanları Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş digər istiqamətlərdə də fəaliyyət göstərə bilərlər.

**Maddə 6. Diplomatik xidmət orqanlarının funksiyaları**

6.1. Diplomatik xidmət orqanları aşağıdakı əsas funksiyaları həyata keçirir:

6.1.1. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsini təmin etmək və əlaqələndirmək;

6.1.2. Azərbaycan Respublikasının milli maraqlarına uyğun sahələr üzrə xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq, əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək;

6.1.3. Azərbaycan Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərdə təmsil etmək və onun milli maraqlarını qorumaq;

6.1.4. Azərbaycan Respublikasının beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi sahəsində təşəbbüslərini xarici siyasət vasitələri ilə həyata keçirmək;

6.1.5. milli təhlükəsizliyin təmin olunmasından irəli gələn məsələləri xarici siyasət vasitələri ilə və diplomatik üsullarla həyata keçirmək;

6.1.6. Azərbaycan Respublikası ilə xarici dövlətlər və beynəlxalq təşkilatlar arasında danışıqların aparılmasını təşkil və təmin etmək;

6.1.7. Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda hüquqlarını və qanuni mənafelərini xarici siyasət vasitələri ilə və diplomatik üsullarla müdafiə etmək;

6.1.8. dövlət orqanlarının (qurumlarının) xarici əlaqələr sahəsində fəaliyyətinin vahid xarici siyasət xəttinə uyğun həyata keçirilməsini təşkil etmək və həmin orqanların (qurumların) bu istiqamətdə fəaliyyətini əlaqələndirmək;

6.1.9. dövlət orqanlarının (qurumlarının) xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən nümayəndələrinin, habelə xaricə ezam olunmuş nümayəndə heyətlərinin fəaliyyətini əlaqələndirmək;

6.1.10. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə dəstək vermək;

6.1.11. Azərbaycan Respublikasının xarici siyasəti çərçivəsində beynəlxalq yardım fəaliyyətinə dair təklif vermək, beynəlxalq yardımın təşkilində, həyata keçirilməsində və əlaqələndirilməsində iştirak etmək;

6.1.12. Azərbaycan Respublikasının milli maraqları baxımından dövlət orqanlarının (qurumlarının), qeyri-hökumət təşkilatlarının (ictimai birliklərin və fondların) və işgüzar dairələrin xarici dövlətlərin dövlət orqanları (qurumları), qeyri-hökumət təşkilatları (ictimai birlikləri və fondları) və işgüzar dairələri ilə, habelə Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların orqanları, bölmələri və nümayəndəlikləri (bundan sonra - beynəlxalq təşkilatların orqanları) ilə əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə kömək göstərmək;

6.1.13. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası üzərində ümumi müşahidəni həyata keçirmək;

6.1.14. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi hallar istisna olmaqla, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin depozitarisi funksiyasını həyata keçirmək, beynəlxalq müqavilələrin qeydiyyatını, uçotunu və saxlanılmasını təmin etmək;

6.1.15. müəyyən edilmiş səlahiyyətlər daxilində beynəlxalq məhkəmə və arbitraj işlərində Azərbaycan Respublikasının milli maraqlarını müdafiə etmək;

6.1.16. Azərbaycan Respublikasının xarici siyasəti ilə bağlı rəsmi bəyanatlar, şərh və açıqlamalar vermək, dövlət orqanlarını (qurumlarını) və media subyektlərini beynəlxalq vəziyyət və Azərbaycan Respublikasının xarici siyasəti haqqında məlumatlandırmaq;

6.1.17. Azərbaycan Respublikası haqqında rəsmi məlumatların xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda yayılmasını təmin etmək;

6.1.18. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası və digər beynəlxalq əlaqələrinin qurulmasına və həyata keçirilməsinə kömək göstərmək;

6.1.19. konsul işini təşkil etmək və konsul funksiyalarını həyata keçirmək;

6.1.20. yüksək səviyyədə dövlətlərarası və hökumətlərarası mübadilələrin protokol təminatını həyata keçirmək;

6.1.21. dövlət orqanları (qurumları) ilə Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və konsulluqlarının, həmçinin Azərbaycan Respublikasında fəaliyyət göstərən beynəlxalq təşkilatların orqanlarının qarşılıqlı əlaqələrinə kömək göstərmək;

6.1.22. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq diplomatik və konsul imtiyazlarının və immunitetlərinin yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirmək;

6.1.23. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, həmçinin normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və konsulluqlarının, eləcə də beynəlxalq təşkilatların orqanlarının əməkdaşlarını arzuolunmaz şəxs elan etmək və bu barədə məlumatı aidiyyəti üzrə təqdim etmək;

6.1.24. xaricdə yaşayan soydaşlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə və əlaqələrin qurulmasına, eləcə də onlar arasında əməkdaşlığın inkişafına, həmrəyliyin gücləndirilməsinə və milli mənafeyə xidmət edən tədbirlərin təşkilinə dəstək vermək;

6.1.25. xarici dövlətlərdə silahlı münaqişələr və fövqəladə hallar zamanı, həmçinin təhlükəsizliyə təhdid yarandığı digər hallarda, müvafiq xarici dövlətdə fəaliyyət göstərən diplomatik nümayəndəlikdə və konsulluqda xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin, eləcə də orada olan digər Azərbaycan Respublikası vətəndaşlarının təhlükəsizliyini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək, həmçinin onların təxliyəsini təşkil etmək;

6.1.26. diplomatik və rəsmi yazışmalar aparmaq, onların qeydiyyatını, saxlanılmasını, arxivləşdirilməsini və mühafizəsini təmin etmək.

6.2. Diplomatik xidmət orqanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq digər funksiyaları da həyata keçirə bilərlər.

### 3-cü fəsil
### DİPLOMATİK XİDMƏT ORQANI ƏMƏKDAŞLARI

**Maddə 7. Diplomatik xidmət orqanı əməkdaşlarının əsas vəzifələri**

7.1. Diplomatik xidmət orqanı əməkdaşlarının əsas vəzifələri aşağıdakılardır:

7.1.1. Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və digər normativ hüquqi aktlarına, eləcə də Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə riayət etmək;

7.1.2.vəzifə funksiyalarını yerinə yetirmək, rotasiya qaydalarına riayət etmək və məhdudiyyətlərə əməl etmək;

7.1.3. rəhbərlərinin öz səlahiyyətləri hüdudlarında verdikləri əmrləri, sərəncamları və göstərişləri vaxtında və keyfiyyətlə yerinə yetirmək;

7.1.4. diplomatik nümayəndəlikdə və konsulluqda xidmət, eləcə də xidməti ezamiyyətlər dövründə qəbul edən dövlətin qanunvericiliyinə, həmçinin adət-ənənələrinə hörmətlə yanaşmaq və daxili işlərinə qarışmamaq, Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə, eləcə də qanunla müəyyən olunmuş güzəştlərdən, imtiyazlardan və immunitetlərdən sui-istifadə etməmək, o cümlədən birlikdə yaşadıqları ailə üzvlərinin də eyni şəkildə davranmalarını təmin etmək;

7.1.5. diplomatik xidmət orqanlarının nüfuzuna xələl gətirən əməllərə yol verməmək, eləcə də həmin hərəkətləri və əməlləri dəstəkləməmək və ya təşviq etməmək;

7.1.6. dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müraciətlərinə qanunla müəyyən edilmiş qaydada baxmaq;

7.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda və qaydada öz xidməti vəzifələrinin icrasına yararlı olmasının müəyyən edilməsi üçün tibbi müayinədən keçmək;

7.1.8. etik davranış qaydalarına, əmək və icra intizamına riayət etmək;

7.1.9. diplomatik nümayəndəlikdə və ya konsulluqda müvafiq vəzifəyə təyin olunduqda təyinat tarixində və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmış tarixdə təyin olunduğu diplomatik nümayəndəliyə və ya konsulluğa gəlmək, həmçinin diplomatik nümayəndəlikdən və ya konsulluqdan tutduğu vəzifədən azad edildikdə (geri çağırıldıqda) azad edilmə (geri çağırılma) tarixindən etibarən 10 (on) iş günü müddətində və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmış tarixdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) qayıtmaq;

7.1.10. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən beynəlxalq təşkilatın orqanına işləməyə göndərildikdə vəzifə səlahiyyətlərinin icrasına başlayacağı tarixdə və ya müvafiq beynəlxalq təşkilatın orqanı ilə razılaşdırılmış tarixdə həmin orqana gəlmək və öz vəzifələrinin icrasına başladığı tarixdən etibarən 3 (üç) iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) yazılı şəkildə məlumatlandırmaq;

7.1.11. beynəlxalq təşkilatın orqanında fəaliyyətini bitirdikdə və ya fəaliyyətinin bitmə müddətindən əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən geri çağırıldıqda fəaliyyətin bitmə və ya geri çağırılma tarixindən etibarən 10 (on) iş günü müddətində, yaxud müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmış tarixdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) qayıtmaq;

7.1.12. əcnəbi və ya vətəndaşlığı olmayan şəxslə keçirilən görüşlər barədə xidmətdə olduğu diplomatik xidmət orqanının rəhbərini və ya tabeliyində xidmət keçdiyi vəzifəli şəxsi məlumatlandırmaq;

7.1.13. əcnəbi və ya vətəndaşlığı olmayan şəxslə nikaha daxil olduqda, həmçinin əməkdaşın övladları tərəfindən belə nikah bağlandıqda, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) 10 (on) iş günü müddətində məlumatlandırmaq;

7.1.14. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) və ya tabeliyində xidmət keçdiyi vəzifəli şəxslə razılaşdırmaqla qəbul edən dövlətin ərazisini tərk etmək;

7.1.15. diplomatik nümayəndəlikdə və konsulluqda xidmət dövründə qəbul edən dövlətdə silahlı münaqişə baş verdikdə, hərbi və ya fövqəladə vəziyyət elan edildikdə, fəaliyyət və hərəkətlərini xidmət keçdiyi diplomatik xidmət orqanının rəhbəri ilə razılaşdırmaq, onun və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaranmış vəziyyətlə bağlı göstərişlərini yerinə yetirmək;

7.1.16. vəzifə borcunun yerinə yetirilməsi ilə əlaqədar vətəndaşların şəxsi, ailə həyatı, şərəfi və ləyaqəti ilə bağlı daxil olan məlumatları gizli saxlamaq, eləcə də hər hansı şəxs barəsində fərdi məlumatların toplanılmasını və işlənilməsini "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirmək;

7.1.17. "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş dövlət sirrini təşkil edən məlumatların daşıyıcıları ilə iş qaydalarına əməl etmək, dövlət sirrini və qanunla mühafizə edilən digər sirləri həmişə, o cümlədən diplomatik xidmət orqanlarında xidmətinə xitam verildikdən sonra da saxlamaq, onlardan diplomatik xidmət orqanlarında xidmətlə bağlı olmayan məqsədlər üçün istifadə etməmək.

**Maddə 8. Diplomatik xidmət orqanı əməkdaşlarının əsas hüquqları**

8.1. Diplomatik xidmət orqanının əməkdaşları aşağıdakı əsas hüquqlara malikdirlər:

8.1.1. xidməti vəzifələrini yerinə yetirmək üçün həyatının, sağlamlığının və əməyinin mühafizəsini təmin edən xidmət şəraiti ilə təmin olunmaq;

8.1.2. Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə, eləcə də qanunla müəyyən olunmuş güzəştlərdən, imtiyazlardan və immunitetlərdən istifadə etmək;

8.1.3. xidmət keçdiyi diplomatik xidmət orqanı rəhbərinin icrası məcburi olan göstərişinin və ya əmrinin qanuniliyi və ya dürüstlüyü şübhə doğurursa, onların yazılı şəkildə verilməsini tələb etmək;

8.1.4. dövlət məvacibi almaq;

8.1.5. əlavə təhsili və xidməti vəzifələrinin yerinə yetirilməsinə münasibəti nəzərə alınmaqla xidmətdə irəli çəkilmək iddiasında olmaq;

8.1.6. öz şəxsi işinin bütün materialları ilə, şəxsi işə tikilməli olan rəylər və digər sənədlərlə tanış olmaq, onların surətlərini əldə etmək, habelə öz izahatlarının şəxsi işə əlavə edilməsini tələb etmək;

8.1.7. şərəf və ləyaqətinə xələl gətirən məlumatların təkzib edilməsi üçün xidməti araşdırmanın aparılmasını tələb etmək;

8.1.8. müvafiq orqanlarda və məhkəmədə öz hüquqlarını və qanuni mənafeyini müdafiə etmək;

8.1.9. elmi və yaradıcılıq fəaliyyəti ilə, həmçinin xidmət keçdiyi diplomatik xidmət orqanı rəhbərinin icazəsi ilə pedaqoji fəaliyyətlə məşğul olmaq;

8.1.10. əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürmək (əgər bu, maraqların toqquşması və korrupsiya hüquqpozmalarına səbəb olmursa);

8.1.11. həmkarlar ittifaqlarında birləşmək;

8.1.12. normativ hüquqi aktlarda başqa hal nəzərdə tutulmayıbsa və bu, diplomatik xidmət orqanı əməkdaşının vəzifələrinin icrası ilə bir araya sığmayan deyilsə, ictimai birliklərə üzv olmaq;

8.1.13. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qaydada dövlət vəsaiti hesabına əlavə təhsil almaq və müvafiq təlim keçmək;

8.1.14. normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada məzuniyyət və sığorta hüquqlarından istifadə etmək, pensiya, müavinət və kompensasiyalar almaq.

**Maddə 9. Diplomatik xidmət orqanı əməkdaşlarına şamil olunan məhdudiyyətlər**

9.1. Diplomatik xidmət orqanı əməkdaşlarının aşağıdakıları etməsinə məhdudiyyət qoyulur:

9.1.1. Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərinə xələl gətirə biləcək hərəkət və davranışlara yol verməsinə;

9.1.2. tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməsinə;

9.1.3. diplomatik xidmətinə xitam verildikdən sonra normativ hüquqi aktlarla müəyyən edilmiş müddət ərzində öz xidməti fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməsinə;

9.1.4. xidmət keçdiyi dövrdə siyasi partiyalara üzv olmasına, eləcə də siyasi partiyaların və dini qurumların fəaliyyətində iştirak etməsinə;

9.1.5. əlavə ödənişli (əmək qanunvericiliyində nəzərdə tutulan qaydada müvəqqəti əvəzetməyə görə haqqın ödənilməsi halları istisna olmaqla) seçkili və ya təyinatlı vəzifə tutmasına;

9.1.6. xidmət keçdiyi diplomatik xidmət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji fəaliyyətlə məşğul olmasına;

9.1.7. dövlət orqanının (qurumunun) və ya yerli özünüidarəetmə orqanının işləri üzrə üçüncü şəxslərin nümayəndəsi (təmsilçisi) olmasına;

9.1.8. xarici dövlətin vətəndaşlığının, xarici dövlətdə müvəqqəti və ya daimi yaşamaq hüququ verən icazənin (sənədin) əldə edilməsi üçün müraciət etməsinə (xidməti fəaliyyətlə əlaqədar qeydiyyat (akkreditasiya) istisna olmaqla);

*Ardı 10-cu səh.*

# Diplomatik xidmət haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 9-cu səh.*

9.1.9. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) və ya xidmət keçdiyi diplomatik xidmət orqanı rəhbərinin icazəsi olmadan xarici dövlətin və ya beynəlxalq təşkilatın vəsaiti, eləcə də digər xarici mənbələr hesabına səfərlərə getməsinə və tədbirlərdə iştirak etməsinə.

**Maddə 10. Diplomatik xidmət orqanı əməkdaşlarının həvəsləndirilməsi**

10.1. Vəzifə funksiyalarının nümunəvi icrasına və ya xidməti nailiyyətlərinə görə fərqlənmiş diplomatik xidmət orqanı əməkdaşlarına aşağıdakı həvəsləndirmə tədbirləri tətbiq oluna bilər:

10.1.1. təşəkkür elan edilmə;

10.1.2. pul mükafatı;

10.1.3. qiymətli hədiyyə ilə mükafatlandırılma;

10.1.4. fəxri fərmanilə təltif edilmə;

10.1.5. növbəti diplomatik rütbənin vaxtından əvvəl verilməsi;

10.1.6. qüvvədə olan intizam tənbehi tədbirinin vaxtından əvvəl götürülməsi.

10.2. Həvəsləndirmə tədbirinin tətbiqi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri tərəfindən həyata keçirilir.

10.3. Diplomatik xidmət orqanı əməkdaşları fərdi və ya kollektiv qaydada həvəsləndirilə bilərlər.

10.4. Diplomatik xidmət orqanı əməkdaşının fərdi həvəsləndirilməsi onun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə uyğun olaraq, habelə diplomatik xidmət orqanının əməkdaşı tərəfindən vəzifə funksiyaları nümunəvi icra edildikdə, fəaliyyətində yüksək nailiyyətlər əldə olunduqda, mühüm tapşırıqlar vaxtında və keyfiyyətlə yerinə yetirildikdə həyata keçirilir.

10.5. Diplomatik xidmət orqanı əməkdaşlarının kollektiv həvəsləndirilməsi diplomatik xidmət orqanının fəaliyyət istiqamətləri üzrə işlər və ya mühüm tapşırıqlar vaxtında və keyfiyyətlə yerinə yetirildikdə, habelə Azərbaycan Respublikasının bayram günləri ilə və digər əlamətdar hadisələrlə əlaqədar həyata keçirilir.

10.6. Diplomatik xidmət orqanı əməkdaşları xüsusi xidmətlərinə görə Azərbaycan Respublikasının orden, medal və fəxri adları ilə təltif olunmaq üçün təqdim oluna bilərlər.

10.7. Diplomatik xidmət orqanı əməkdaşlarının mükafatlandırılması məqsədilə hər il növbəti il üçün təsdiq olunan dövlət büdcəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) diplomatik xidmət orqanı əməkdaşları üçün müəyyən olunmuş aylıq vəzifə maaşının 3 (üç) misli həcmində əlavə vəsait nəzərdə tutulur.

**Maddə 11. Diplomatik xidmət orqanı əməkdaşlarının intizam məsuliyyəti**

11.1. Diplomatik xidmət orqanı əməkdaşları bu Qanunun 7-ci maddəsi ilə müəyyən olunmuş vəzifələri layiqincə yerinə yetirmədikdə və bu Qanunun 9-cu maddəsi ilə müəyyən olunmuş məhdudiyyətlərə riayət etmədikdə, habelə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsi ilə müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (həmin əməllər inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) onların barəsində aşağıdakı intizam tənbehi tədbirlərindən biri tətbiq edilə bilər:

11.1.1. töhmət;

11.1.2. sonuncu xəbərdarlıqlaşiddətli töhmət;

11.1.3. bir pillə aşağı diplomatik vəzifəyə keçirmə;

11.1.4. diplomatik rütbəni bir pillə aşağı salma;

11.1.5.diplomatik xidmət orqanlarından xaric etmə;

11.1.6.diplomatik rütbədən məhrum edilməklə diplomatik xidmət orqanlarından xaric etmə.

11.2. Bu Qanunun 11.1-ci maddəsi ilə müəyyən olunmuş intizam tənbehi tədbirlərindən hər hansı biri tətbiq olunmadan, diplomatik xidmət orqanı əməkdaşına şifahi və ya yazılı xəbərdarlıq edilə bilər. Xəbərdarlıq intizam tənbehi tədbiri sayılmır.

11.3. Bu Qanunun 11.1.1-ci və 11.1.2-ci maddələrində nəzərdə tutulan intizam tənbehi tədbirləri verildiyi gündən 6 (altı) ay müddətində qüvvədə olur.

11.4. Bu Qanunun 11.1.3-cü maddəsində nəzərdə tutulan intizam tənbehi tədbiri tətbiq edildikdə, diplomatik xidmət əməkdaşı 6 (altı) ay müddətində əvvəlki vəzifəsinə bərpa edilə və ya digər yuxarı vəzifəyə keçirilə bilməz. Bu intizam tənbehi tədbiri təqvim ili ərzində yalnız bir dəfə tətbiq oluna bilər, eləcə də ən aşağı diplomatik vəzifə tutan diplomatik xidmət əməkdaşları barəsində tətbiq edilə bilməz.

11.5. Bu Qanunun 11.1.4-cü maddəsində nəzərdə tutulan intizam tənbehi tədbiri tətbiq edildikdə, diplomatik xidmət əməkdaşının aşağı salınmış diplomatik rütbədə xidmət müddəti intizam tənbehi tətbiq edilməsi barədə əmrin verildiyi tarixdən hesablanır. Bu intizam tənbehi tədbiri təqvim ili ərzində yalnız bir dəfə tətbiq oluna bilər, eləcə də ən aşağı diplomatik rütbəyə malik diplomatik xidmət əməkdaşları barəsində tətbiq edilə bilməz.

11.6. Bu Qanunun 11.1.5-ci maddəsində nəzərdə tutulan intizam tənbehi tədbiri diplomatik xidmət orqanı əməkdaşı tərəfindən bu Qanunun 7-ci maddəsində nəzərdə tutulan vəzifələr mütəmadi yerinə yetirilmədikdə və ya bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulan məhdudiyyətlərə əməl edilmədikdə tətbiq edilə bilər.

11.7. Bu Qanunun 11.1.6-cı maddəsində nəzərdə tutulan intizam tənbehi tədbiri bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulan məhdudiyyətlərə diplomatik xidmət orqanının əməkdaşı tərəfindən əməl edilməməsi Azərbaycan Respublikasının və ya diplomatik xidmət orqanlarının nüfuzuna xələl gətirdikdə tətbiq edilə bilər.

11.8. Bu Qanunun 10.1-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda diplomatik xidmət orqanı əməkdaşına verilmiş intizam tənbehi tədbiri vaxtından əvvəl götürülə bilər.

11.9. Bu Qanunun 11.1-ci maddəsinin birinci abzasına uyğun olaraq intizam tənbehi tədbirinin tətbiqinə əsas olduqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbərinin göstərişi ilə araşdırma aparılır. Araşdırmanın nəticəsi üzrə zərurət yarandıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri xidməti yoxlama təyin edir. Araşdırma və ya xidməti yoxlama aparılarkən diplomatik xidmət orqanı əməkdaşının yazılı izahatı alınır. Diplomatik xidmət orqanının əməkdaşı yazılı izahat verməkdən imtina etdikdə bu hal rəsmiləşdirilir və intizam tənbehi tədbirinin tətbiqinə mane olmur.

11.10. Diplomatik xidmət orqanının əməkdaşı barəsində intizam tənbehi tədbiri bu Qanunun 11.1-ci maddəsinin birinci abzasında nəzərdə tutulan əsaslar aşkar edildiyi gündən 60 (altmış) gün keçənədək tətbiq edilə bilər. Diplomatik xidmət orqanı əməkdaşının məzuniyyətdə və ya ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində araşdırma, xidməti yoxlama və ya cinayət təqibinin həyata keçirildiyi dövr həmin müddətə daxil edilmir.

11.11. İntizam məsuliyyətinə səbəb olan əməllərin törədildiyi gündən 6 (altı) ay keçdikdən sonra diplomatik xidmət orqanı əməkdaşına intizam tənbehi tədbiri tətbiq edilə bilməz. Əmək qabiliyyətinin müvəqqəti itirildiyi və cinayət təqibinin həyata keçirildiyi dövr bu müddətə daxil edilmir.

11.12. Diplomatik xidmət orqanının əməkdaşı barəsində intizam tənbehi tədbiri tətbiq edilərkən onun xidməti və şəxsi keyfiyyətləri, törədilən əməlin xarakteri, törədilmə şəraiti, təkrarlığı və digər hallar nəzərə alınır.

11.13. Diplomatik xidmət orqanı əməkdaşları barəsində intizam tənbehi tədbirlərinin tətbiqi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri tərəfindən həyata keçirilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri bu Qanunun 11.1.3-11.1.6-cı maddələrində nəzərdə tutulan intizam tənbehi tədbirlərini vəzifəyə təyin etdiyi və ya rütbə verdiyi diplomatik xidmət orqanı əməkdaşları barəsində tətbiq edir.

11.14. Diplomatik xidmət orqanının əməkdaşı barəsində tətbiq olunan intizam tənbehi tədbiri ilə razılaşmadıqda inzibati qaydada və ya məhkəməyə şikayət verə bilər.

11.15. Qüvvədə olan intizam tənbehi tədbiri qanuni qüvvəyə minmiş məhkəmə qərarı əsasında və ya bu Qanunun 11.1.5-ci və 11.1.6-cı maddələrində nəzərdə tutulan intizam tənbehi tədbirləri istisna olmaqla, həvəsləndirmə qaydasında ləğv edilə bilər.

**Maddə 12. Diplomatik xidmət orqanı əməkdaşlarının əməyinin ödənilməsi**

12.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən diplomatik xidmət əməkdaşlarının dövlət məvacibi vəzifə maaşından, mükafatlardan və bu Qanunun 12.2-ci maddəsində nəzərdə tutulan vəzifə maaşına əlavələrdən ibarətdir.

12.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən diplomatik xidmət əməkdaşlarının vəzifə maaşlarının məbləği və vəzifə maaşına diplomatik xidmət stajına, diplomatik rütbəyə, təmsilçiliyə, hakimiyyət səlahiyyətinə görə əlavələr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

12.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən inzibati-texniki xidmət əməkdaşlarının dövlət məvacibi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qulluqçuları üçün nəzərdə tutulan vəzifə maaşından, mükafatlardan və vəzifə maaşına əlavələrdən ibarətdir.

12.4. Diplomatik nümayəndəlikdə və ya konsulluqda xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət məvacibi bu Qanunun 14.2.2.1-ci maddəsində nəzərdə tutulan vəzifələr üzrə tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən aylıq haqdır.

12.5. Diplomatik nümayəndəlikdə və ya konsulluqda xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarına, habelə bu Qanunun 13.15-13.17-ci maddələrində nəzərdə tutulan şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə dövlət məvacibi və təyin olunduqları diplomatik nümayəndəliyin və ya konsulluğun yerləşdiyi dövlətin və onun müvafiq şəhərinin sosial-iqtisadi və maddi-məişət şəraiti nəzərə alınmaqla aylıq əlavə ödənilir. Aylıq əlavənin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi qaydada dövlət məvacibinin əməkdaşa ödənilən hissəsinə fərqləndirici əmsal tətbiq edilməklə müəyyən edilir.

12.6. Diplomatik nümayəndəlikdə və ya konsulluqda xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının yalnız dövlət məvacibi qanunla müəyyən edilmiş qaydada vergiyə və digər icbari ödənişlərə cəlb olunur. Diplomatik xidmət orqanı əməkdaşlarına verilən vergiyə və digər icbari ödənişlərə cəlb olunmayan ödənişlərdən heç bir tutulmalar həyata keçirilmir.

**Maddə 13. Diplomatik xidmət orqanı əməkdaşlarının və ailə üzvlərinin təminatı və kompensasiyaları**

13.1. Diplomatik nümayəndəlikdə və konsulluqda xidmət dövründə diplomatik xidmət orqanı əməkdaşının və onunla birlikdə yaşayan arvadının (ərinin), 18 yaşına çatmamış uşaqlarının və övladlığa götürdüyü şəxslərin, həmçinin 18 yaşından yuxarı əmək qabiliyyəti olmayan övladlarının və övladlığa götürdüyü şəxslərin (bundan sonra - ailə üzvləri) aşağıdakı xərcləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydalara uyğun olaraq dövlət tərəfindən ödənilir:

13.1.1. diplomatik xidmət orqanı əməkdaşı vəzifəyə təyin olunduqda və geri çağırıldıqda, habelə xidmətinə xitam verildikdə müvafiq diplomatik nümayəndəliyin və ya konsulluğun yerləşdiyi şəhərə getmək və Azərbaycan Respublikasına qayıtmaqla əlaqədar tutduğu vəzifə və ailə üzvlərinin sayı nəzərə alınmaqla nəqliyyat və yüklərin daşınması xərcləri;

13.1.2. diplomatik xidmət orqanı əməkdaşının əmək məzuniyyəti ilə əlaqədar onun və ailə üzvlərinin, habelə diplomatik xidmət orqanı əməkdaşının əmək məzuniyyətinə çıxıb-çıxmamasından asılı olmayaraq ailə üzvlərinin ildə bir dəfə Azərbaycan Respublikasına gəlmək və müvafiq diplomatik nümayəndəliyin və ya konsulluğun yerləşdiyi şəhərə qayıtmaq həddində nəqliyyat xərcləri;

13.1.3. diplomatik xidmət orqanı əməkdaşının tutduğu vəzifə və ailə üzvlərinin sayı nəzərə alınmaqla, məişət ləvazimatı ilə komplektləşdirilmiş yaşayış sahəsi ilə təmin olunma və ya belə yaşayış sahəsinin icarə xərcləri;

13.1.4. diplomatik xidmət orqanı əməkdaşının ailə üzvlərinin qəbul edən dövlətdə ümumi təhsil pilləsi üzrə (məktəbəhazırlıq, ibtidai, ümumi orta və tam orta təhsil) təhsil xərcləri;

13.1.5. diplomatik xidmət orqanı əməkdaşının və ailə üzvlərinin müvafiq tibbi xidmət (sığorta) xərcləri;

13.1.6. diplomatik xidmət orqanı əməkdaşı və ya ailə üzvləri xaricdə vəfat etdiyi təqdirdə, nəşin Azərbaycan Respublikasına gətirilməsi xərcləri;

13.1.7. ailə üzvünün (üzvlərinin) ölümü ilə əlaqədar diplomatik xidmət orqanı əməkdaşının və onun ailə üzvlərinin Azərbaycan Respublikasına gəlməsi və xidmət keçdiyi dövlətə qayıtması ilə bağlı nəqliyyat xərcləri.

13.2. Diplomatik nümayəndəlikdə və ya konsulluqda vəzifəyə təyin olunan diplomatik xidmət orqanı əməkdaşlarına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə birdəfəlik yerləşmə müavinəti ödənilir.

13.3. Diplomatik xidmət orqanı əməkdaşlarına qəbul edən dövlətdə onlarla birlikdə yaşayan orta ixtisas və ali təhsilin bakalavr səviyyəsi üzrə əyani təhsil alan 23 yaşına qədər övladlarına və övladlığa götürdüyü şəxslərə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə təhsil müavinəti ödənilir.

13.4. Diplomatik xidmət orqanı əməkdaşlarına qəbul edən dövlətdə onlarla birlikdə yaşayan, həmin dövlətdə və ya üçüncü dövlətdə əmək fəaliyyəti ilə məşğul olmayan arvadına (ərinə) görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə aylıq müavinət ödənilir.

13.5. Diplomatik xidmət orqanı əməkdaşlarına qəbul edən dövlətdə onlarla birlikdə yaşayan 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə, həmçinin 18 yaşından yuxarı əmək qabiliyyəti olmayan övladlarına və övladlığa götürdüyü şəxslərə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə aylıq müavinət ödənilir.

13.6. Diplomatik nümayəndəlikdə və konsulluqda xidmət dövründə diplomatik xidmət orqanı əməkdaşlarına səlahiyyətlərinin icrası ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə aylıq təmsilçilik müavinəti ödənilir.

13.7. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətlərdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin və konsulluqların diplomatik xidmət orqanı əməkdaşlarına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə kompensasiya ödənilir.

13.8. Diplomatik xidmət orqanı əməkdaşlarının diplomatik nümayəndəlikdə və konsulluqda xidmət dövründə əldə etdikləri vəsaitin və əmlakın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada Azərbaycan Respublikasına gətirilməsinə görə gömrük ödənişləri tutulmur.

13.9. Diplomatik nümayəndəlikdə və konsulluqda xidmət dövründə diplomatik xidmət orqanı əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə müəyyən olunmuş güzəştlərdən, imtiyazlardan və immunitetlərdən istifadə edirlər.

13.10. Diplomatik xidmət orqanı əməkdaşının ailə üzvü həmin əməkdaşın xidmət keçdiyi diplomatik xidmət orqanında onun bilavasitə tabeliyində və ya nəzarəti altında olmayan vəzifəyə təyin edilə bilər.

13.11. Qanunvericiliklə müəyyən edilmiş qaydada müəssisənin ləğvi istisna olmaqla, diplomatik nümayəndəlikdə və ya konsulluqda xidmət keçən diplomatik xidmət orqanı əməkdaşının qəbul edən dövlətdə onunla birlikdə yaşayan, dövlət orqanında, dövlətin adından yaradılan publik hüquqi şəxsdə, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxsdə və büdcə təşkilatında təyinatlı vəzifədə (peşədə) işləmiş və əmək müqaviləsinə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 69-cu maddəsinin 3-1-ci hissəsiilə müəyyən edilmiş qaydada xitam verilmiş arvadı (əri) diplomatik xidmət orqanı əməkdaşının müvafiq diplomatik nümayəndəlikdə və ya konsulluqda xidmət müddəti dövründə və ya bu müddət başa çatdığı tarixdən 60 (altmış) təqvim günü keçənədək əvvəlki vəzifəsini (peşəsini) tutmaq üçün müraciət etdikdə onun peşəkarlıq səviyyəsi və peşə yararlılığı yoxlanılmaqla həmin vəzifəyə (peşəyə), bu mümkün olmadıqda isə ona bərabər başqa vəzifəyə (peşəyə) təyin olunur.

13.12. Diplomatik xidmət orqanı əməkdaşları "Əmək pensiyaları haqqında", "Sosial sığorta haqqında", "Sosial müavinətlər haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq sosial və icbari tibbi sığorta, eləcə də sığortanın digər icbari növləri və sosial müdafiə ilə təmin olunurlar.

13.13. Diplomatik xidmət orqanı əməkdaşlarının pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qulluqçuları üçün müəyyən olunmuş qaydada həyata keçirilir.

13.14. Diplomatik xidmət orqanı əməkdaşının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq pensiya yaşına çatmasına görə öz arzusu ilə diplomatik xidmət orqanlarında xidmətinə xitam verildikdə, ona qanuna uyğun olaraq digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq, ümumi qaydada hesablanmış aylıq pensiyasının 6 (altı) misli məbləğində birdəfəlik haqq verilir.

13.15. Bu Qanunun 13.1-ci, 13.2-ci və 13.5-13.9-cu maddələrinin müddəaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə şamil olunur. Onlara təminat və kompensasiyaların verilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydalara uyğun olaraq həyata keçirilir.

13.16. Bu Qanunun 13.1-ci, 13.2-ci və 13.5-13.9-cu maddələrinin müddəaları diplomatik nümayəndəliklərin və konsulluqların mühafizəsini həyata keçirən şəxslərə şamil edilir. Həmin şəxslərin fəaliyyətinin təmin edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

13.17. Bu Qanunun 13.1-ci, 13.2-ci və 13.5-13.9-cu maddələrinin müddəaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinə şamil olunur. Həmin nümayəndələrə təminat və kompensasiyaların verilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydalara uyğun olaraq həyata keçirilir.

### 4-cü fəsil
### DİPLOMATİK XİDMƏTKEÇMƏ

**Maddə 14. Diplomatik xidmət orqanlarında vəzifələr**

14.1. Diplomatik xidmət orqanlarında vəzifələr həmin vəzifələrin funksiyalarına, səlahiyyət dairəsinə və tutulması üsullarına, habelə müvafiq diplomatik xidmət orqanının struktur quruluşuna və ştat cədvəlinə uyğun olaraq müəyyən edilir.

14.2. Diplomatik xidmət orqanlarında aşağıdakı diplomatik vəzifələr mövcuddur:

14.2.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda):

14.2.1.1. orqanın (qurumun) rəhbəri;

14.2.1.2. orqanın (qurumun) rəhbərinin müavini;

14.2.1.3. xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi;

14.2.1.4. idarə rəisinin müavini;

14.2.1.5. müşavir;

14.2.1.6. şöbə müdiri;

14.2.1.7. birinci katib;

14.2.1.8. ikinci katib;

14.2.1.9. üçüncü katib;

14.2.1.10. attaşe;

14.2.2. diplomatik nümayəndəlikdə:

14.2.2.1. fövqəladə və səlahiyyətli səfir, təmsilçilik ofisinin rəhbəri, daimi nümayəndə, nümayəndə;

14.2.2.2. səfirin müavini, daimi nümayəndənin müavini;

14.2.2.3. müşavir-elçi;

14.2.2.4. müşavir;

14.2.2.5. birinci katib;

14.2.2.6. ikinci katib;

14.2.2.7. üçüncü katib;

14.2.2.8. attaşe, maliyyə məsələləri üzrə attaşe;

14.2.3. konsulluqda:

14.2.3.1. baş konsul;

14.2.3.2. konsul;

14.2.3.3. vitse-konsul;

14.2.3.4. konsul agenti, maliyyə məsələləri üzrə attaşe.

14.3. Diplomatik nümayəndəliklərin və konsulluqların rəhbərlərinin vəzifəyə təyin edilməsi və vəzifədən geri çağırılması ilə bağlı məsələlər Azərbaycan Respublikasının və qəbul edən dövlətin və ya beynəlxalq təşkilatın tərəfdar çıxdıqları beynəlxalq müqavilələr və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə tənzimlənir.

14.4. Bu Qanunun 14.2.1.1-ci, 14.2.1.2-ci, 14.2.2.1-ci, 14.2.2.2-ci və 14.2.3.1-ci maddələrində nəzərdə tutulan vəzifələrə təyin edilmə və həmin vəzifələrdən azad edilmə (geri çağırılma) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

14.5. Bu Qanunun 14.4-cü maddəsində nəzərdə tutulan vəzifələr istisna olmaqla, diplomatik xidmət orqanlarında digər vəzifələrə təyin edilmə və həmin vəzifələrdən azad edilmə (geri çağırılma) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri tərəfindən həyata keçirilir.

14.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) inzibati-texniki xidmət əməkdaşlarının təyin olunduqları inzibati və yardımçı vəzifələr "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir.

14.7. Diplomatik nümayəndəlikdə və konsulluqda inzibati-texniki xidmət əməkdaşlarının təyin olunduqları vəzifələr, bu sahədə Azərbaycan Respublikasının və qəbul edən dövlətin və ya beynəlxalq təşkilatın tərəfdar çıxdıqları beynəlxalq müqavilələr, eləcə də həmin vəzifələrin funksiyaları və səlahiyyət dairəsi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbərinin təsdiq etdiyi diplomatik nümayəndəliyin və ya konsulluğun strukturu və ştat cədvəli əsasında müəyyən edilir.

14.8. Azərbaycan Respublikasının fəxri konsulu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təyin edilir və diplomatik xidmətdə hesab olunmur. Fəxri konsul Azərbaycan Respublikasının, qəbul edən dövlətin və ya üçüncü dövlətin vətəndaşı ola bilər. Fəxri konsulun hüquqi vəziyyəti və fəaliyyətinin təşkili ilə bağlı məsələlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 15. Diplomatik rütbələr**

15.1. Daimi diplomatik xidmətə qəbul edilən diplomatik xidmət əməkdaşlarına tutduqları diplomatik vəzifəyə uyğun diplomatik rütbə verilir.

15.2. Diplomatik vəzifələr üzrə diplomatik rütbələr aşağıdakı ardıcıllıqla müəyyən edilir:

15.2.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri vəzifəsi üzrə - fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi;

15.2.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbərinin müavini vəzifəsi üzrə - fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri;

15.2.3. fövqəladə və səlahiyyətli səfir, təmsilçilik ofisinin rəhbəri, daimi nümayəndə, nümayəndə, baş konsul vəzifələri üzrə - fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri;

15.2.4. xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi vəzifələri üzrə - fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, birinci dərəcəli müşavir diplomatik rütbələri;

15.2.5. səfirin müavini, daimi nümayəndənin müavini vəzifələri üzrə - birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, birinci dərəcəli müşavir diplomatik rütbələri;

15.2.6. müşavir-elçi, idarə rəisinin müavini vəzifələri üzrə - ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, birinci dərəcəli müşavir, ikinci dərəcəli müşavir diplomatik rütbələri;

15.2.7. müşavir vəzifəsi üzrə - birinci dərəcəli müşavir, ikinci dərəcəli müşavir diplomatik rütbələri;

15.2.8. şöbə müdiri, konsul vəzifələri üzrə - ikinci dərəcəli müşavir, birinci dərəcəli birinci katib diplomatik rütbələri;

15.2.9. birinci katib vəzifəsi üzrə - birinci dərəcəli birinci katib, ikinci dərəcəli birinci katib diplomatik rütbələri;

15.2.10. ikinci katib, vitse-konsul vəzifələri üzrə birinci dərəcəli ikinci katib, ikinci dərəcəli ikinci katib diplomatik rütbələri;

15.2.11. üçüncü katib vəzifəsi üzrə - üçüncü katib və attaşe diplomatik rütbələri;

15.2.12. attaşe, konsul agenti, maliyyə məsələləri üzrə attaşe vəzifələri üzrə - attaşe diplomatik rütbəsi.

*Ardı 11-cü səh.*

# Diplomatik xidmət haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 10-cu səh.*

15.3. Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələrinə ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilir.

15.4. Fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir. Bu diplomatik rütbələri alan diplomatik xidmət əməkdaşlarına müvafiq hüquqi akt və vəsiqə verilir.

15.5. Bu Qanunun 15.4-cü maddəsində nəzərdə tutulan diplomatik rütbələr istisna olmaqla, digər diplomatik rütbələr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri tərəfindən verilir.

15.6. Diplomatik xidmət əməkdaşları üçün diplomatik rütbələrdə olmanın aşağıdakı müddətləri müəyyən edilir:

15.6.1. attaşe, üçüncü katib, ikinci dərəcəli ikinci katib və birinci dərəcəli ikinci katib - 2 (iki) il;

15.6.2. ikinci dərəcəli birinci katib, birinci dərəcəli birinci katib və ikinci dərəcəli müşavir - 3 (üç) il.

15.7. Birinci dərəcəli müşavirdən başlayaraq yuxarı diplomatik rütbələrdə olma müddəti müəyyən edilmir.

15.8. Diplomatik xidmət əməkdaşının diplomatik rütbədə olma müddətinə diplomatik vəzifədə xidmət dövrü, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi əsasında beynəlxalq təşkilatın orqanında fəaliyyət dövrü, sərəncamda olma və vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılma müddəti, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi əsasında əlavə təhsil müddəti daxildir.

15.9. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən beynəlxalq təşkilatın orqanında işləməyə və ya xidmətdən ayrılmaqla əlavə təhsil almağa göndərilmiş diplomatik xidmət əməkdaşlarına növbəti diplomatik rütbənin verilməsi onların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) tutduqları son vəzifə üzrə bu Qanunun 15.13-cü maddəsində nəzərdə tutulan qaydada həyata keçirilir.

15.10. Diplomatik xidmət orqanlarında diplomatik rütbə nəzərdə tutulan vəzifələrdə xidmət keçən və ya əvvəllər xidmət keçmiş şəxslər dövlət qulluğuna və ya dövlət qulluğunun digər xüsusi növünə qulluğa (xidmətə) qəbul edilərkən, həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması qaydasına əsasən müvafiq ixtisas dərəcəsi, xüsusi və ya hərbi rütbə verilir. Dövlət qulluğunda və ya dövlət qulluğunun digər xüsusi növündə qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxslər diplomatik xidmətə qəbul edildikdə, həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması qaydasına və bu Qanuna əsasən müvafiq diplomatik rütbə verilir.

15.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən diplomatik rütbələr istisna olmaqla, daimi diplomatik xidmətə qəbul edilən və ya daha yüksək pillə diplomatik vəzifəyə təyin olunan və diplomatik rütbəsi tutduğu diplomatik vəzifə üzrə müəyyən edilmiş diplomatik rütbə həddindən aşağı olan diplomatik xidmət əməkdaşına təyin olunduğu diplomatik vəzifə üzrə ən aşağı diplomatik rütbə verilir.

15.12. Bu Qanunun 10.1.5-ci maddəsinə əsasən diplomatik xidmət əməkdaşına həvəsləndirmə qaydasında, tutduğu diplomatik vəzifəyə uyğun müəyyən edilmiş hədd daxilində vaxtından əvvəl növbəti diplomatik rütbə verilə bilər. Növbəti diplomatik rütbənin vaxtından əvvəl verilməsinə diplomatik xidmət əməkdaşının xidmət müddəti ərzində yalnız bir dəfəvə malik olduğu diplomatik rütbədə bu Qanunun 15.6-cı maddəsi ilə müəyyən edilmiş müddətin azı yarısını xidmət etdikdən sonra yol verilir.

15.13. Bu Qanunun 11.5-ci, 15.10-15.12-ci maddələrində nəzərdə tutulan hallar istisna olmaqla, diplomatik xidmət əməkdaşlarına diplomatik rütbələr müsbət xidməti fəaliyyəti, mövcud diplomatik rütbəsi və həmin rütbədə xidmət müddəti, tutduğu vəzifəyə növbəti diplomatik rütbənin uyğunluğu nəzərə alınmaqla ardıcıl verilir.

15.14. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sərəncamında olan, tutduğu vəzifədən müvəqqəti kənarlaşdırılan, yaxud barəsində intizam tənbehi tətbiq edilmiş, həmçinin cinayət təqibi üzrə icraat başlanılmış və ya xidməti yoxlama, yaxud araşdırma aparılan diplomatik xidmət əməkdaşına müvafiq olaraq vəzifəyə təyin olunana, vəzifəsinə qaytarılana, intizam tənbehi qüvvədən düşənə (götürülənə), cinayət təqibi üzrə icraata bəraətverici əsaslarla xitam verilənə və ya məhkəmənin hökmü ilə bəraət alana, xidməti yoxlama və ya araşdırma qurtaranadək diplomatik rütbə verilmir.

15.15. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sərəncamında olan, tutduğu vəzifədən müvəqqəti kənarlaşdırılan, həmçinin barəsində cinayət təqibi üzrə icraat başlanılmış və ya xidməti yoxlama, yaxud araşdırma aparılan diplomatik xidmət əməkdaşı müvafiq olaraq vəzifəyə təyin olunduqda, vəzifəsinə qaytarıldıqda, cinayət təqibi üzrə icraata bəraətverici əsaslarla xitam verildikdə və ya məhkəmənin hökmü ilə bəraət aldıqda, yaxud xidməti yoxlama və ya araşdırma nəticəsində müsbət rəy aldıqda onun növbəti diplomatik rütbə alması üçün xidmət müddəti əvvəlki diplomatik rütbədə xidmət müddətinin bitdiyi vaxtdan başlanaraq hesablanır.

15.16. Diplomatik xidmət əməkdaşının əmək kitabçasında onun hər bir diplomatik rütbəsi barədə qeyd aparılır.

15.17. Diplomatik xidmət əməkdaşının xidmət dövründə diplomatik rütbəsi bu Qanunun 11.1.4-cü maddəsinə uyğun olaraq intizam tənbehi tədbirinin tətbiqi qaydasında aşağı salına bilər.

15.18. Diplomatik xidmət orqanlarında xidmətinə xitam verilmiş diplomatik xidmət əməkdaşı Azərbaycan Respublikasının və ya diplomatik xidmət orqanlarının nüfuzuna xələl gətirən əməllərinə görə diplomatik rütbədən məhrum edilə bilər.

15.19. Diplomatik rütbənin aşağı salınması və ya diplomatik rütbədən məhrum edilmə həmin diplomatik rütbəni vermiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

15.20. Diplomatik rütbədən məhrum edilmə halı istisna olmaqla, diplomatik rütbə ömürlük verilir.

**Maddə 16. Diplomatik xidmətə qəbul olunmaq hüququ**

16.1. Müvafiq diplomatik vəzifənin təlimatına uyğun ali təhsilə və peşə hazırlığına malik olan, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikası vətəndaşlarının diplomatik xidmətə qəbul olunmaq hüququ vardır.

16.2. Diplomatik xidmətə aşağıdakı şəxslər qəbul olunmurlar:

16.2.1. ikili vətəndaşlığı və ya digər dövlətlər qarşısında öhdəliyi olan şəxslər;

16.2.2. din xadimləri;

16.2.3. məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər;

16.2.4. əvvəllər ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş, yaxud barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş şəxslər;

16.2.5. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş şəxslər;

16.2.6. barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər;

16.2.7. tibbi rəyə əsasən əqli və ya fiziki pozuntularına görə diplomatik xidmət orqanlarında xidmət keçməyə qadir olmayan şəxslər;

16.2.8. dövlət orqanlarında (qurumlarında) əvvəllər yol verdiyi kobud pozuntuya və ya qulluqla (xidmətlə) bir araya sığmayan hərəkətlərə görə qulluğuna (xidmətinə) və ya əmək müqaviləsinə xitam verilmiş şəxslər;

16.2.9. qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı hərbi mükəlləfiyyətli şəxslər.

**Maddə 17. Diplomatik xidmətə qəbul**

17.1. Bu Qanunun 17.7-ci maddəsində müəyyən edilən hallar istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) diplomatik xidmətə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqənin keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

17.2. Müsabiqə yazılı imtahandan və müsahibədən ibarətdir. Müsabiqənin yazılı imtahan mərhələsindən müvəffəqiyyətlə keçmiş və sənədləri bu Qanunun 17.4-cü maddəsinə uyğun olaraq yoxlanılmış namizədlər müsahibədə iştirak edirlər.

17.3. Aşağıdakı şəxslər müsabiqənin yazılı imtahan mərhələsindən azad edilirlər:

17.3.1. elmlər doktoru elmi dərəcəsi olan şəxslər;

17.3.2. bu Qanunun 14.2.1.10-cu maddəsində nəzərdə tutulan vəzifədə diplomatik xidmətə qəbul üçün azı 3 (üç) il, bu Qanunun 14.2.1.8-ci və 14.2.1.9-cu maddələrində nəzərdə tutulan vəzifələrdə diplomatik xidmətə qəbul üçün azı 6 (altı) il, bu Qanunun 14.2.1.6-cı və 14.2.1.7-ci maddələrində nəzərdə tutulan vəzifələrdə diplomatik xidmətə qəbul üçün azı 9 (doqquz) il dövlət orqanlarında (qurumlarında) və ya beynəlxalq təşkilatların orqanlarında ali təhsil tələb olunan vəzifələrdə qulluq (xidmət) və ya əmək stajına malik olan şəxslər;

17.3.3. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş dövlət proqramı çərçivəsində xaricdə təhsil almış şəxslər.

17.4. Diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədləri müsahibədən əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada yoxlanılır və sənədləri yoxlamadan müvəffəqiyyətlə keçmiş namizədlər müsahibədə iştiraka buraxılırlar.

17.5. Diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin təqdim etdiyi sənədlərdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edilməsi həmin şəxslərin diplomatik xidmətə qəbulundan imtina üçün əsasdır.

17.6. Diplomatik nümayəndəliklərdə və konsulluqlarda diplomatik xidmətə qəbul müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təyinatı əsasında həyata keçirilir.

17.7.Aşağıdakı hallarda diplomatik xidmətə qəbul zamanı müsabiqə keçirilmir:

17.7.1. bu Qanunun 14.2.1.3-14.2.1.5-ci maddələrində nəzərdə tutulmuş vəzifələr üzrə;

17.7.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik, xüsusi və ya hərbi rütbə, yaxud ixtisas dərəcəsi verilmiş şəxslərə münasibətdə;

17.7.3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 2.2-ci maddəsində nəzərdə tutulan (hərbi qulluqçular istisna olmaqla) vəzifələrdən azad edilmiş (səlahiyyət müddəti başa çatmış) şəxslərə münasibətdə;

17.7.4. ali - üçüncü təsnifat inzibati vəzifələrdə qulluq keçən və həmin vəzifələrdə qulluğuna xitam verilmiş şəxslərə münasibətdə;

17.7.5. bu Qanunun 30.1.1-30.1.4-cü maddələrində nəzərdə tutulan əsaslarla diplomatik xidmət orqanlarında xidmətinə xitam verilmiş diplomatik xidmət əməkdaşlarına münasibətdə.

**Maddə 18. Diplomatik xidmət orqanlarında staj və sınaq keçmə**

18.1. Diplomatik xidmətə müsabiqənin hər iki mərhələsindən keçərək qəbul edilən şəxslər 6 (altı) ay müddətinə əmək müqaviləsi bağlanılmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) müvafiq vakant diplomatik vəzifəyə stajçı kimi təyin edilirlər.

18.2. Staj müddəti bitdikdən sonra əmək və icra intizamı müsbət qiymətləndirilən stajçılarla, həmçinin bu Qanunun 17.3-cü maddəsinə uyğun olaraq diplomatik xidmətə qəbul olunan şəxslərlə əmək müqaviləsi bağlanılır və onlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) 3 (üç) ay sınaq müddəti ilə diplomatik xidmətə qəbul edilirlər.

18.3. Sınaq müddətində əmək müqaviləsinə xitam verilməyən və sınaq müddəti bitdikdən sonra fəaliyyəti müsbət qiymətləndirilən şəxslə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında müddətsiz əmək müqaviləsi bağlanılır və həmin şəxs daimi diplomatik xidmətə qəbul edilir.

18.4. Staj və ya sınaq müddətini müvəffəqiyyətlə başa vurmadıqda stajçılə və ya sınaq müddəti ilə diplomatik xidmətə qəbul edilmiş şəxslə bağlanılmış əmək müqaviləsinə xitam verilir.

18.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) staj və sınaq müddəti faktiki olaraq əmək funksiyasının icra edildiyi iş vaxtından ibarətdir. Əmək qabiliyyətinin müvəqqəti itirildiyi, habelə iş yeri və orta əməkhaqqı saxlanılmaqla şəxsin işdə olmadığı dövrlər staj və sınaq müddətlərinə daxil edilmir.

18.6. Diplomatik xidmətə qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş, lakin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) müsabiqə elan olunmuş vakant diplomatik vəzifələrin sayının müsabiqədə müvəffəqiyyət qazanmış namizədlərin sayından az olması səbəbindən stajçı kimi diplomatik xidmətə qəbul edilmələri mümkün olmayan namizədlər 2 (iki) il müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) ehtiyat kadr kimi saxlanılırlar. Bu müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) namizədin müvəffəqiyyət qazandığı vəzifə üzrə vakant yer yarandıqda, həmin namizəd onun razılığı ilə müvafiq vəzifəyə təyin edilir və ehtiyat kadrlar siyahısından çıxarılır. Namizədin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) ehtiyat kadr kimi saxlanılması onun digər dövlət orqanında vəzifəyə qəbul üzrə keçirilən müsabiqədə iştirakını məhdudlaşdırmır.

**Maddə 19. Diplomatik xidmət orqanlarında vakant vəzifələrin tutulması**

19.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)tərəfindən təyinatı həyata keçirilən diplomatik vəzifələr istisna olmaqla, diplomatik xidmət orqanlarında diplomatik vəzifələrin tutulması diplomatik xidmət orqanı əməkdaşlarının rotasiyası, həmçinin bu Qanunun 25.3-cü maddəsinə uyğun olaraq diplomatik xidmət əməkdaşlarının vəzifəyə təyinatı, eləcə də diplomatik xidmət əməkdaşlarının xidmətdə yüksəlişi yolu ilə həyata keçirilir.

19.2. Bu Qanunun 19.1-ci maddəsinə uyğun olaraq, diplomatik xidmət orqanlarında vakant diplomatik vəzifələr tutulmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbərinin qərarı əsasında həmin vəzifələrin tutulması bu Qanunun 17-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

19.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) vakant inzibati və yardımçı vəzifələrin tutulması inzibati-texniki xidmət əməkdaşlarının rotasiyası və ya "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

19.4. Diplomatik nümayəndəliklərdə və konsulluqlarda inzibati-texniki xidmətin həyata keçirildiyi vəzifələrin tutulması inzibati-texniki xidmət əməkdaşlarının rotasiyası və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbərinin təyinatı əsasında həyata keçirilir.

**Maddə 20. Diplomatik xidmət əməkdaşının andı**

20.1. İlk dəfə daimi diplomatik xidmətə qəbul olunan Azərbaycan Respublikasının vətəndaşı vəzifəsinin icrasına başlamazdan əvvəl aşağıdakı məzmunda and içir: "Azərbaycan dövlətinə və xalqına sədaqətlə xidmət göstərəcəyimə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl edəcəyimə, dövlət sirrini və xidməti sirri qoruyacağıma, üzərimə düşən vəzifələri qərəzsiz, vicdanla və məsuliyyətlə yerinə yetirəcəyimə, hər zaman diplomatik xidmət əməkdaşı adını uca tutacağıma və Azərbaycan Respublikasını ləyaqətlə təmsil edəcəyimə and içirəm.".

20.2. And içən diplomatik xidmət əməkdaşı andının yazılı mətnini imzalayır və bu sənəd onun şəxsi işində saxlanılır.

**Maddə 21. Diplomatik xidmət əməkdaşlarının xidməti vəsiqəsi və şəxsi işi**

21.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik nümayəndəliklərdə və konsulluqlarda vəzifəyə təyin edilən diplomatik xidmət əməkdaşlarına nümunəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən xidməti vəsiqə verilir.

21.2. Diplomatik xidmət əməkdaşının xidməti vəsiqəsi onun şəxsiyyətini, tutduğu diplomatik vəzifəni və diplomatik rütbəsini təsdiq edən rəsmi sənəddir.

21.3. Diplomatik xidmət əməkdaşının soyadı, adı, atasının adı, vəzifəsi və rütbəsi dəyişdikdə, xidməti vəsiqəsi itirildikdə və ya yararsız vəziyyətə düşdükdə ona yeni xidməti vəsiqə verilir.

21.4. Xidmətinə xitam verilmiş diplomatik xidmət əməkdaşı xidməti vəsiqəsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təhvil verməlidir.

21.5. Diplomatik xidmət əməkdaşlarının şəxsi işi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 15-1-ci maddəsi nəzərə alınmaqla tərtib edilir və aparılır.

**Maddə 22. Diplomatik xidmət orqanı əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi və diplomatik xidmət əməkdaşlarının attestasiyası**

22.1. Bu Qanunun 14.2.1.3-cü maddəsində nəzərdə tutulan vəzifələrdə xidmət keçən diplomatik xidmət əməkdaşları istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin edilən, müvafiq diplomatik və ya inzibati vəzifədə təqvim ilinin sonunadək azı 6 (altı) ay daimi xidmət (qulluq) keçən diplomatik xidmət orqanı əməkdaşlarının xidməti fəaliyyəti hər təqvim ilinin sonunda qiymətləndirilir. Xidməti fəaliyyətin qiymətləndirilməsi bu Qanun nəzərə alınmaqla "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

22.2. Peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətlərinin qiymətləndirilməsi, habelə tutduğu vəzifəyə uyğun olduğunu müəyyən etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik vəzifəyə təyin edilən diplomatik xidmət əməkdaşlarının (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik rütbə verilən və bu Qanunun 14.2.1.3-cü maddəsində nəzərdə tutulan vəzifələrdə xidmət keçən diplomatik xidmət əməkdaşları istisna olmaqla) attestasiyası keçirilir. Yalnız müvafiq diplomatik vəzifədə azı 1 (bir) il daimi xidmət keçən diplomatik xidmət əməkdaşları attestasiyadan keçirilə bilərlər. Diplomatik xidmət əməkdaşlarının attestasiyası beş ildə bir dəfədən çox olmayaraq keçirilir və bu zaman onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır.

22.3. Bu Qanunun 22.2-ci maddəsi nəzərə alınmaqla, diplomatik nümayəndəliklərdə və konsulluqlarda xidmət keçən diplomatik xidmət əməkdaşları rotasiya əsasında geri çağırıldıqdan sonra attestasiyadan keçirilirlər.

22.4. Diplomatik xidmət əməkdaşlarının attestasiyası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 23. Diplomatik xidmət əməkdaşlarının əlavə təhsili**

23.1. Diplomatik xidmət əməkdaşlarının əlavə təhsil alması diplomatik xidmət orqanlarında fəaliyyətin xüsusiyyətləri nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

23.2. Xidmətdən ayrılmaqla əlavə təhsil alan diplomatik xidmət əməkdaşı əlavə təhsilini başa vurduqdan sonra diplomatik xidmət orqanında tutduğu əvvəlki vəzifədən aşağı olmayan vəzifəyə təyin edilir.

23.3. Diplomatik xidmət əməkdaşlarının əlavə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı dövlət qulluqçuları üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydalarla tənzimlənir.

**Maddə 24. Diplomatik xidmət orqanı əməkdaşlarının rotasiyası**

24.1. Diplomatik xidmət orqanlarında kadr tələbatına olan ehtiyacın diplomatik xidmət orqanı əməkdaşlarının potensialından səmərəli istifadə olunmaqla təmin edilməsi məqsədilə diplomatik xidmət orqanı əməkdaşlarının rotasiyası keçirilir.

24.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təyinatı həyata keçirilən vəzifələr istisna olmaqla, diplomatik xidmət orqanlarında digər vəzifələr üzrə rotasiya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

24.3. Rotasiya qaydasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən diplomatik xidmət əməkdaşı tutduğu vəzifədən azad edilərək diplomatik nümayəndəlikdə və ya konsulluqda həmin vəzifədən aşağı olmayan vakant diplomatik vəzifəyə təyin edilir.

24.4. Rotasiya qaydasında diplomatik nümayəndəlikdə və ya konsulluqda xidmət keçən diplomatik xidmət əməkdaşı tutduğu vəzifədən azad edilərək (geri çağırılaraq) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) həmin vəzifədən aşağı olmayan vakant diplomatik vəzifəyə təyin edilir, belə vakant vəzifə olmadıqda isə bu Qanunun 27.3-cü maddəsi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sərəncamında olur.

24.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) inzibati və ya yardımçı vəzifə tutan əməkdaş rotasiya qaydasında tutduğu vəzifədən azad edilərək həmin vəzifənin funksiyalarına uyğun olaraq diplomatik nümayəndəlikdə və ya konsulluqda müvafiq vəzifəyə təyin edilir və geri çağırıldıqdan sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) tutduğu sonuncu vəzifəyə bərabər vəzifəyə təyin edilir, belə vakant vəzifə olmadıqda isə bu Qanunun 27.3-cü maddəsi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sərəncamında olur.

24.6. Diplomatik xidmət orqanlarında tutduğu diplomatik vəzifədən azad edilərək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik nümayəndəlikdə və ya konsulluqda vəzifəyə təyin olunan diplomatik xidmət əməkdaşı geri çağırıldıqdan sonra, onun diplomatik xidmət orqanlarında xidmətinə xitam verilməsinə əsas olan hallar olmadıqda, tutduğu sonuncu vəzifə nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) vakant diplomatik vəzifəyə təyin edilir, belə vakant vəzifə olmadıqda isə bu Qanunun 27.3-cü maddəsi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sərəncamında olur.

24.7. Fövqəladə və səlahiyyətli səfirin və təmsilçilik ofisinin rəhbərinin qəbul edən dövlətdə, daimi nümayəndənin və nümayəndənin beynəlxalq təşkilatda fasiləsiz xidmət müddəti 5 (beş) ildir. Baş konsulun və səfirin müavininin qəbul edən dövlətdə, daimi nümayəndənin müavininin isə beynəlxalq təşkilatda fasiləsiz xidmət müddəti 4 (dörd) ildir.

24.8. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarına uyğun olaraq, bu Qanunun 24.7-ci maddəsində nəzərdə tutulan diplomatik xidmət əməkdaşları fasiləsiz xidmət müddətindən artıq fəaliyyətini davam etdirə və ya həmin müddətdən əvvəl geri çağırıla bilərlər.

24.9. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik nümayəndəlikdə və konsulluqda vəzifəyə təyin edilən diplomatik xidmət orqanı əməkdaşlarının fasiləsiz xidmət müddəti 3 (üç) ildir. Bu müddət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik xidmət orqanı əməkdaşının razılığı ilə 1 (bir) ilədək uzadıla bilər. Diplomatik xidmət orqanı əməkdaşları bu Qanunun 26.1.2-26.1.10-cu maddələrində nəzərdə tutulan hallarda xidmət müddətinin başa çatmasından əvvəl geri çağırıla bilərlər.

24.10. Bu Qanunun 13.7-ci maddəsində nəzərdə tutulan xarici dövlətlərdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərdə və konsulluqlarda vakant vəzifələrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təyin edilən diplomatik xidmət orqanı əməkdaşlarının xidmət müddəti həmin əməkdaşların təşəbbüsü əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 1 (bir) ilədək azaldıla bilər.

24.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik nümayəndəlikdə və ya konsulluqda müvafiq vəzifəyə təyin edilən diplomatik xidmət orqanı əməkdaşı xidməti zərurətlə əlaqədar və öz razılığı ilə xidmət keçdiyi diplomatik nümayəndəlikdən və ya konsulluqdan digər diplomatik nümayəndəliyə və ya konsulluğa qalan xidmət müddətinin davam etdirilməsi şərtilə keçirilə bilər.

24.12. Diplomatik nümayəndəlikdən və konsulluqdan rotasiya qaydasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən geri çağırılan diplomatik xidmət orqanı əməkdaşları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yenidən diplomatik nümayəndəlikdə və konsulluqda vəzifəyə təyin olunmazdan əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) azı 1 (bir) il (sərəncamda olma müddəti də daxil olmaqla) xidmət keçməlidirlər.

*Ardı 12-ci səh.*

# Diplomatik xidmət haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 11-ci səh.*

**Maddə 25. Diplomatik xidmət orqanı əməkdaşlarının beynəlxalq təşkilatların orqanlarında işləməyə göndərilməsi**

25.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik xidmət orqanı əməkdaşı öz razılığı ilə diplomatik xidmət orqanında tutduğu vəzifədən azad edilərək və diplomatik xidmət orqanlarında xidmətinə xitam verilmədən beynəlxalq təşkilatın orqanında işləməyə göndərilə bilər.

25.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən beynəlxalq təşkilatın orqanında işləməyə göndərilən diplomatik xidmət orqanı əməkdaşının hüquqi vəziyyəti, fəaliyyətinin əsasları və təşkili qaydası, şərtləri və fəaliyyət müddəti, eləcə də maddi təminatı və sosial müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının normativ hüquqi aktları, müvafiq beynəlxalq təşkilatın müəyyən etdiyi qaydalar və eyni zamanda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla, müvafiq diplomatik xidmət orqanı əməkdaşı ilə beynəlxalq təşkilatın orqanı arasında bağlanılan müqavilə əsasında tənzimlənir.

25.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən beynəlxalq təşkilatın orqanına işləməyə göndərilən diplomatik xidmət orqanı əməkdaşı fəaliyyətini başa vurduqdan sonra və ya fəaliyyətinin bitmə müddətindən əvvəl geri çağırılması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qərar qəbul olunduqda və onun diplomatik xidmət orqanlarında xidmətinə xitam verilməsinə əsas olan hallar olmadıqda, o, diplomatik xidmət orqanında tutduğu sonuncu vəzifədən aşağı olmayan vakant vəzifəyə təyin edilir, belə vakant vəzifə olmadıqda isə bu Qanunun 27.3-cü maddəsi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sərəncamında olur.

25.4. Qanunvericiliklə müəyyən edilmiş qaydada müəssisənin ləğvi istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən beynəlxalq təşkilatın orqanına işləməyə göndərilən diplomatik xidmət orqanı əməkdaşının müvafiq xarici dövlətdə onunla birlikdə yaşayan, Azərbaycan Respublikasının dövlət orqanında, dövlətin adından yaradılan publik hüquqi şəxsdə, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxsdə və büdcə təşkilatında təyinatlı vəzifədə (peşədə) işləmiş və əmək müqaviləsinə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 69-cu maddəsinin 3-1-ci hissəsi ilə müəyyən edilmiş qaydada xitam verilmiş arvadı (əri) diplomatik xidmət orqanı əməkdaşının müvafiq beynəlxalq təşkilatın orqanında işlədiyi müddətdə və ya bu müddət başa çatdığı tarixdən 60 (altmış) təqvim günü keçənədək əvvəlki vəzifəsini (peşəsini) tutmaq üçün müraciət etdikdə onun peşəkarlıq səviyyəsi və peşə yararlılığı yoxlanılmaqla həmin vəzifəyə (peşəyə), bu mümkün olmadıqda isə ona bərabər başqa vəzifəyə (peşəyə) təyin olunur.

**Maddə 26. Diplomatik xidmət orqanı əməkdaşının geri çağırılması**

26.1. Diplomatik xidmət orqanı əməkdaşı aşağıdakı hallarda diplomatik nümayəndəlikdə və ya konsulluqda xidmətdən geri çağırılır:

26.1.1. bu Qanunun 24.8-ci və 24.10-cu maddələri nəzərə alınmaqla, diplomatik nümayəndəlikdə və ya konsulluqda bu Qanunun 24.7-ci və 24.9-cu maddələrində müəyyən edilmiş xidmət müddəti bitdikdə;

26.1.2. xidməti zərurət yarandıqda;

26.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri ilə razılaşdırmaqla öz təşəbbüsü olduqda;

26.1.4. xidmət keçdiyi diplomatik nümayəndəliyin və ya konsulluğun fəaliyyəti dayandırıldıqda (yaxud məhdudlaşdırıldıqda);

26.1.5. qəbul edən dövlətdə təhlükəsizliyinə təhdid yarandıqda;

26.1.6. normativ hüquqi aktlarla müəyyən olunmuş vəzifələrini yerinə yetirmədikdə, məhdudiyyətlərə və ya əmək müqaviləsi üzrə öhdəliklərinə əməl etmədikdə, özü və ya ailə üzvləri tərəfindən qəbul edən dövlətin qanunlarına və adət-ənənələrinə hörmətsizlik göstərildikdə, Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə müəyyən olunmuş güzəştlərdən, imtiyazlardan və immunitetlərdən sui-istifadə edildikdə;

26.1.7. qəbul edən dövlət tərəfindən arzuolunmaz şəxs hesab edildikdə;

26.1.8. təyin olunduğu ştat vahidi ixtisar edildikdə;

26.1.9. bu Qanunun 27.4-cü maddəsində nəzərdə tutulan hal baş verdikdə;

26.1.10. diplomatik xidmət orqanlarında xidmətinə xitam verildikdə.

**Maddə 27. Diplomatik xidmət orqanı əməkdaşının sərəncamda olması və vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılması**

27.1. Diplomatik xidmət orqanlarında ştat vahidi ixtisar edildikdə və ya diplomatik xidmət əməkdaşı attestasiyanın nəticələrinə görə tutduğu vəzifəyə uyğun olmadıqda, habelə bu Qanunun 24.4-24.6-cı və 26.1.2-26.1.7-ci maddələrində nəzərdə tutulan hallarda diplomatik xidmət orqanı əməkdaşı 3 (üç) ayadək müddətə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sərəncamında olur və onun tutduğu son vəzifə üzrə dövlət məvacibi ödənilir.

27.2. Bu Qanunun 25.3-cü maddəsində nəzərdə tutulan halda diplomatik xidmət orqanı əməkdaşı 3 (üç) ayadək müddətə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sərəncamında olur və onun müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) tutduğu son vəzifə üzrə dövlət məvacibi ödənilir.

27.3. Diplomatik xidmət orqanlarının ümumi ştat vahidi sayının 5 (beş) faizindən artıq olmamaq şərtilə diplomatik xidmət orqanı əməkdaşlarının sərəncamda olması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən rəsmiləşdirilir.

27.4. Diplomatik xidmət orqanı əməkdaşı cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb olunduğu tarixdən vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılır və həmin andan səlahiyyətlərinin icrasına buraxılmır.

27.5. Vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılmış diplomatik xidmət orqanı əməkdaşı barəsində bəraət hökmü çıxarıldıqda və ya cinayət təqibinə bəraətverici əsaslarla xitam verildikdə, o, yenidən vəzifələrinin icrasına buraxılır.

27.6. Vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılmış diplomatik xidmət orqanı əməkdaşı barəsində məhkəmənin ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı qanuni qüvvəyə mindiyi tarixdən həmin əməkdaşın diplomatik xidmət orqanlarında xidmətinə xitam verilir.

27.7. Diplomatik xidmət orqanı əməkdaşı bu Qanunun 11.1-ci maddəsinin birinci abzasında nəzərdə tutulan əməlləri törədib-törətməməsinin araşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 2 (iki) ay müddətinədək vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırıla bilər. Belə kənarlaşdırma diplomatik xidmət orqanı əməkdaşının öz vəzifə səlahiyyətlərinin icrasını davam etdirməsinin aparılan xidməti yoxlamaya maneçilik törədə biləcəyi hallarda həyata keçirilir. Xidməti yoxlamanın nəticəsindən asılı olaraqən geci 2 (iki) ay müddətində əməkdaş barəsində vəzifə səlahiyyətlərinin icrasına buraxılmasına və ya intizam tənbehi tədbirinin tətbiq edilməsinə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qərar qəbul edilir.

27.8. Vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırıldığı müddət ərzində diplomatik xidmət orqanı əməkdaşına tutduğu vəzifə üzrə dövlət məvacibi tam həcmdə ödənilir.

**Maddə 28. Diplomatik xidmət əməkdaşının diplomatik xidmət stajı**

28.1. Diplomatik xidmət əməkdaşının diplomatik xidmət stajına aşağıdakı dövrlər daxildir:

28.1.1. diplomatik xidmət orqanlarında diplomatik vəzifələrdə xidmət dövrü;

28.1.2. diplomatik xidmətə qəbul olunarkən staj və sınaq dövrləri;

28.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi əsasında əlavə təhsil dövrü;

28.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sərəncamında olma və vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılma dövrləri.

28.2. Diplomatik xidmət orqanlarında xidmət keçən və ya əvvəllər xidmət keçmiş şəxslər dövlət qulluğuna və ya dövlət qulluğunun digər xüsusi növünə qulluğa (xidmətə) qəbul edilərkən, onların diplomatik xidmət stajı həmin orqanlarda qulluq (xidmət) illərinə daxil edilir. Dövlət qulluğunda və ya dövlət qulluğunun digər xüsusi növündə qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxslər diplomatik xidmət orqanlarına xidmətə qəbul edildikdə, onların qulluq (xidmət) illəri diplomatik xidmət stajına daxil edilir.

**Maddə 29. Diplomatik xidmətdə olmanın yaş həddi**

29.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan diplomatik xidmət əməkdaşlarının diplomatik xidmətdə olmalarının yaş həddi müəyyən edilmir.

29.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan diplomatik xidmət əməkdaşlarının diplomatik xidmətdə olmalarının yaş həddi 65 yaşdır.

29.3. Bu Qanunun 29.2-ci maddəsində nəzərdə tutulan 65 yaşına çatmış diplomatik xidmət əməkdaşlarının xidmətdə olma müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri tərəfindən hər dəfə 1 (bir) ildən çox olmayaraq 5 (beş) ilədək uzadıla bilər.

29.4. Bu Qanunun 29.3-cü maddəsinə uyğun olaraq xidmətdə olma müddəti uzadılmış diplomatik xidmət əməkdaşlarının sayı diplomatik xidmət orqanlarının ümumi ştat vahidi sayının 15 (on beş) faizindən artıq olmamalıdır.

**Maddə 30. Diplomatik xidmət orqanlarında xidmətə xitam verilmə**

30.1. Diplomatik xidmət orqanı əməkdaşının xidmətinə aşağıdakı əsaslarla xitam verilir:

30.1.1. öz arzusu ilə xidmətə xitam verilməsi barədə ərizə yazdıqda;

30.1.2. diplomatik xidmət orqanlarından kənar ödənişli vəzifəyə təyin edildikdə və ya seçildikdə (bu Qanunun 25-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla);

30.1.3. əmək qabiliyyətinin fasiləsiz olaraq 6 (altı) aydan çox müddətə tam itirilməsi ilə əlaqədar xidmət funksiyasını yerinə yetirə bilmədikdə;

30.1.4. diplomatik xidmət orqanında ştat vahidi ixtisar edildikdə;

30.1.5. diplomatik xidmət əməkdaşı attestasiyanın nəticələrinə görə tutduğu vəzifəyə uyğun olmadıqda;

30.1.6. bu Qanunun 11.1.5-ci maddəsinə uyğun olaraq diplomatik xidmət orqanlarından xaric edildikdə;

30.1.7. bu Qanunun 11.1.6-cı maddəsinə uyğun olaraq diplomatik xidmət orqanlarından xaric edildikdə;

30.1.8. bu Qanunun 18.4-cü maddəsində nəzərdə tutulan halda;

30.1.9. Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə;

30.1.10. diplomatik xidmət orqanlarında xidmətə qəbul məqsədilə təqdim edilmiş sənədlərdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edilməsi aşkar edildikdə;

30.1.11. barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;

30.1.12. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;

30.1.13. bu Qanunun 29.1-ci maddəsi nəzərə alınmaqla, diplomatik xidmət orqanlarında xidmətdə olmanın yaş həddinə çatdıqda vəxidmətdə olma müddəti uzadılmadıqda;

30.1.14. vəfat etdikdə, habelə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə.

30.2. Bu Qanunun 30.1.4-cü maddəsində nəzərdə tutulan əsasa görə diplomatik xidmət orqanı əməkdaşı və 30.1.5-ci maddəsində nəzərdə tutulan əsasa görə diplomatik xidmət əməkdaşı diplomatik xidmət orqanlarında digər vəzifəyə keçirilməkdən imtina etdikdə onun xidmətinə xitam verilir.

30.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin edilən diplomatik xidmət orqanı əməkdaşının əmək qabiliyyətini müvəqqəti itirdiyi (bu Qanunun 30.1.3-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla), məzuniyyətdə və ezamiyyətdə olduğu dövrdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbərinin təşəbbüsü ilə onun diplomatik xidmət orqanlarında xidmətinə xitam verilə bilməz.

30.4. Diplomatik xidmət orqanı əməkdaşı öz təşəbbüsü ilə diplomatik xidmət orqanında xidmətinə xitam verilməsi barədə ərizə təqdim etdiyi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbərinin xidməti davam etdirmək barədə qərarı olduğu təqdirdə, həmin əməkdaş ərizə təqdim etdiyi tarixdən etibarən 30 (otuz) təqvim günü müddətində xidmətini davam etdirməlidir. Diplomatik xidmət orqanı əməkdaşı pensiyaya çıxdıqda, təhsilini davam etdirmək üçün müvafiq təhsil müəssisəsinə daxil olduqda, başqa təyinatlı və ya seçkili vəzifə tutduqda və qanunda nəzərdə tutulan digər hallarda onun ərizəsində göstərildiyi tarixdən xidmətinə xitam verilir.

**5-ci fəsil**
**YEKUN MÜDDƏALAR**

**Maddə 31. Bu Qanunun qüvvəyə minməsi**

31.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

31.2. Bu Qanun qüvvəyə mindiyi tarixdən "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2001-ci il 8 iyun tarixli 137-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 567 (Cild I) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.3-cü, 1.1.6-cı, 4.1-ci (hər iki halda), 4.2-ci, 4.7-ci (hər iki halda), 6.1.14-cü,7.1.9-cu (hər üç halda), 7.1.10-cu (hər iki halda), 7.1.11-ci (hər üç halda), 7.1.13-7.1.15-ci, 9.1.9-cu, 10.2-ci, 10.7-ci maddələrində, 11.9-cu və 11.13-cü maddələrinin birinci və ikinci cümlələrində, 12.1-ci, 12.2-ci (hər iki halda), 12.3-cü, 12.4-cü maddələrində, 12.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 13.1-ci maddəsinin birinci abzasında, 13.2-13.6-cı, 13.7-ci (hər iki halda), 13.8-ci maddələrində, 13.15-ci maddəsinin birinci və ikinci cümlələrində, 13.16-cı maddəsinin ikinci cümləsində, 13.17-ci maddəsinin birinci və ikinci cümlələrində, 14.2.1-ci, 14.4-14.7-ci maddələrində, 14.8-ci maddəsinin birinci və üçüncü cümlələrində, 15.2.1-ci, 15.2.2-ci maddələrində, 15.4-cü maddəsinin birinci cümləsində, 15.5-ci, 15.8-ci (hər iki halda), 15.9-cu (hər iki halda) maddələrində, 15.10-cu maddəsinin birinci və ikinci cümlələrində, 15.11-ci, 15.14-cü, 15.15-ci, 15.19-cu maddələrində, 17.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 17.3.3-cü, 17.4-cü, 17.6-cı, 17.7.2-ci, 18.1-18.3-cü maddələrində, 18.5-ci maddəsinin birinci cümləsində, 18.6-cı maddəsinin birinci (hər iki halda), ikinci və üçüncü cümlələrində, 19.1-19.4-cü, 21.1-ci (hər üç halda), 21.4-cü maddələrində, 22.1-ci maddəsinin birinci cümləsində, 22.2-ci maddəsinin birinci cümləsində (hər iki halda), 22.4-cü, 23.1-ci, 23.3-cü, 24.2-ci (hər iki halda), 24.3-cü, 24.4-cü (hər iki halda), 24.5-ci (hər üç halda), 24.6-cı (hər üç halda), 24.8-ci maddələrində, 24.9-cu maddəsinin birinci və ikinci cümlələrində, 24.10-cu (hər iki halda), 24.11-ci, 24.12-ci (hər üç halda), 25.1-ci, 25.2-ci (hər iki halda), 25.3-cü (hər üç halda), 25.4-cü, 26.1.3-cü, 27.1-ci, 27.2-ci (hər iki halda), 27.3-cü maddələrində, 27.7-ci maddəsinin birinci və üçüncü cümlələrində, 28.1.3-cü, 28.1.4-cü, 29.1-29.3-cü, 30.3-cü (hər iki halda) maddələrində və 30.4-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 4.7-ci (hər iki halda), 6.1.14-cü, 12.2-ci (ikinci halda), 12.4-cü maddələrində, 13.16-cı maddəsinin ikinci cümləsində, 14.4-cü maddəsində, 14.8-ci maddəsinin birinci və üçüncü cümlələrində, 15.4-cü maddəsinin birinci cümləsində, 15.10-cu maddəsinin birinci və ikinci cümlələrində, 15.11-ci maddəsində, 17.1-ci maddəsinin ikinci cümləsində,17.3.3-cü, 17.4-cü, 17.7.2-ci, 19.1-ci, 21.1-ci (ikinci halda) maddələrində, 22.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 24.2-ci (birinci halda), 24.6-cı (birinci halda), 24.8-ci və 29.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 7.1.10-cu (birinci halda), 7.1.11-ci (birinci halda), 15.8-ci (birinci halda), 15.9-cu (birinci halda), 15.19-cu, 17.6-cı, 25.1-ci, 25.2-ci (birinci halda), 25.3-cü (birinci və ikinci hallarda) və 25.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 12.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 13.1-ci maddəsinin birinci abzasında, 13.2-13.6-cı, 13.7-ci (hər iki halda), 13.8-ci maddələrində, 13.15-ci maddəsinin ikinci cümləsində, 13.17-ci maddəsinin ikinci cümləsində, 22.4-cü və 23.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.5. həmin Qanunun 1.1.3-cü, 1.1.6-cı, 4.1-ci (hər iki halda), 4.2-ci, 7.1.9-cu (hər üç halda), 7.1.10-cu (ikinci halda), 7.1.11-ci (ikinci və üçüncü hallarda), 7.1.13-7.1.15-ci, 9.1.9-cu, 10.2-ci, 10.7-ci maddələrində, 11.9-cu və 11.13-cü maddələrinin birinci və ikinci cümlələrində, 12.1-ci, 12.2-ci (birinci halda), 12.3-cü, 14.2.1-ci, 14.5-14.7-ci, 15.2.1-ci, 15.2.2-ci, 15.5-ci, 15.8-ci (ikinci halda), 15.9-cu (ikinci halda), 15.14-cü, 15.15-ci maddələrində, 17.1-ci maddəsinin birinci cümləsində, 18.1-18.3-cü maddələrində, 18.5-ci maddəsinin birinci cümləsində, 18.6-cı maddəsinin birinci (hər iki halda), ikinci və üçüncü cümlələrində, 19.2-19.4-cü, 21.1-ci (birinci və üçüncü hallarda), 21.4-cü maddələrində, 22.1-ci maddəsinin birinci cümləsində, 22.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 23.1-ci, 24.2-ci (ikinci halda), 24.3-cü, 24.4-cü (hər iki halda), 24.5-ci (hər üç halda), 24.6-cı (ikinci və üçüncü hallarda), 24.9-cu maddəsinin birinci və ikinci cümlələrində, 24.10-cu (hər iki halda), 24.11-ci, 24.12-ci (hər üç halda), 25.2-ci (ikinci halda), 25.3-cü (üçüncü halda), 26.1.3-cü, 27.1-ci, 27.2-ci (hər iki halda), 27.3-cü maddələrində, 27.7-ci maddəsinin birinci və üçüncü cümlələrində, 28.1.3-cü, 28.1.4-cü, 29.2-ci, 29.3-cü, 30.3-cü (hər iki halda) maddələrində və 30.4-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 13.15-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur;

1.7. həmin Qanunun 13.17-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfirlərinin, təmsilçilik ofisi rəhbərlərinin, daimi nümayəndələrinin və nümayəndələrinin dövlət məvacibi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təminedici idarə rəisinin aylıq vəzifə maaşından, aylıq vəzifə maaşına əlavələrdən (ən yüksək olanı tətbiq edilməklə) və aylıq vəzifə maaşının 25 faizi məbləğində mükafatdan ibarətdir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. iki ay müddətində:

3.1.1. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.4-cü maddəsinə uyğun olaraq, fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələrinin verilməsi ilə bağlı vəsiqənin nümunəsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. həmin Qanunun 17.1-ci maddəsinin ikinci cümləsinə və 17.4-cü maddəsinə uyğun olaraq, diplomatik xidmətə qəbul üzrə müsabiqənin keçirilməsi qaydalarına və diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədlərinin müsahibədən əvvəl yoxlanılması qaydasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.3. həmin Qanunun 12.5-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, həmin Qanunun 13.15-ci maddəsində nəzərdə tutulan dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinin və onların (aparatlarının) işçilərinin dövlət məvacibinin məbləğini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.4. həmin Qanunun 13.15-ci maddəsinə uyğun olaraq, həmin maddədə nəzərdə tutulan dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi qaydalarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

4.1. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 21.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən, həmçinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən diplomatik nümayəndəliklərdə və konsulluqlarda vəzifəyə təyin edilən diplomatik xidmət əməkdaşlarının xidməti vəsiqəsinin nümunəsini iki ay müddətində təsdiq etsin;

4.2. həmin Qanundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 572 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 587 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

6. "Sosial sığorta haqqında", "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 780-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli 572 nömrəli, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2004-cü il 17 iyun tarixli 77 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 yanvar tarixli 1965 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 53 (Cild I) 1-ci və 2-ci hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2025-ci il*

# Azərbaycan-Çin strateji tərəfdaşlığı - Avrasiyada iqtisadi sabitliyə və inkişafa xidmət edən əməkdaşlıq

Son dövrlər Azərbaycanla Çin arasında iqtisadi əlaqələr sürətlə genişlənir. Bu yöndə Strateji Tərəfdaşlıq Bəyannaməsinin imzalanması mühüm rol oynayır.



Məlumat üçün bildirək ki, hazırda Çin ölkəmizlə xarici ticarətdə ixrac üzrə 4-cü, idxal üzrə isə 1-ci yerdədir. Bununla belə, perspektivlərdən tam istifadə olunduğunu demək hələ tezdir.

Prezident İlham Əliyev Davosda Çinin CGTN kanalına verdiyi müsahibəsində iki ölkə arasında siyasi və iqtisadi əlqaqələrin mövcud vəziyyəti ilə yanaşı, perspektivlərdən də danışmışdır. Bu perspektivlərə investisiya, innovativ texnologiyalar, xüsusən "yaşıl enerji" sahəsində geniş əməkdaşlıq imkanları daxildir. Ən önəmlisi isə odur ki, hər iki tərəf bu sahələr üzrə əməkdaşlığın genişlənməsinə böyük maraq göstərir.

Dövlət başçısı sözügedən müsahibədə vurğulamışdır ki, "yaşıl enerji" layihəsinin icrasında Azərbaycan şirkətləri Çinin texnologiyalarından istifadə edirlər. Ölkəmizdə günəş və külək enerjisinin istehsalının 2027-ci ildə 2 giqavat həcminə çatdırılmasının nəzərdə tutulduğunu deyən Prezident İlham Əliyev 2030-cu ildə bu rəqəmin 6 giqavata çatdırılacağını diqqətə çatdırmışdır. O da qeyd olunmuşdur ki, Azərbaycan bu sahədə Çin investisiyalarından və texnologiyalarından istifadəyə üstünlük vermək niyyətindədir.

Bu gün Çinlə Azərbaycanın əsas əməkdaşlıq etdiyi sahə həmçinin Orta dəhlizdir. Orta dəhlizin hər iki ölkə üçün strateji əhəmiyyəti var. Bu sahədə Çinlə Azərbaycan rəsmilərinin tez-tez görüşüb müzakirələr aparmalarının səbəbi də bunu təsdiq edir. Hədəf beynəlxalq əhəmiyyətli bu ticarət dəhlizinin tranzit imkanlarını daha da genişləndirməkdir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) Şərqi Asiya üzrə eksperti Vüsal Quliyev deyir: "2024-cü ildə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi iki ölkə arasında daha sıx inteqrasiyanın formalaşmasına zəmin yaratdı. Hazırda bu strateji tərəfdaşlıq iqtisadi və ticarət əlaqələrindən başlayaraq enerji, nəqliyyat-kommunikasiya sahələrinə, eləcə də yeni nəsil texnologiyalar və rəqəmsal infrastrukturun inkişafına qədər geniş sahələri əhatə edir".

Vüsal Quliyev iki dövlət arasında qarşıdakı dövrdə yeni əməkdaşlıq imkanlarının yaranacağına da əmindir: "Azərbaycanın iqtisadi siyasətinin əsas istiqamətlərindən biri də xarici sərmayə axınını təşviq etməkdir. O cümlədən Çin mənşəli şirkətlərin iri investisiya və texnologiya layihələrində iştirakı üçün optimal şərait yaradılır. Hazırda Çinin Azərbaycanla alternativ enerji mənbələri üzrə əməkdaşlıqlar qurması üçün geniş imkanlar mövcuddur".

Mütəxəssisin fikrincə, beynəlxalq nəqliyyat və logistika sahəsindəki əməkdaşlıq iki ölkə arasında strateji istiqamətlərdə ən önəmli sahəyə çevrilir. Orta dəhliz Azərbaycan-Çin strateji tərəfdaşlığında vacib rol oynayır. Şərqi Avropada baş verən hərbi münaqişə və gərgin geosiyasi mənzərə fonunda Çin mənşəli məhsulların Avropa bazarlarına təhlükəsiz və sürətli nəqli üçün alternativ və etibarlı tranzit yolu kimi Orta dəhlizin əhəmiyyəti günbəgün artmaqdadır. İkitərəfli güclü diplomatik və kommersiya əlaqələrinin formalaşması bu çoxmodullu beynəlxalq qatar-bərə yolunun özünü iqtisadi və siyasi cəhətdən doğrultması baxımından önəmlidir.

Ekspert həmçinin qeyd edir ki, Orta dəhlizin optimallaşdırılması və ötürücülük potensialının artırılması Azərbaycan üçün yalnız tranzit gəlirlərinin artması kimi deyil, eyni zamanda beynəlxalq ticarətdə strateji mövqeyinin gücləndirilməsi, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və regional inteqrasiyanın dərinləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir. V.Quliyev deyir: "Azərbaycan Orta dəhliz vasitəsilə Çinin Avropaya çıxışını təmin edən ən vacib ölkələrdən birinə çevrilib. Bu yol həmçinin marşruta daxil olan digər dövlətlər üçün də iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, Azərbaycan Orta dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də Bakı limanı kimi quru və dəniz əsaslı fiziki və rəqəmsal infrastruktur layihələri vasitəsilə regional logistik qovşaq kimi mövqeyini daha da möhkəmləndirir".

"Bu əməkdaşlıqlar Orta dəhlizin inkişaf perspektivlərini genişləndirə və onun səmərəli nəqliyyat şəbəkəsinə çevrilməsinə töhfə verə bilər. Bütövlükdə, Azərbaycan-Çin strateji tərəfdaşlığı iki ölkənin milli maraqları ilə yanaşı, Avrasiya regionunda iqtisadi sabitliyin və inkişafın təmin edilməsinə töhfə vermə potensialına malikdir", - deyə ekspert bildirib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycandakı dini konfessiyalar ABŞ Prezidenti Donald Trampa məktub ünvanlayıblar



"Azərbaycanın dini icmaları adından Amerika Birləşmiş Ştatlarının 47-ci Prezidenti kimi fəaliyyətinizin uğurlu başlaması münasibətilə səmimi təbriklərimizi çatdırmaq bizim üçün böyük imtiyaz və şərəfdir. Bu ali vəzifənizdə Sizə ən xoş arzularımızı, həmçinin bu ali vəzifəni Sizə etibar edən Amerika xalqına davamlı firavanlıq və rifah diləklərimizi bildiririk.

Müxtəlif dinlərə mənsub insanların tarixən sülh və harmoniya şəraitində birgə yaşadığı Azərbaycanın dini liderləri olaraq, biz də bu fürsətdən istifadə edərək, Sizin Birləşmiş Ştatlarda ənənəvi dəyərlərin və dini etiqad azadlığının qorunması məsələlərinə sarsılmaz sadiqliyinizə görə öz dərin minnətdarlığımızı bildiririk. Sizin din, ailə və əxlaq prinsiplərinə qəti sadiqliyiniz bütün dünyada milyonlarla insana ümid işığı tutur, yenidən mənəvi dəyərlərin və əxlaqi bütövlüyün təşviq edilməsinə xidmət edir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycandakı dini konfessiyaların ABŞ Prezidenti Donald Trampa ünvanladıqları məktubda yer alır. Məktubda deyilir:

"Vətənimiz Azərbaycan dünyada dini və mədəni müxtəlifliyin mənəvi sərvət kimi qəbul edildiyi nadir məkanlardan biridir. Biz fəxr edirik ki, dünyanın bir çox yerində islamofobiya, antixristianlıq və antisemitizm kimi etnik, dini və irqi ayrı-seçkiliyin artdığı bir vaxtda Azərbaycan müsəlmanların, xristianların, yəhudilərin və digər din ardıcıllarının həmişə harmoniya və firavanlıq şəraitində yaşadıqları bir nümunə kimi çıxış edir.

Azərbaycanda mədəniyyət ocaqları ilə yanaşı, məscidlər, kilsələr və sinaqoqlar yan-yana fəaliyyət göstərir. Dövlətimiz bütün dini icmalar üçün bərabər şərait yaradır, onların dini qurumlarını qayğı və himayə ilə dəstəkləyir, onlara mütəmadi olaraq maddi və mənəvi yardım göstərir, ölkənin ictimai həyatında fəal iştirakına təminat verir.

Müxtəlifliyin zəngin irsini qoruyub saxlayan, dini azadlıqları dəstəkləyən, qlobal dinlərarası dialoqda fəal iştirak edən Azərbaycan qlobal sülhə mühüm töhfə verir və nümunə kimi çıxış edir.

Bu dini harmoniyanın xüsusi diqqətə layiq nümunəsi əsrlər boyu təqib və ya ayrı-seçkilikdən azad bir mühitdə inkişaf edən Azərbaycanın yəhudi icmasıdır. Quba rayonundakı tarixi Qırmızı Qəsəbə müsəlman dünyasındakı ən qədim və ən böyük yəhudi icmalarından birinin məskənidir. Burada fəaliyyət göstərən sinaqoqlar, məktəblər və mədəniyyət mərkəzləri ilə bu məkan Azərbaycanın dini azadlıqlara sarsılmaz sadiqliyinin sübutudur. Bununla yanaşı, Azərbaycan hökuməti xristian və yəhudi dini qurumlarına böyük dəstək verir, onların Azərbaycanın vətəndaş və ictimai həyatında fəal iştirakını təmin edir.

Sizin Ağ Evin İnam Ofisini yaratmaq və keşiş Paula Uayt-Keyni baş məsləhətçi vəzifəsinə təyin etmək qərarınız imanı idarəçilik və ictimai həyata inteqrasiya etmək üçün güclü öhdəliyi əks etdirir. Onun dini etiqad azadlığı, humanitar hüquqlar və mənəvi dəyərlərin müdafiəsində liderliyi Azərbaycanda üstün tutduğumuz prinsiplərə uyğundur.

Biz qarşılıqlı anlaşma və ortaq dəyərləri təşviq etmək üçün Birləşmiş Ştatlardakı liderlər və təşkilatlarla əlaqə qurmağı səbirsizliklə gözləyirik. Ümidvarıq ki, Sizin rəhbərliyiniz altında bütün dünyada dinə əsaslanan icmalar möhkəmlənməkdə, dini azadlıqlar qorunub saxlanmaqda davam edəcək.

Bir daha səylərinizə görə dərin minnətdarlığımızı bildiririk. Qoy Sizin prezidentlik dövrünüz hamı üçün birlik, mənəvi möhkəmlik və rifahın möhkəmləndirilməsində davamlı uğurlarla əlamətdar olsun.

*Ən yüksək hörmət və xeyir-dualarla,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*

***ALEKSİY,***
*Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yepiskopu*

***Vladimir FEKETE,***
*Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekti*

***Milix YEVDAYEV,***
*Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri*

***Aleksandr ŞAROVSKİ,***
*Bakıdakı Avropa Yəhudi İcmasının rəhbəri*

***Robert MOBİLİ,***
*Alban-Udi Xristian Dini İcmasının sədri*

***Zamir İSAYEV,***
*Bakıdakı Yəhudi Sefardi Dini İcmasının rəhbəri".*

# "Şahdəniz"də pilotsuz kompressor platformasının tikintisi üzrə yekun investisiya qərarının bu il qəbul edilməsi gözlənilir

"BP-Azerbaijan" şirkəti 2025-ci ilin sonuna kimi "Şahdəniz" yatağında Şahdəniz Kompressiya Layihəsinin (ŞKL) pilotsuz kompressor platformasının tikintisi üzrə yekun investisiya qərarının qəbul edilməsini gözləyir".

AZƏRTAC xəbər verir ki, bu sözləri "BP-Azerbaijan" şirkətinin Mətbuat xidmətinin rəhbəri Tamam Bayatlı Şahdəniz Kompressiya Layihəsinin (ŞKL) ictimai müzakirəsində çıxışı zamanı deyib.

O bildirib ki, BP şirkəti ŞKL platformasının tikinti layihəsinin Ətraf Mühitə və Soaial Sahəyə Təsirinin Qiymətləndirilməsi (ƏMSTQ) hesabatını hazırlayıb.

"Sənəd 60 gün ərzində ictimaiyyətə açıq olacaq. Daha sonra qeydlər və təkliflər nəzərə alınaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim ediləcək. Sənəd Azərbaycan hökuməti tərəfindən təsdiqləndikdən sonra layihənin həyata keçirilməsi üzrə yekun investisiya qərarı qəbul ediləcək. Hesabatda ətraf mühitin və sosial sahənin mövcud vəziyyəti haqqında məlumat, həmçinin layihənin həyata keçirilməsinin ekologiyaya təsiri ilə əlaqədar proqnozlar verilib, ətraf mühitə və əhaliyə potensial təsirin minimuma endirilməsi, azaldılması üzrə tədbirlər əks olunub", - deyə T.Bayatlı vurğulayıb.

ƏMSTQ hesabatına görə, 2027-ci ilə qədər layihənin tikintisində təxminən 2 min 600 nəfər iştirak edəcək. ŞKL platformasında işçi heyəti olmayacağı üçün istismar mərhələsi ərzində layihə ilə əlaqədar yalnız məhdud sayda texniki xidmət personalı işə götürüləcək.

# *Türkiyəli general:* "Qarabağ zəfəri haqsızlığa qarşı mübarizə aparan bütün ölkələrin ümidi oldu"

"Fikrimcə, dövlət idarəçiliyinin əsas amilləri məkan, vaxt və gücdür. Azərbaycan geosiyasi mövqeyi baxımından olduqca əhəmiyyətli yerdədir və istər "Şərq-Qərb", istərsə də "Şimal-Cənub" dəhlizləri üçün çox mühüm mövqe tutur. Təbii ki, bu mövqeyin yaratdığı üstünlüklərlə yanaşı, müəyyən risklər və məsuliyyətlər də var. Qafqazın regional lideri olaraq Azərbaycan bu gün xarici siyasətini istər ABŞ, Rusiya, Çin, istərsə də Afrika ölkələri olsun, dövlətlər arasında heç bir fərq qoymadan balanslaşdırılmış şəkildə aparır. Təbii ki, burada Şuşa Bəyannaməsi ilə möhürlənən Türkiyə-Azərbaycan münasibətləri, eləcə də Çin və Avropa İttifaqı ölkələri ilə strateji tərəfdaşlığa dair bəyannamələri qeyd etməmək olmaz. Azərbaycanın xarici siyasi xəttinin təməlləri arasında ölkələrin ərazi bütövlüyü, bəşəri və humanitar amillərə hörmət, eyni zamanda dostluq prinsipləri əsas yer tutur. Digər dövlətlərə bu prizmadan yanaşan bir ölkənin bunun qarşılığını tələb etməsi təbii haldır".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan türkiyəli general, Türkiyənin Azərbaycandakı sabiq hərbi attaşesi Yücel Karauz söyləyib.

"Ermənistana gəldikdə, bu ölkənin heç vaxt təkbaşına hərəkət etmədiyini, tarixin müxtəlif dövrlərində, istər sovet hakimiyyəti, istər bəzi Qərb qüvvələri, istərsə də ona "dayılıq" edən digərlərinin arxasında gizləndiyni bilirik. Elə bunun nəticəsi idi ki, 1990-cı illərdə Azərbaycan torpaqlarının 20 faizi ermənilər tərəfindən işğal edildi. Çünki o dövrdə Ermənistanın milli güc mexanizmləri minimum dərəcədə idi. Elə bu səbəbdən tam əminliklə deyə bilərik ki, ermənilər Azərbaycan torpaqlarının işğalına "dayıları"nın apardığı "siyasət" nəticəsində nail olublar. Sonrakı dövrə gəlsək, burada ilk növbədə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın milli gücünün artması üçün atdığı təməlləri, bu təməllər üzərində Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasəti xüsusi vurğulamalıyıq. Bizi 2020-ci ildə qazandığımız Zəfərə daşıyan da məhz bu amillər oldu", - deyə general bildirib.

Azərbaycanın 2020-ci ilədək Qarabağ məsələsinin sülh yolu ilə həll olunması istiqamətində etdiyi çağırışları və göstərdiyi səylərin cavabsız qaldığını xatırladan müsahibimiz qeyd edib: "Məsələyə bu tərəfdən baxdıqda, Azərbaycan hakimiyyətinin son illər ordu quruculuğuna verdiyi çox böyük dəyərin nə qədər doğru olduğunu görürük. Çünki Azərbaycan dövləti xalqın böyük dəstəyinə söykənərək, heç bir ölkəyə bağlı olmadan özünün milli gücü, öz əsgəri, öz hərbi texnikası ilə işğalla yanaşı, uzun illər davam edən erməni vəhşiliyinə və vandalizminə də son qoydu. Burada xüsusi vurğulamalıyıq ki, 1992-ci ildə kənar qüvvələr tərəfindən silahlandırılan Ermənistan qarşısında haradan baxsan "əliyalın" qalan Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə bütün dünyaya öz gücünü göstərdi və Cənubi Qafqazın güc mərkəzinə çevrildi. Azərbaycanın bu qələbəsi 200 illik intiqamı aldı. Bu, Azərbaycanla yanaşı, türk dünyasının qələbəsi və haqsızlığa qarşı mübarizə aparan bütün ölkələrin ümidi oldu. Bu qələbə ilə Afrikadakı müstəmləkələr başda olmaqla, insanlar milli mənliklərini ön plana çıxarmağa başladılar. Əslində, bu Zəfər oyanışının nümunəsi oldu. Burada Azərbaycanın uzun illər xalqına, torpağına qarşı qərəzli münasibətə böyük səbrini xüsusi vurğulamaq lazımdır".

Azərbaycanın geosiyasi və geostrateji tarazlığı qoruyaraq qlobal arenada nümayiş etdirdiyi siyasi xəttin ölkəmizi Qafqazın güc mərkəzinə çevirməklə yanaşı, qlobal fəaliyyətlərdə ön plana çəkdiyi və mühüm beynəlxalq tədbirlərə evsahibliyi edən dövlətə çevirdiyini, COP29-un bunun ən böyük nümunəsi olduğunu qeyd edən general sözlərinə belə davam edib: "COP29 artıq Azərbaycanın dünyada söz sahibi olan ölkəyə çevrildiyinin böyük nümunəsidir. Bu, ölkənin apardığı düzgün siyasətin nəticəsidir. Çünki biz kor-koranə, başqalarının sözünə güvənərək dövlət "idarə edənlərin" bu gün aqibətinin, ölkələrinin istər iqtisadi, istərsə də humanitar baxımdan gəldiyi son vəziyyətin nə yerdə olduğunu açıq-aydın görürük. Başı dik dövlət idarə etmək hər kəsə nəsib olmur. Azərbaycan bu gün 300 milyonluq türk coğrafiyasının nümunəsinə çevrilib. Bu baxımdan Prezident İlham Əliyevin "Türk Dövlətləri Təşkilatı bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikirləri olduqca böyük əhəmiyyət kəsb edir. Qarşıdakı dövrə baxdığımızda isə Azərbaycanın bu, qeyri-müəyyənlik içində çırpınan siyasi natarazlıqda xüsusilə türk, Qafqaz və Anadolu coğrafiyasında ön planda olacağı aşkardır".

# "Diplomatic World Sweden" saytında "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş məqalə dərc olunub

İsveçdəki xarici səfirliklərin əməkdaşları üçün yaradılmış "Diplomatic World Sweden" saytında Azərbaycanın 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi barədə məqalə dərc edilib.




AZƏRTAC xəbər verir ki, məqalədə qərar ölkə tarixində mühüm hadisə kimi şərh olunur. Göstərilir ki, bu qərar Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və ərazi bütövlüyünün bərpa olunmasının 5 illiyi ilə üst-üstə düşür.

Bundan sonra SSRİ-dən ayrılaraq müstəqilliyini əldə edəndən sonra Azərbaycanın konstitusion inkişafına nəzər yetirilir. 1995-ci ildə ovaxtkı Prezident Heydər Əliyevin rəhbərliyi altında qəbul olunmuş indiki Konstitusiyanın ölkənin siyasi və hüquqi sistemlərinin formalaşdırılmasında vacib rol oynadığı qeyd olunur.

Həmçinin Prezident İlham Əliyevin 20 sentyabr tarixini Dövlət Suverenliyi Günü elan edən son fərmanı da xatırlanıb.

Bundan əlavə, məqalədə Azərbaycanın beynəlxalq arenada artan rolu, qlobal məsələlərdə uğurları, beynəlxalq təşəbbüslərdə fəal iştirakı barədə məlumat verilib. 2024-cü ildə Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi vurğulanıb. Bundan əvvəl də Azərbaycan BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu, mədəniyyətlərarası və dinlərarası dialoq platformaları və humanitar forumlar kimi bir sıra mühüm beynəlxalq tədbirlər təşkil etdiyi göstərilib.

Məqalədə vurğulanır ki, "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi təkcə simvolik addım deyil, həm də Azərbaycanın dövlət institutlarını möhkəmləndirməsini, ərazi bütövlüyünü qorumasını və regionda sabitliyə can atmasını ifadə edir.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa Parlamentinin qərəz dolu Cənubi Qafqaz siyasəti

### Təşkilat indi də Gürcüstanın daxili işlərinə qarışır və legitim hakimiyyətə təzyiq göstərməyə çalışır

"Avropa Parlamenti Cənubi Qafqaza olan qərəzindən əl çəkmir və müxtəlif yollarla bu regionda yerləşən ölkələrə təzyiq göstərməyə çalışır. Gürcüstana qarşı qəbul edilmiş son qətnamə də Avropa Parlamentinin öz işi ilə məşğul olmaq istəmədiyini və zamanını Gürcüstanda siyasi sabitliyin yenidən pozulmasına dəstək verməyə sərf etdiyini göstərir".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, avropalı parlamentarilər Gürcüstanın legitim hakimiyyətini tanımadıqlarını və keçmiş prezident Salome Zurabişvilini prezident kimi qəbul etdiklərini bildirərək növbəti iclaslara onu dəvət etmək istəyirlər: "Ümumiyyətlə, Avropa Parlamenti Gürcüstanın daxili işlərinə qarışır və legitim hakimiyyətə təzyiq göstərməklə özlərinin təsiri altına salınması istiqamətində hərəkətlərə davam edirlər".

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Avropa Parlamentinin qətnaməsinə münasibət bildirdiyini xatırladan siyasətçi deyib ki, o, bunun saman çöpü olduğunu və onlara 9 illik ağır rejimi xatırladır. "O dövrdə ölkəni idarə edən qüvvələr bu gün Avropa Parlamentində belə qətnamələr qəbul etdirirlər. Həm də bu, çox təəssüf doğuran hadisədir və Avropa bürokratiyasını təsdiqləyən haldır. Əslində, bununla Avropa öz nüfuzuna ciddi zərbə vurur. Görünür ki, Avropa Parlamenti Cənubi Qafqazda sabitliyi pozmaqda maraqlıdır. Azərbaycana qarşı da eyni münasibət sərgiləyərək ölkəmizin AŞPA-da iştirakını dayandırmaqla bağlı qətnamə qəbul edilmişdir. Azərbaycan nümayəndə heyəti isə onların qərarını gözləmədən qeyri-müəyyən müddətə fəaliyyətini dayandırdığını bəyan edərək AŞPA-nı tərk etdiyini bildirmişdi. Bu il də nümayəndə heyətimiz etiraz əlaməti olaraq bu qurumun iclaslarına getmədi və avropalı deputatların riyakar qərarlarına öz etirazını bildirməkdə davam etdi. Eyni məsələni Gürcüstan hakimiyyətinə qarşı da təkrarlayırlar. Təbii ki, bu məsələnin kökündə yenə eyni məqsəd dayanır: "Demokratiya pərdəsi altında öz nəzarətləri altındakı şəxsləri meydanlara çıxartmaq və etiraz aksiyalarını genişləndirməklə legitim dövlət quruluşunu devirməkdir", - deyə o əlavə edib.

A.Badamov qeyd edib ki, AP Gürcüstanda yeni parlament seçkilərinin keçirilməsini istəyir. Amma belə bir tələb suveren ölkənin daxili işlərinə qarışmaqdır. Parlament seçkiləri avropalı parlamentarilərin çağırışları ilə yox, ancaq ölkənin Konstitusiyasında göstərilən hallarda çağırıla bilər. Bu baxımdan Avropa Parlamentinin Gürcüstan hakimiyyətindən tələbi legitim hakimiyyəti uzaqlaşdırmaq və özlərinin istədikləri insanların masada oturdulması məqsədi daşıyır. Təbii ki, Gürcüstanda fəaliyyət göstərən hakimiyyət xalq tərəfindən seçilib. Avropa Parlamentinin çağırışları sadəcə onların çirkin niyyətlərinin ifadəsidir. Düzdür, Ermənistanda idarəçilik Qərbin əlinə verilib və onların çətiri altına keçib. Bu da Ermənistanın müstəqilliyini əlindən verməsi və uçuruma yuvarlanmasıdır. Azərbaycan və Gürcüstan isə özlərinin milli dövlətlərini qorumağa qadirdirlər və Qərbin istəkləri ölkələrimizdə heç vaxt reallaşmayacaq. Qoy Avropa Parlamenti öz qətnamələrini qəbul etsin və içindəki riyakarlıqları üzə çıxarsın. Amma zaman gələcək ki, onların bizə böyük ehtiyacı yaranacaq.

Deputat vurğulayıb ki, bu gün Avropa Parlamentinin özü deqradasiya olunur. Hətta ABŞ-də Trampın hakimiyyətə gəlməsi Avropa üçün ən pis xəbər olub. Bu gün Avropanın kifayət qədər həll olunmalı problemləri var. Yaxşı olar ki, avropalı parlamentarilər Gürcüstan və Azərbaycanla deyil, özlərinin daxili problemləri ilə məşğul olsunlar.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Belə bir məhkəmə bir gün Koçaryan üçün də qurulacaq

Azərbaycan Vətən müharibəsində Ermənistanı biabırçı məğlubiyyətə uğradaraq kapitulyasiya aktını imzalamağa məcbur etdi. Antiterror tədbirləri zamanı separatçıları qarşısında diz çökdürən "dəmir yumruq" sərsəm "miatsum" ideyasının tabutuna son mismarı çaldı.



Azərbaycanın bu parlaq qələbələri həm də qondarma dövlət olan Ermənistanın sabiq prezidentləri Serj Sarkisyanın və Robert Koçaryanın utancverici məğlubiyyəti kimi tarixə düşdü. İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatları zamanı məhz uşaq qatilləri olan faşist Koçaryan-Sarkisyan cütlüyünün ətrafında məğlubedilməz mif yaratdıqları orduları darmadağın edildi.

### Yalançı qəhrəmanların acı aqibəti

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2020-ci il noyabrın 23-də Ağdam Cümə məscidinin qarşısındakı çıxışında "Biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik" demişdi: "Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız".

Erməni şovinistləri tərəfindən başladılan və Qarabağın Ermənistana birləşdirilməsi kimi çirkin məqsədə xidmət edən münaqişədə məhz Koçaryan və Sarkisyan kimilərin hərbi cinayətlər törətməsi nəticəsində on minlərlə insan həyatını itirib. Azərbaycanın əraziləri işğal edilib, xalqımıza qarşı qətliamlar, soyqırımlar törədilib. Ancaq haqq-ədalət sonda öz yerini tapıb və İkinci Qarabağ müharibəsində Koçaryan-Sarkisyan cütlüyü bir daha özünə gələ bilməyəcəyi ağır məğlubiyyətə düçar edilib.

Bu qaniçənlərin hər ikisi torpaqlarımızı işğal etmələri, azərbaycanlılara qarşı tükürpədici cinayət əməlləri törətmələri ilə həyasızcasına qürrələnirdilər.

Məsələn, Robert Koçaryan 2003-cü ildə AŞPA-da etdiyi çıxışında ermənilərlə azərbaycanlıların etnik uyuşmazlığı barədə bəyanat vermişdi. Bir ildən sonra sözügedən qurumda özünün faşist xislətini bir daha nümayiş etdirmişdi. Belə ki, həmin zaman həm çıxışında, həm də suallara cavabında Koçaryan daxili hisslərini büruzə verməklə özünü ifşa etmiş və hərbi əməliyyatlarda iştirakı ilə fəxr etdiyini demişdi. Bütün bunlar isə Koçaryanın irqçi, müharibə canisi olduğunu və əllərini yüzlərlə azərbaycanlının qanına batırdığının öz dili ilə etirafı idi. Lakin Koçaryan və Sarkisyan İkinci Qarabağ savaşı zamanı müharibə meydanından qaçaraq zorla canlarını qurtara bildilər.

Bu baxımdan müharibədə uğradıldığı utancverici məğlubiyyəti hələ də həzm edə bilməyən Ermənistanın eks-faşist rəhbəri Koçaryanın vaxtaşırı ölkəmizlə bağlı sərsəmləmələr etməsi heç də təəccüblü görünmür.

### Rüsvayçı məğlubiyyət

Bildirək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin, eləcə də Ruben Vardanyanın barəsində olan cinayət işləri üzrə məhkəmə prosesləri davam etdirilir.

Bu günlərdə cani Koçaryan mətbuat konfransı keçirərək xalqımıza qarşı saysız cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslər üzərində Bakıda keçirilən məhkəməyə "münasibət" bildirib. O, mətbuat konfransında etdiyi çərənləmələrlə guya öz aləmində sözügedən məhkəməyə dil uzatmaq istəyib. Ancaq Ermənistanda məhkəmə sisteminin hansı bərbad vəziyyətdə olmasını, müstəqil olmayan məhkəmələrin sifarişlə işləmələrini elə həmin qondarma dövlətin siyasi şərhçiləri vaxtaşırı faktlarla ortaya qoyurlar və biz də bunları mediadan izləyirik.

Həmçinin Koçaryan konfransdakı sözləri ilə uğradıqları biabırçı məğlubiyyətlərin səbəblərini Paşinyan hakimiyyətinin üzərinə yıxmağa çalışıb. Halbuki, hiyləgər Koçaryanın özü də yaxşı bilir ki, Azərbaycan bu savaşda onun və S.Sarkisyanın qurduqları ordunu məğlubiyyətə uğradıb.

Koçaryanın Bakıda keçirilən və ədalətin qələbəsi sayılan məhkəmə ilə bağlı dediyi sözlər onun rüsvayçı məğlubiyyətdən doğan quyruq acısından başqa bir şey deyil. Axı bu cani iki yüz il əvvəl faşist xislətli erməni babaları tərəfindən ortaya atılan qanlı planları xüsusi canfəşanlıqla gerçəyə çevirməyə çalışsa da, bunu bacarmayıb və hər şey məhv olub. Faşist Koçaryana isə indi sadəcə ədalət məhkəməsində vaxtilə törətdikləri cinayət əməllərinə görə mühakimə edilən uşaq qatilləri arayik-kimilərin vəziyyətini dişi bağırsağını kəsə-kəsə seyr etmək, bir də arabir sərsəmləmək qalıb...

Belə bir məhkəmə isə bir gün Koçaryan üçün də mütləq qurulacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Ermənistan militarizasiya siyasəti həyata keçirir

### İrəvanın müharibəyə başlaması öz fəlakətinə səbəb ola bilər

"Azərbaycan-Ermənistan arasında bu günə qədər sülh müqaviləsi bağlanmayıbsa, biz hələ də təhlükəsizlik və sabitlikdən danışa bilmərik. Regionda sabitliyin təmin olunması üçün Ermənistanla sülh sazişinin bağlanması vacibdir. Amma Ermənistan bu fonda hərbi büdcəsini artırır, revanş addımlara gedir, Avropa İttifaqı missiyasının müddətini uzatdırır. Digər ölkələrdən silah-sursat alaraq militarizasiya siyasəti həyata keçirir".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib. O bildirib ki, 44 günlük Vətən müharibəsindən əvvəl də, müharibə dönəmində də Azərbaycan Ermənistanı dəfələrlə danışıqlar yoluna çağırıb. Müharibədən sonrakı dövrdə də sülh əli uzadan Azərbaycan olub. Sülh müqaviləsi şərtlərini hazırlayaraq qarşı tərəfə təqdim edib. Ermənistan isə üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərdən yayınaraq, özünə dəstək axtararaq yenidən müharibəyə hazırlaşır.

Deputat qeyd edib ki, Ermənistanın müharibəyə başlaması öz fəlakətinə səbəb ola bilər. Azərbaycan 1990-cı illərdəki dövlət deyil. Bu gün dünyada tanınan, iqtisadiyyatı, hərbi gücü ilə öndə olan ölkələrdəndir. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan həm bölgədə, həm də dünyada söz sahibinə çevrilib.

Son dövrlərdə Ermənistanla sərhəddə delimitasiya ve demarkasiya prosesinin baş tutduğunu xatırladan C.Paşazadə deyib ki, bütün bunlar sülh gündəliyində müəyyən irəliləyişlərin olduğunu göstərsə də, amma Ermənistan yenidən silahlanaraq üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırır: "Ermənistan indiki vəziyyətdə bir daha müharibəyə cəhd edərsə, faciə ilə üzləşəcək. Azərbaycan öz torpaqlarını işğaldan azad edib. Kiminsə torpağına da heç zaman iddiamız olmayıb. Bu gün iki ölkə arasında yenidən müharibə olsa, Azərbaycan yenidən qalib gələcək. Ermənistan isə bir dövlət kimi xəritədən silinmə təhlükəsi ilə üz-üzə qalacaq. Bunun da günahı özündə olacaq".

Deputatın fikrincə, Ermənistan rəhbərliyi qorxudan belə bir riskə getməz və getməməlidir: "Buna Ermənistanın nə iqtisadi, nə də siyasi gücü çatar. Xarici ölkələrdən müəyyən dəstəklər göstərilməsinə baxmayaraq, Ermənistan yenə döyüş meydanında tək qalacaq. Belə dəstəklər münaqişələrin qızışdırılması üçün müxtəlif ölkələrə göstərilir, amma nəticələri göz önündədir. Ermənistan da kimlərəsə arxalanaraq revanş addımlar atmamalı, reallıqları dərk edərək Azərbaycanla sülh sazişi bağlamaqda hamıdan çox maraqlı olmalıdır".

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

## Fransa tarixi haqsızlıq qarşısında utanmalıdır

### Törətdiyi soyqırımlarına görə bu ölkə lənətlənir

Tarix göstərir ki, müstəmləkəçilik siyasəti yürüdən, qan və ölüm qoxuyan imperialist ənənələrindən əl çəkməyən dövlətlər nə qədər güclü, qüdrətli olsalar da, gec-tez çökməyə məhkumdurlar. Bunu Fransanın nümunəsində aydın görmək mümkündür. Müstəmləkəçilik siyasətindən ikiəlli yapışan rəsmi Paris beynəlxalq aləmdə nüfuzunu getdikcə itirməkdədir. Makron hakimiyyətinin apardığı uğursuz və çirkin siyasət bu ölkəni bataqlığa sürükləyir.

Afrika ölkələri tutarlı faktlarla rəsmi Parisin iç üzünü açıb onun bütün eybəcərliklərini dünyaya göstərir. Fransanın Afrika ölkələrində kolonialist siyasət yürütdüyünü təkzib olunmaz fakt və dəlillərlə sübuta yetirir. Ötən il Fransa silahlı birləşmələri artıq bir neçə Afrika ölkəsindən çıxarılıb. Uzun illərdən bəri soyqırıma məruz qoyulmuş, milli sərvətləri talan olunmuş ölkələr bütün bunlardan təngə gəlib artıq dözümsüzlük nümayiş etdirir, Parisə qarşı açıq etiraz səslərini ucaldırlar.

Xüsusilə qeyd olunmalıdır ki, bu işdə Azərbaycanın da göstərdiyi xidmətlər əvəzsizdir. Daim insanların azadlığına böyük töhfələr verən ölkəmizin təşəbbüsü ilə başlanan Bakı Təşəbbüs Qrupu hərəkatı bütün dünyada Fransa kolonializmini ifşa edərək qətiyyətli sözünü deyir.

Tarixdən məlumdur ki, Əlcəzair də Fransa işğalına, soyqırımına məruz qalan ölkələrdən biridir. Xatırladaq ki, 2022-ci ildə bu ölkədə keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Sammitinə fəxri qonaq qismində dəvət almış Prezident İlham Əliyev səfər çərçivəsində Əlcəzair şəhərində Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət etmişdi.

İşğalçı Fransanın qanlı izləri Afrikanın bir çox ölkəsində olduğu kimi, Əlcəzairdə də qalmaqdadır. 1984-cü ildə açılmış Milli Mücahidlər Muzeyindəki kolleksiyaların çox hissəsi ölkənin Fransa tərəfindən işğalına və 1830-1962-ci illər ərzində Əlcəzair xalqının rəsmi Parisin müstəmləkəçiliyinə qarşı apardığı mübarizəyə həsr olunub. Əlcəzair xalqının azadlıq mübarizəsi böyük sınaqlardan keçib, yüz minlərlə qurbanın verilməsi ilə nəticələnib. Bir çox tarixçi baş verən hadisələrin miqyasının genişliyinə, insan ölümünün çoxluğuna görə Fransanın Əlcəzairdə törətdiyi soyqırımını azadlıq mübarizəsini boğmağa qarşı yönəldilmiş tarixi və bəşəri cinayət adlandırır. Tarixi faktlar sübut edir ki, fransızlar 1830-1962-ci illərdəki işğal dövründə 1,5 milyondan artıq insanı amansızcasına qətlə yetiriblər.

Fransanın törətdiyi və dünyanı sarsıdan daha bir qanlı faciə 1961-ci ilin oktyabrında baş verib. Həmin tarixdə on minlərlə əlcəzairli Fransanın ölkələrindəki işğalına etiraz etmək üçün Parisin küçələrində nümayişə çıxıb. Fransa etirazçılara qarşı dünyanın heç bir ölkəsində görünməyən güc tətbiq edib, amansızlıq göstərib. Həmin hadisə zamanı Fransa polislərinin açdığı həm atəş, həm də etirazçıları vəhşiliklə sıxışdırıb Sena çayına tökməsi nəticəsində 1500-ə qədər əlcəzairli böyük qəddarlıqla qətlə yetirilib. Min nəfərdən çox etirazçı həbs olunaraq ağır cəzalara məhkum edilib. 1961-ci ilin oktyabrında baş verən bu dəhşət püskürən qanlı hadisə tarixə "Sena qətliamı" kimi düşüb.

Rəsmi Paris Əlcəzairi yalnız soyqırımına məruz qoymayıb. İşğalçı Fransa Əlcəzairi ən təhlükəli təcrübələrinin sınaq meydanına çevirib. Bu, ölkənin ekologiyasına da ağır zərbələr vurub. Ötən illər ərzində Fransa Əlcəzairdə 17 atom bombasını sınaqdan keçirib. Parisin 1960-1978-ci illərdə Əlcəzairdə sınaqdan keçirdiyi atom bombalarının radioaktiv təsiri hələ də bu ölkəyə zərər verməkdə davam edir. 1966-cı ildə Əlcəzair xalqının və dünyanın etirazı nəticəsində Fransa bir daha bu ölkədə nüvə sınaqları keçirməyəcəyini bildirib. Amma rəsmi Paris verdiyi vədə əməl etməyib. 1997-ci ildə məlum olub ki, Fransa Əlcəzairdə 1978-ci ilə qədər gizli şəkildə nüvə sınaqları keçirib.

Son aylar Fransa və Əlcəzair arasında siyasi gərginlik pik həddə çatıb. Neçə vaxtdan bəri başlayan bu gərginlik diplomatik böhran olmaqla



yanaşı, həm də Makron hakimiyyətinin getdikcə zəiflədiyini, dövlət başçısının nüfuzunun aşağı düşdüyünü göstərir. Aydın görünən odur ki, Makron prezident kimi getdikcə xalqının dəstəyini itirir. Günlər keçdikcə onun reytinqi aşağı düşür, sosial gərginlik artır, iqtisadi problemlər dərinləşir. Bütün bunlar isə insanları Parisin küçələrinə çıxarır, etiraz dalğası getdikcə genişlənir, hakimiyyətin çökmə prosesini sürətləndirir.

Ölkənin belə ağır bir vəziyyətində rəsmi Paris hiyləyə əl atır, ictimai rəyi yayındırmaq üçün Əlcəzairi siyasi hədəfə çevirir, bir növ boş hay-küylə fransız xalqının başını qatır. Müşahidəçilər haqlı olaraq Yelisey Sarayının Əlcəzairə yönəltdiyi hücumların nə siyasi, nə də diplomatik baxımdan ona hansısa üstünlük gətirəcəyinə ümid etmirlər. Əksinə, bu çirkin siyasətin Makron rejiminin beynəlxalq aləmdə daha da gözdən düşməsinə və ölkədəki böhranın daha da dərinləşməsinə gətirib çıxaracağını vurğulayırlar.

Məşhur səyyahlar Parisi başdan-ayağa gəzib-dolaşdıqdan sonra bu şəhəri muzeylər diyarı adlandırıblar. Həqiqətən də bu şəhərdə muzeylər çoxdur. Amma həmin muzeylərin bəziləri fransızların yüksək bəşəri mədəniyyətə malik olduqlarını deyil, tarixən necə qaniçən olduqlarını göstərir. Fransanı dünyaya əzazil kimi göstərən belə muzeylərdən biri də İnsan Muzeyidir. 1887-ci ildən 1937-ci ilədək Etnoqrafiya Muzeyi kimi fəaliyyət göstərən muzeydə 18 mindən artıq insan kəlləsi nümayiş etdirilib. Bu kəllələrin arasında Fransanın işğalına qarşı döyüşmüş Əlcəzair xalqının cəsur övladlarınınkı da var. Fransızlar muzeydə öldürülmüş döyüşçülərin və mülki əhalinin kəsilmiş başlarını və kəllə sümüklərini nümayiş etdirməklə həm də azadlıq istəyən Afrika xalqlarının gözlərini qorxutmaq məqsədi güdürlər.

Bu günlərdə Fransada yaşayan əlcəzairlilər mitinq keçirərək hakimiyyətdən keçmişdə törətdiyi müharibə cinayətlərini rəsmi şəkildə tanımasını tələb ediblər. Həmçinin əlcəzairli döyüşçülərin Fransadakı muzeylərdə saxlanılan skeletlərinin, sümüklərinin geri qaytarılmasını istəyirlər. Parisdə yaşayan əlcəzairli həkim, tibb elmləri doktoru Attar Camel Fransa hökümətinə etirazını bu sözlərlə bildirib: "Biz istəyirik ki, Fransa dövləti muzeylərdə saxladığı Əlcəzairin şəhid oğullarının kəllələrini vətənlərinə qaytarsın. Bu tarixi haqsızlıq qarşısında Fransa utanmalıdır. Müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərin kəllələrini muzey eksponatı kimi nümayiş etdirmək insanlığa sığmayan bir rəzalətdir".

Yelisey Sarayı bütün vasitələrlə Əlcəzairdə törətdiyi qanlı hadisələri, soyqırımları müxtəlif bəhanələr altında gizlətməyə, ört-basdır etməyə çalışır. Amma tarix və son zamanlar baş verən hadisələr bir daha göstərir ki, Əlcəzair xalqı bu faciəni unutmayıb və heç vaxt da unutmayacaq. Əlcəzairdə və başqa Afrika ölkələrində törətdiyi qanlı hadisələr Fransanın tarixində əbədi olaraq qara ləkə kimi qalacaq.

Təəssüflər olsun ki, Afrika ölkələrində, həmçinin başqa yerlərdə terror törədən Fransa dünyada terrorçu dövlət kimi tanınmayıb. Buna görə də Fransa terror və işğal fəaliyyətini dayanmadan genişləndirir. Bu ölkənin ermənilərin yanında dayanması da terrorçu xislətindən irəli gəlir. Afrika ölkələrində dişinə şirə dəymiş Fransa hökuməti işğalçılıq planlarını həyata keçirmək üçün Cənubi Qafqazda da möhkəmlənmək, Ermənistanı öz geosiyasi alətinə çevirmək üçün ciddi cəhdlər göstərir. Amma rəsmi Parisin bu cəhdləri çox əbəsdir. Çünki gündən-günə güclənən, beynəlxalq aləmdə nüfuzu artan, dünyada söz sahibinə çevrilən qüdrətli Azərbaycan bunun qarşısını qətiyyətlə alıb və həmişə də alacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***



## "Böyük qayıdış" proqramı sürətlə icra olunur



# Böyük Qayıdışa dair I Dövlət Proqramının 2024-cü il üzrə icrasının monitorinqi başa çatıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı 2024-cü il üzrə monitorinq prosesini yekunlaşdırıb.

İİTKM-dən AZƏRTAC-a bildirilib ki, dövlət proqramının icrasının monitorinq nəticələri barədə məlumat verən İİTKM-in Sahəvi proqramların monitorinqi sektorunun müdiri Elşən Yusifli bildirib ki, tədbirlər planı çərçivəsində "Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili" prioriteti üzrə 2024-cü ilin sonuna 62 min hektardan artıq ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. 2024-cü il ərzində 1400-dən artıq ailə Laçın, Cəbrayıl, Füzuli, Şuşa və Xocalı şəhərləri, Laçın rayonunun Zabux və Sus kəndləri, Xocalı rayonunun Ballıca kəndinə köçürülüb.

Hesabat dövrü ərzində işğaldan azad edilmiş ərazilərdə 6 ümumtəhsil müəssisəsi fəaliyyətə başlayıb, 3 məktəbəqədər təhsil müəssisəsinin fəaliyyəti təmin olunub. Yaşayış məntəqələrində əlçatan və keyfiyyətli tibb xidmətləri infrastrukturunun qurulması istiqamətində də işlər davam etdirilib. Ərazilərin yüksəkgərginlikli elektrik enerjisi ilə təchizatı üçün 739 kilometr 110 kilovatlıq, 262 kilometr 330 kilovatlıq uzunluqda elektrik verilişi xətləri çəkilib. 11 ədəd 110 kilovatlıq, 1 ədəd 330 kilovatlıq yarımstansiya tikilib.

İİTKM-in sektor müdiri əlavə edib ki, geri qayıdan əhali üçün bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanını genişləndirmək məqsədilə regionda fəaliyyət göstərən bank filiallarının sayı ümumilikdə 6-ya (Laçın, Cəbrayıl, Füzuli, Zəngilan rayonları və Xankəndi şəhəri olmaqla) çatdırılıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə azad edilmiş ərazilərdə banklar və "Azərpoçt" tərəfindən quraşdırılmış POS-terminalların sayı 904 ədəd (Ağdam, Füzuli, Şuşa, Xocavənd, Xocalı, Zəngilan, Laçın, Cəbrayıl, Qubadlı, Kəlbəcər rayonları və Xankəndi şəhəri üzrə) təşkil edib. Bununla yanaşı, əhalinin dayanıqlı məskunlaşması və məşğulluğunun təmin edilməsi üzrə tədbirlər həyata keçirilib, ümumilikdə 40 minə yaxın insanın işğaldan azad edilmiş ərazilərdə yaşayışı və fəaliyyəti təmin edilib.

Elşən Yusifli bildirib ki, dövlət proqramı çərçivəsində sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində zəmanət-subsidiya mexanizmi ilə yanaşı, güzəştli kredit mexanizmi ilə də dəstək tədbirləri davam etdirilib. Həmçinin Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə 400-dən artıq müəssisənin fəaliyyəti təmin edilib. Ağdam Sənaye Parkındakı müəssisələrdə istehsal olunan məhsulların ixracına başlanılıb.

Yaşayış məntəqələrində mədəniyyət tədbirlərinin keçirilməsi və mədəni irs obyektlərinin bərpası istiqamətində ötən il VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının açılış mərasimi və Vaqif Poeziya Günləri keçirilib. Prezident İlham Əliyevin iştirakı ilə Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışı olub. "Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi"nin inşası başa çatdırılaraq, Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə açılış mərasimi baş tutub.

Dövlət proqramının hesabat dövrü üzrə monitorinqi Azərbaycan Prezidentinin 2021-ci il 6 mart tarixli müvafiq fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası" tələblərinə uyğun olaraq, icraçı orqanlar (qurumlar) ilə yaxından müzakirələr aparılmaqla elektron portal vasitəsilə (https://boyukqayidish.gov.az) şəffaflıq, hesabatlılıq və səmərəlilik prinsipləri əsasında həyata keçirilib.

# "İnanıram ki, o yerlərə qayıdacağıq..."

Azərbaycanlıların 1987-1991-ci illərdə Qərbi Azərbaycanda deportasiyaya məruz qaldığı kəndlərdən biri Basarkeçər rayonunun Yuxarı Şorca kəndidir. Burada sonuncu etnik təmizləmə prosesinə qədər yaşamış ailələrdən birinin nümayəndəsi Nəsib Haqverdiyev AZƏRTAC-a müsahibəsində doğma kəndləri, azərbaycanlıların oradakı həyatı, öz torpaqlarından qovularaq çıxarılmaları ilə bağlı acı xatirələrini deyib.

1958-ci ildə Yuxarı Şorca kəndində anadan olan Nəsib Haqverdiyev orta məktəbi bitirdikdən sonra İrəvan Azərbaycan Kənd Təsərrüfatı Texnikumunun Mexanizasiya şöbəsində təhsil alıb. 1988-ci ilə qədər kənddə təsərrüfat briqadiri işləyib. Deyir ki, Yuxarı Şorca kəndi Göyçə mahalının ən səfalı yerində yerləşir: "Kəndimiz Kəlbəcər rayonu ilə həmsərhəddir. Dəniz səviyyəsindən iki min metr yüksəklikdədir. Füsunkar təbiəti ilə seçilən Yuxarı Şorcanın bütün fəsilləri gözəl idi. Kəndimizdə "Hacı Məhərrəm", "Tellinin suyu", "Sarının qabağı", "Xoruz qayası", "Hacı dərəsi" kimi yer adları vardı. Yer-yurd adları bir daha sübut edir ki, o torpaqlar türk yurdu olub. Qayaların üzərində sanki bir örtük vardı. Çox maraqlı idi, ona su vurub əlimizə sürtürdük, xına kimi qırmızı olurdu. O qayalara, daşlara adımızı yazırdıq..."

Nəsib Haqverdiyev bildirir ki, Göyçənin Basarkeçer rayonu azərbaycanlıların qədimdən məskən saldıqları yaşayış yerlərindən biri olub: "Ermənilər yalnız rayon mərkəzində və bir neçə kənddə yaşayırdı. Rayonun bütün kəndlərinin əhalisi azərbaycanlılardan ibarət idi. Bizim kəndimizdə heyvandarlıq, kartofçuluq, xalçaçılıq, arıçılıq inkişaf etmişdi. Firavan yaşayırdıq. Əfsuslar olsun ki, o gözəl torpaqlarda yaşamağa imkan vermədilər. 1987-ci ildən azərbaycanlılara qarşı təzyiqlər başlandı. Rayon mərkəzinə buraxmırdılar, mağazaya çörək, digər ərzaqlar gətirilmirdi. Rayon mərkəzi ilə gediş-gəliş kəsildi. Hər şey çətinləşdi. O dövrdə kəndlərdə xəstəxana yox idi. Xəstələri rayon mərkəzinə həkimə apara bilmirdik. Rayon Partiya Komitəsinin birinci katibi kəndə gəldi, dedi ki, köçüb gedək. Camaatın köçməsi üçün şərait də yaratmadılar. Beləcə, 1988-ci il noyabrın 26-da min bir əziyyətlə dağları aşıb Kəlbəcərə, oradan da Tərtər rayonuna gəldik. Kənddən çıxan vaxt anam çörək bişirmək üçün xəmir hazırlayırdı. Təsəvvür edin, bizi elə tələsik çıxardılar ki, xəmir belə ləyəndə qaldı. Qapıları bağlayıb gəldik. Rəhmətlik anam ölənə qədər qapıların açarını özündə saxladı".

# İşğaldan azad olunmuş ərazilərimiz geniş tikinti meydanına çevrilib

Yolumuz Qarabağadır. Yenidən qurulan, gözəlləşən, bugünkü büsatı ilə dostu sevindirib, düşmənin gözdağına çevrilən cənnət Qarabağa!

Qarabağın hər kəndində, hər qarış torpağında həyat qaynayır. Yurdlar yenidən cana gəlir, şəhərlərə, kəndlərə həyat verilir...

Bərdədən Ağdama kimi uzanan magistral yolun kənarında erməni qəsbkarlarının "keçilməz" sədləri, "yaratdıqları" blindajları lənətləyib, qəhrəman Azərbaycan əsgərinə, ordumuzu zəfərə aparan Ali Baş Komandana əhsən deyib alqışlayırıq.

Ulu Dədə Qorqud deyirdi ki, torpağı əkib-becərmirsənsə, qorumağa dəyməz, qorumursansa, əkib-becərməyə dəyməz.

Yolboyu yeni salınmış bağlar, yeni tikilib boy-boya düzülən evlər insana fərəh gətirir. İşğaldan azad olunmuş ərazilərə yaxınlaşdıqca Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Qarabağda görülən nəhəng quruculuq işlərinin panoraması gözümüz önündə canlanır. Bundan gözəl Azərbaycan dövlətinin gücünü, qüdrətini əks etdirən nəyi isə təsəvvür etmək olmaz.


























## Ağdamın ağ günləri başlayır

Kənardan baxmaqla Ağdam şəhərində aparılan quruculuq prosesini, infrastruktur layihələrinin həyata keçirilməsini açıq-aydın görmək mümkündür. Xatırladaq ki, 30 ilə yaxın müddətdə Ağdam rayonunun işğal altında olan ərazilərinin bütün sərvətləri talan edilib. Rayon ərazisində olan 3006 hektar meşə sahəsi, 64,863 min kubmetr mişar daşı yatağı, 140,464 min ton Çobandağ əhəngdaşı yatağı, 44,708 min ton Boyəhmədli və 25197 min ton Şorbulaq gil yataqları erməni vandallarının əsarəti altına düşmüşdü. Təbiət abidəsi kimi qorunan Ağdam şəhərində yaşı 150-250 il olan 14, Boyəhmədli kəndi ətrafında isə yaşı 400 ilə çatan 71 ədəd Şərq çinarı məhv edilib.

Bu gün Ağdamda "Böyük Qayıdış" proqramı çərçivəsində böyük layihələr həyata keçirilir, abadlıq-quruculuq işləri görülür. Bircə faktı qeyd edək ki, Prezident İlham Əliyev 4 ildə 10 dəfə Ağdama səfər edib. Prezidentimizin Ağdama indiyədək etdiyi 9 səfər yeni obyektlərin təməllərinin qoyulması və açılışı ilə yaddaşlara həkk olunub.

Ağdam azad edildikdən 3 gün sonra - noyabrın 23-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Ağdam şəhərinə səfəri zamanı dediyi "... Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik" sözləri ağdamlılarda böyük ümid yaratdı.

Beləliklə, işğaldan azad edilən Ağdamda dərhal böyük tikinti və quruculuq işlərinə start verildi. Ərazisinin çox hissəsi minalı sahə olsa da, təmizləmə işləri aparılmaqla yanaşı, şəhərin sosial xəritəsi tamamilə yeni və müasir şəkildə qurulmağa, Ağdam şəhərində bir sıra mühüm infrastruktur layihələri icra olunmağa başlandı. 2021-ci il mayın 28-də Prezident İlham Əliyevə Ağdam şəhərinin Baş planı təqdim olunub və həmin gün Ağdam şəhərinin bərpasının təməl daşı qoyulub. Zəfər və İşğal muzeylərinin, Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək alternativ və bərpaolunan enerji mənbələri ilə qidalanan işıq dirəklərinin, digər qurğuların və xalça istehsalı müəssisələrinin, "Park Forest Hotel Ağdam" mehmanxanasının və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin, 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının, dəmir yolu vağzalının tikintisinə başlanılıb.

Ağdamda olarkən Dəmir yolu və avtovağzal kompleksində aparılan işlərə şahidlik etdik. Zirzəmi, üç mərtəbə və terrasdan ibarət olmaqla layihələndirilən kompleks vahid nəqliyyat qovşağı şəklində milli arxitektura üslubunda dizayn edilir.

Həyata keçirilən infrastruktur layihələri içərisində yolların yenidən qurulması xüsusi yer tutur. Ötən dövrdə uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolu istifadəyə verilib. Bərdədən Ağdam şəhərinədək 47,1 kilometr uzunluğunda olan dəmir yolu xətti çəkilib. Uzunluğu 64,8 kilometr olan Ağdam-Füzuli avtomobil yolunun inşası yekunlaşmaq üzrədir. Hazırda Ağdam-Hindarx-Ağcabədi və Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yollarının tikintisi davam etdirilir.

Yolun lap yaxınlığında Qarabağ xanlığının banisi Pənahəli xanın bərpa olunan sarayının yerləşdiyi İmarət Kompleksi göz oxşayır.

Ağdam şəhərinin Baş planına əsasən, şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Magistral şəhər yollarının uzunluğu 17,5, ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

Rayonun dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə hər biri 110/35/10 kilovoltluq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyaları, həmçinin "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib. Paralel olaraq fiber-optik kabellər çəkilib və bu da Ağdam şəhərinin gələcəkdə yüksəksürətli internet ilə təchiz olunmasına şərait yaradacaq. Prezident İlham Əliyev ötən dörd ildə Ağdama səfərləri zamanı yaşayış məhəllələrinin, sənaye parkının, 1 saylı orta məktəbin, xəstəxananın, şəhər mərkəzi parkının, Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin, "İmarət" stadionunun, Ağdam Muğam Mərkəzinin, inzibati binanın, "Azərişıq" ASC-nin Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Xıdırlı, Kəngərli, Sarıcalı, Qiyaslı, Salahlı Kəngərli, Baş Qərvənd, Tağıbəyli, Güllücə, Nəmirli, Şotlanlı, Eyvazxanbəyli kəndlərinin, Atçılıq Nəsilartırma Mərkəzinin və digər obyektlərin təməlini qoyub. Artıq Ağdamda Konfrans Mərkəzinin, "Aghdam City Hotel"in tikintisi, Cümə məscidinin, İmarət Kompleksinin bərpası başa çatdırılaraq istifadəyə verilib.

Ağdam şəhərində yaşayış məhəllələrinin, həmçinin Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərində tikinti işləri davam etdirilir. Sarıcalı kəndində 203, Kəngərli kəndində 292, Xıdırlı kəndində isə 719 ev inşa olunur. Hər 3 kənddə evlərlə yanaşı, məktəblər, uşaq bağçaları, klub icma mərkəzləri, bayraq meydanı, bazar kompleksləri, məişət xidməti obyektləri, ailə sağlamlıq mərkəzləri, inzibati binalar və digər obyektlərin də tikintisi aparılır. Kəndlərdə alternativ enerji mənbələrindən istifadə olunacaq, mərkəzi kommunikasiya sistemi qurulacaq. Bu gün Ağdama gələnlər genişmiqyaslı tikinti-quruculuq işlərinin şahidi olurlar.

Dünən dövlət başçısı İlham Əliyev Ağdama növbəti 10-cu səfərini etdi. Səfər zamanı Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva "Hilton Garden İnn" hotelində və Ağdam şəhərində aparılan tikinti işləri ilə tanış oldular.

## Şuşa bir aləmdir

Azərbaycanın tarixi-mədəni, dini irsinin çox böyük bir hissəsi Qarabağın payına düşür. İşğaldan azad edilən Qarabağda və ətraf rayonlarda minlərlə maddi-mədəni, dini irs nümunəmiz var ki, onların da çox böyük bir hissəsi işğal dövründə erməni vandalizminə məruz qalıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın göstərişi ilə Almaniyadan gəlmiş bərpaçı mütəxəssislər Ağdamın Cümə, Qiyaslı və Şuşanın Yuxarı və Aşağı Gövhər ağa, Saatlı məscidlərində bərpa işlərini tamamlayıblar. "Qarabağ" hoteli, Bülbülün ev-muzeyi və büstü, Molla Pənah Vaqifin məqbərəsi bərpa olunub. Dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin və Bülbülün ev-muzeyləri açılıb, heykəlləri qoyulub. Şəhərdə "Xarıbülbül" hoteli istifadəyə verilib. Yenidənqurma işlərinə 2024-cü ilin may ayında başlanan Bayraq meydanında fasiləsiz iş gedir. Şuşa şəhərinin Baş planına uyğun olaraq Bayraq meydanının ətrafında Zəfər muzeyinin, çoxfunksiyalı konsert-tamaşa zalının və alış-veriş mərkəzinin də inşa edilməsi nəzərdə tutulur.

Şuşa şəhərində yerləşən malikanə tipli tarixi yaşayış evi olan Mehmandarovların malikanə kompleksi Azərbaycanın XVIII əsr mülki memarlığının ən parlaq nümunələrindən biridir. Bu maddi-mədəniyyət tikilisi də erməni işğalı dövründə ciddi dağıntılara məruz qalmışdır. Artıq abidənin əvvəlki görkəmi özünə qaytarılıb. Malikanədə ev sahibinin məşğuliyyətini, marağını nümayiş etdirən əşyalarla təchiz olunmuş kabinetin, qonaqların qəbulu üçün nəzərdə tutulan evin ən təmtəraqlı otağı sayılan və bir çox halda taxta dekorativ panellər və parça divar kağızları ilə bəzədilən qonaq, yemək və yataq otaqları əvvəlki görkəminə qaytarılıb.

Malikanədəki otaqları milli əşyalarla yanaşı, avropasayağı məişət əşyaları da bəzəyir. Otaqlar dövrün eksponatları ilə XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid interyer qaydalarına uyğun tərtib edilib. Bura gələn ziyarətçilər özünü XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşamış azərbaycanlı zadəganın evindəki kimi hiss edirlər. Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə edilib.

Şuşada ilkin bərpa olunan binalardan biri də Qazançı kilsəsidir. Bütün digər tarix-mədəniyyət abidələrimiz kimi, Qazançı kilsəsinin də ilkin bədii-estetik görkəminə uyğun bərpası davam edir. Hazırlanan bərpa layihəsi abidənin XIX əsrdəki ilkin-orijinal görkəminə qaytarılmasına imkan verir.

Şuşa şəhərində "Şirin su" hamamında, Köçərli küçəsi, 6 ünvanındakı yaşayış binasında, Sadıqcanın, Mir Möhsün Nəvvabın evlərində bərpa işləri başa çatıb.

Bu gün işğaldan azad olunan ərazilərdə genişmiqyaslı quruculuq işləri sürətlə davam edir.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# ABŞ-nin Mayami-Deyd dairəsində 26 fevral tarixi Xocalının Anım Günü elan edilib




ABŞ-nin Florida ştatının Mayami-Deyd dairəsində 2025-ci ilin 26 fevral tarixi Xocalının Anım Günü elan edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu barədə Mayami-Deyd dairəsinin meri Daniella Levin Kava və Komissarlar Şurasının sədri Entoni Rodriges Bəyannamə imzalayıblar.

Bəyannamədə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda 600-dən çox günahsız insanın, mülki şəxsin amansızlıqla qətlə yetirildiyi qeyd olunub. Beynəlxalq insan haqları təşkilatı olan "Human Rights Watch"un (HRW) Xocalı soyqırımını regionda baş verən ən dəhşətli qətliam adlandırdığı vurğulanıb. Dairə sakinləri Xocalı soyqırımının 33-cü ildönümünü - anım gününü xüsusi ehtiramla qeyd etməyə dəvət olunub.

Sənəd Floridada fəaliyyət göstərən Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyasının təşəbbüsü ilə imzalanıb və Assosiasiyanın rəhbəri Töhfə Eminovaya təqdim edilib.

2006-cı ildə Mayamidə yaradılan Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyası (AAMA) ölkəmizin tarixinin, mədəniyyətinin və həqiqətlərinin ABŞ-də təbliği, Amerika və Azərbaycan gəncləri arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərir.

Qeyd edək ki, diaspor təşkilatlarının və fəallarının gördüyü belə işlər Azərbaycan reallıqlarının, tarixi həqiqətlərinin beynəlxalq ictimaiyyətə düzgün çatdırılması baxımından olduqca faydalıdır.

# Türkiyədə Xocalı soyqırımına həsr olunmuş konfrans keçirilib




İstanbulda Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş "Ulu Öndər Heydər Əliyevin dünyada tanıtdığı Xocalı soyqırımı" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Türk Dəniz və Qlobal Strategiyalar Mərkəzinin (DEGS) təşkilatçılığı ilə təşkil olunan konfransda əvvəlcə şəhidlərimizin ruhu yad edilib, Türkiyə və Azərbaycanın Dövlət himnləri səsləndirilib.

Tədbirdə Xocalı soyqırımı barədə dolğun məlumat verilib, bu faciə dünyanın ən dəhşətli qətliamlarından biri kimi qiymətləndirilib. Soyqırımının baş verməsi, faciə qurbanlarının amansızlıqla qətlə yetirilməsi, itkin düşən yüzlərlə sakinin naməlum qalan aqibəti, Ulu Öndər Heydər Əliyevin Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması istiqamətindəki siyasi fəaliyyətləri, Prezident İlham Əliyevin komandanlığı altında Azərbaycan Ordusu və xalqının şücaəti nəticəsində Qarabağ torpaqlarının işğaldan azad olunması, hazırda bu bölgələrdə dövlətimiz tərəfindən aparılan bərpa-yenidənqurma işləri, soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıtması, eləcə də iki ölkə arasındakı qardaşlıq münasibətləri barədə iştirakçılara ətraflı məlumat verilib.

Sonra Qafqaz üzrə hərbi ekspert, ehtiyatda olan polkovnik, Qarabağ qazisi Akif Qasımov Xocalı soyqırımının törədilməsi və bu günə qədər törədilən bu kimi bəşəri cinayətlərin xronologiyasını özündə əks etdirən təqdimatla çıxış edib.

Tədbirdə iştirak edən Avropa İqtisadi Senatoru İraj Alipor Xocalı soyqırımını törədənləri şiddətlə qınayaraq, bununla əlaqədar müvafiq işlər aparacağını bildirib.

Konfrans çərçivəsində Xocalı soyqırımı və Xocalıya qayıdış barədə sənədli filmlər nümayiş etdirilib.

Qeyd edək ki, tədbirin media yayım dəstəkçisi Diaspor Fəaliyyətlərinə Jurnalistlərin Dəstəyi İctimai Birliyidir.

# Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən şəxslərin ittiham aktının nəticəvi hissəsinin elanı başa çatıb

Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası fevralın 18-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

Budəfəki məhkəmə iclasında ittiham aktının Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş ayrı-ayrı cinayət faktlarına dair epizodlar, habelə Azərbaycan Respublikasının hərbi arsenalına və mülki infrastrukturuna vurulmuş maddi ziyanın məbləği elan edilib.

Dövlət ittihamçıları Fuad Musayev və Vüsal Abdullayev təcavüzkar müharibənin gedişində törədilmiş ayrı-ayrı cinayət faktları və iş üzrə təqsirləndirilən şəxslərin həmin cinayətlərdə iştirakına dair ittiham aktının nəticəvi hissəsini elan ediblər.

Bildirilib ki, 1988-2024-cü illər ərzində 3493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb, 4435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib.

Sonra dövlət ittihamçısı Təranə Məmmədova təcavüzkar müharibənin gedişində törədilmiş bir sıra konkret cinayət faktlarını sadalayıb.

Qeyd edilib ki, 1988-ci ilin fevralından başlayaraq Xankəndi şəhərində yerləşən Xankəndi Pedaqoji İnstitutunda müəllim işləyən azı 17 pedaqoji işçi, habelə ali təhsil alan azı 17 azərbaycanəsilli tələbə məhz azərbaycanlı olduqları üçün məcburi qaydada kütləvi şəkildə həmin institutdan qovulub.

1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında qərarın çıxarılaraq SSRİ Ali Sovetinə göndərilməsindən cəmi bir gün sonra, yəni, 1988-ci il fevralın 21-də Əsgəran rayonu ərazisində odlu silahlarla aramsız atəşlər açılması nəticəsində Xankəndi şəhərinin dinc mülki sakini Əhmədov Əhməd Bəhmən oğluna güllə yarası xəsarəti yetirilib.

1988-ci il iyulun 9-da milis orqanlarına daxil olmuş məlumat əsasında həmin ilin mart-aprel aylarında Xankəndi şəhərində yerləşən Kondensator zavodunda müxtəlif qurğular vasitəsilə kustar üsulla hazırlanmış silahlar və partlayıcı qurğular, habelə əl qumbaraları aşkar edilərək götürülüb.

1988-ci il sentyabrın 20-də Xocavənd rayonunun Günəşli kəndinə odlu silahlardan və tüfənglərdən istifadə olunmaqla edilmiş hücum nəticəsində həmin kəndin dinc sakini Balakişiyev Məhəmmədəli Qəhrəman oğlu qəsdən öldürülüb.

Qarabağ İpək kombinatının təmir-tikinti sahəsinin rəisi Ayrapetyan Slavik Calaloviç, kombinatın partiya komitəsinin katibi Köçəryan Robert Sedraki, baş mühəndis Simonyan Vladimir Semenoviç, həmkarlar təşkilatının sədri Mesropyan Bella Surenovna və qeyriləri 1988-ci ilin sentyabr ayı ərzində iş yerinə buraxmamaqla və hədə-qorxu gəlməklə Qarabağ İpək kombinatında işləyən azərbaycanəsilli şəxsləri kütləvi şəkildə iş yerindən qovaraq əmək hüquqlarından zorla məhrum ediblər.

Ermənistan Respublikası silahlı qüvvələrinin törətdiyi çoxsaylı cinayətləri videolentə alaraq dünya ictimaiyyətinə çatdırmaq məqsədilə 1992-ci il iyunun 15-də Xocalı rayonunun Naxçıvanlı kəndinə ezam olunmuş Azərbaycan Dövlət Televiziyasının "215 KL" studiyasının rəhbəri, jurnalist Mustafayev Çingiz Fuad oğlu həmin gün saat 11:00 radələrində çəkiliş apararkən yaxınlığına düşüb partlamış minaatan mərmisinin qəlpələrinin bədəninin müxtəlif nahiyələrinə dəyməsi nəticəsində qəsdən öldürülüb.

2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndi istiqamətində müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və mülki əhaliyə zirehli texnikalardan atəş açılıb, "OQ-9M" markalı 73 millimetr çaplı, qəlpəli qumbaranın Alxanlı kəndinin ərazisinə düşərək partlaması nəticəsində kəndin dinc sakinləri Allahverdiyeva Sahibə İdris qızı və 2016-cı il təvəllüdlü azyaşlı Quliyeva Zəhra Elnur qızı müxtəlif bədən xəsarətləri alaraq qəsdən öldürülüb.

2020-ci il iyulun 14-də Ermənistan Respublikasının Tavuş vilayəti Berd rayonu Movses kəndi ərazisində yerləşən mövqelərdən və ələ keçirilmiş "Ara postu" adlanan döyüş mövqeyindən iriçaplı artilleriyadan Müdafiə Nazirliyinin Tovuz rayonunun Ağdam kəndində yerləşən "N" saylı hərbi hissəsinin müvafiq döyüş postunun yaxınlığında qurulmuş sığınacaq istiqamətində atəşlər açılıb, atılmış mərminin sığınacağa düşərək partlaması nəticəsində general-mayor Həşimov Polad İsrayıl oğlu, polkovnik Mirzəyev İlqar Anzor oğlu, mayor Əhmədov Namiq Hajan oğlu, mayor Novruzov Anar Gülverdi oğlu və gizir Babayev Yaşar Vasif oğlu qəsdən öldürülüb.

2020-ci il oktyabrın 2-də işğal altında saxlanılan Ağdərə, Ağdam rayonları və digər ərazilərdəki mövqelərdən "Qrad" ("BM-21") reaktiv yaylım atəş sistemlərindən, iriçaplı digər silahlardan Tərtər rayonunun hərbi əməliyyatların aparılmadığı, hərbi obyektlərin yerləşmədiyi, dinc əhalinin sıx yaşadığı yerlərinə açılmış çoxsaylı atəşlərin mərmilərindən birinin Tərtər Rayon Prokurorluğunun inzibati binasının qarşısında avtomobil yolunun üzərinə düşüb partlaması nəticəsində Ermənistan silahlı qüvvələrinin törətdiyi cinayət faktlarına görə başlanmış cinayət işləri üzrə yaradılmış istintaq qruplarının üzvü, Sumqayıt Şəhər Prokurorluğunun Tərtər Rayon Prokurorluğuna ezam olunmuş böyük müstəntiqi Həsənov Ozal Mübariz oğluna sağlamlığa ağır zərər vurmaya aid xəsarətlər yetirilib.

Daha sonra çıxış edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev elan edib ki, 1990-cı illərin əvvəllərindən 2023-cü il sentyabrın 20-dək olan müddət ərzində müxtəlif iri və kiçikçaplı silahlar, sursatlar, artilleriya qurğuları, raketlərdən atəşlər açılmaqla edilmiş silahlı hücumlar nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin müdafiə arsenalına aid 908 milyon manatdan artıq dəyərdə hərbi əmlaklar məhv edilib, yararsız hala salınıb və ya ələ keçirilib.

2001-ci ilin əvvəllərindən 2021-ci il mayın sonlarınadək olan müddət ərzində "İsgəndər-M" əməliyyat-taktiki təyinatlı ballistik raketi, "Toçka-U" taktiki raket kompleksi, "9K33 OSA" özüyeriyən zenit raket kompleksi, "S-8" idarə olunmaz təyyarə raketi, "Smerç", "TOS-1A Solntsepek" sistemləri, "İqla-S" zenit-raket kompleksləri, tank əleyhinə idarəolunan "Konkurs" və "Kornet" raketləri, "RPQ-26" qumbaraatanları və digər iriçaplı odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular qanunsuz əldə edilərək Rusiya Federasiyasından gizli üsullarla Ermənistan Respublikasına, oradan isə Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində əvvəllər işğal altında olmuş Azərbaycan Respublikasının ərazisində qanunsuz olaraq qurulmuş mühəndis-istehkam mövqelərinə yerləşdirilməklə Azərbaycana qarşı təcavüzkar müharibədə istifadə edilib.

Eyni zamanda təcavüzkar müharibə nəticəsində mülki infrastruktura Birinci Qarabağ müharibəsi və sonrakı dövrlərdə, habelə İkinci Qarabağ müharibəsi dövründə ümumilikdə 5,2 milyard manatdan artıq məbləğdə maddi ziyan vurulub.

Təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının mülki infrastrukturuna, iqtisadiyyatına, ekologiyasına, müdafiə arsenalına və digər sahələr üzrə Azərbaycan Respublikasına ümumilikdə 100 milyard manatdan artıq maddi ziyan vurulub.

Yekunda Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxslər Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, Harutyunyan Arayik Vladimiri, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi, Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Babayan Madat Arakeli, Paşayan Melikset Vladimiri, Martirosyan Qarik Qriqori, Balayan Levon Romiki, Stepanyan Qurqen Homerosi, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti və Allahverdiyan Davit Nelsoninin ittiham olunduqları Cinayət Məcəlləsinin müvafiq maddələrini elan edib.

Bununla da iş üzrə ittiham aktının nəticəvi hissəsinin elanı başa çatıb.

Daha sonra məhkəmə iclasına sədrlik edən hakim Zeynal Ağayev təqsirləndirilən şəxslər Arayik Harutyunyana və Arkadi Qukasyana qarşı irəli sürülmüş hər bir ittihamın mahiyyətini, onlara istinad edilən əməllərin hüquqi tövsifini, həmin əməllərə görə cinayət qanunu ilə nəzərdə tutulan cəzanı və təqsirləndirilən şəxslərin malik olduğu hüquqları izah edib, habelə özlərini təqsirli bilib-bilməmələrinə dair suallar ünvanlayıb.

Arayik Harutyunyan və Arkadi Qukasyan məhkəməyə müraciət edərək müdafiəçiləri ilə konfidensial görüş keçirmək istədiklərini, bundan sonra suallara cavab verəcəklərini bildiriblər.

Məhkəmənin növbəti iclası fevralın 20-nə təyin olunub.

Növbəti məhkəmə iclası təqsirləndirilən şəxslərin hər birinə onlara qarşı irəli sürülmüş hər bir ittihamın mahiyyəti, onlara istinad edilən əməllərin hüquqi tövsifi və həmin əməllərə görə cinayət qanunu ilə nəzərdə tutulan cəzaların izah olunması, irəli sürülmüş ittihamlar üzrə özlərini təqsirli bilib-bilməmələrinə dair sualların aydınlaşdırılması ilə davam etdiriləcək.

Xatırladaq ki, sözügedən cinayət işi üzrə 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Gürcüstan və Azərbaycan dəmir yolu ilə sərnişin daşınmasını müzakirə edib

Gürcüstan ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın mühüm istiqamətlərindən biri nəqliyyat sektorunda əməkdaşlıqdır. Biz bu gün Tbilisidə işgüzar səfərdə olan Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevlə görüşərək bu ilin planlarından danışdıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili jurnalistlərə açıqlaması zamanı deyib. Onun sözlərinə görə, görüş zamanı Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi müzakirə edilib.

"Bildirdik ki, bu istiqamətdə işlər son tamamlama mərhələsindədir və xətt bu il tam istifadəyə veriləcək. Biz, həmçinin Gürcüstan və Azərbaycan arasında bu infrastrukturu idarə edəcək, bu hissəni daha səmərəli yükləməyə və daha çox yük cəlb etməyə imkan verəcək birgə müəssisənin yaradılması haqqında danışdıq", - deyə Levan Davitaşvili bildirib.

Gürcü nazirin sözlərinə görə, görüşdə Orta Dəhlizin rolu, rəqabət qabiliyyətinin artırılması və əlavə yüklərin cəlb edilməsi istiqamətində tərəflərin fəal iştirakı ilə həyata keçirilən tədbirlərə xüsusi diqqət yetirilib: "Bu, ölkələrə daha çox əlavə dəyər yaratmağa imkan verəcək. Tərəflər Gürcüstan və Azərbaycan arasında dəmir yolu ilə sərnişin daşınması məsələsini də müzakirə ediblər. Sərnişin dəmir yolu nəqliyyatı turizm üçün çox vacibdir. Azərbaycanlı həmkarımızla görüşdə cari il üçün daşımalarla bağlı proqnozu da müzakirə etdik. Əlbəttə, planlarımızı və baxışlarımızı mübadilə etmək çox vacib idi ki, maksimum koordinasiya ilə regionda və beynəlxalq miqyasda daha rəqabətədavamlı ola bilək".

# Azərbaycan Türkmənistanda "Diplomatiya Günü"nə həsr edilmiş beynəlxalq sərgidə təmsil olunub

Azərbaycan Türkmənistan Beynəlxalq Münasibətlər İnstitutunda keçirilən "Diplomatiya Günü"nə həsr edilmiş sərgidə təmsil olunub.




Azərbaycanın Türkmənistandakı səfirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə ölkəmizin tarixi, mədəniyyəti, incəsənəti və turizm potensialını əks etdirən kitablar, broşürlər, fotoaçıqcalar, suvenirlər və sənətkarlıq nümunələri, habelə "Made in Azerbaijan" brendi məhsulları sərgilənib. Eyni zamanda, türkmən dilində nəşr olunmuş Ümummilli Lider Heydər Əliyevə həsr edilmiş "Əbədiyyət dastanı" və Nizami Gəncəvinin əsərləri sərgi iştirakçılarına təqdim olunub.

Sərgi çərçivəsində COP29-a dair informativ məlumatlar əks olunmuş bannerlər nümayiş etdirilib, həmçinin COP29-da əldə olunan nailiyyətlər və xronoloji statistik məlumatları ətraflı əks etdirən videoçarx da göstərilib. Eləcə də tədbirdə milli geyimlərimiz sərgilənib, habelə "Azerbaijan.travel" turizm platformasının təqdimatı keçirilib. Ziyarətçilərə Azərbaycanın zəngin milli mətbəxi barədə məlumat verilib, ləziz yeməklər və şirniyyatlar təqdim edilib. Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri Rəşid Meredov ölkə rəsmiləri və diplomatik korpusun nümayəndələri ilə birlikdə Azərbaycan stendi ilə tanış olub. Sərgiyə gələn qonaqlar Azərbaycan guşəsinə böyük maraq göstəriblər.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri Münxen Təhlükəsizlik Konfransında iştirak ediblər

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri - BMT Baş Assambleyasının 73-cü Prezidenti Maria Fernanda Espinosa, Serbiyanın sabiq Prezidenti Boris Tadiç, İsrailin sabiq Baş naziri Tzipi Livni, Ərəb Liqasının sabiq baş katibi Amr Musa, Gürcüstanın sabiq Baş nazir müavini Eka Tkeşelaşvili, Mərkəzin baş katibi Rövşən Muradov və baş məsləhətçi Rza Əliyev 61-ci Münxen Təhlükəsizlik Konfransında iştirak ediblər.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzindən AZƏRTAC-a bildirilib ki, konfrans çərçivəsində Mərkəzin üzvləri konfransda iştirak edən ölkə və hökumət başçıları, beynəlxalq təşkilat rəhbərləri ilə bir sıra yüksəksəviyyəli görüşlər keçiriblər.





Bu çərçivədə Moldova Prezidenti Maya Sandu, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, COP29-un Prezidenti Muxtar Babayev, Beynəlxalq Enerji Agentliyinin Baş direktoru Fatih Birol, BMT İnkişaf Proqramının administratoru Axim Şteyner, Monqolustanın sabiq Prezidenti Tsaxiagiin Elbeqdorj, Çin Xalq Respublikasının Xarici Əlaqələr Komitəsinin sabiq sədr müavini və sabiq xarici işlər nazirinin müavini Fu Ying və digər BMT təşkilatlarının rəhbərləri ilə görüşlər olub. Bu görüşlərdə qlobal çağırışlar, beynəlxalq təhlükəsizlik məsələləri və davamlı inkişaf perspektivləri müzakirə edilib.

Qeyd edək ki, üç gün davam edən Münxen Təhlükəsizlik Konfransında dünyanın 60-dan çox dövlət və hökumət başçısı qlobal xarakterli problemləri müzakirə edib və perspektivləri dəyərləndiriblər.

# Bakıda NATO-nun mobil təlim qrupunun kursu keçirilir

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO arasında 2025-ci il üçün "Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı"na əsasən, Niderland Krallığının Brunssum şəhərində yerləşən Müştərək Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən Bakıda "Hərbi əməliyyatların hüquqi aspektləri" mövzusunda kurs keçirilir.



AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Tədbirin açılışında çıxış edən Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi, ədliyyə general-mayoru Elçin Əliyev Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində bu cür tədbirlərin əhəmiyyətindən danışaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzun son illər ərzində apardığı əməliyyatlar zamanı beynəlxalq hüququn bütün norma və prinsiplərinin qorunduğunu xüsusi qeyd edib.

General-mayor E.Əliyev müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunun şəxsi heyətinə Beynəlxalq Humanitar Hüququn (Silahlı Münaqişələr Hüququnun) müddəalarının çatdırılması və əməl edilməsinə nəzarətin qarşıda duran prioritet vəzifələrdən biri olduğunu vurğulayıb.

Qeyd edək ki, NATO-nun mobil təlim qrupunun təlimatçıları tərəfindən keçirilən kursun əsas məqsədi Silahlı Münaqişələr Hüququnun yaranması və prinsipləri, güc tətbiq etmək üçün hüquqi çərçivə sənədi, sülhə dəstək əməliyyatlarının hüquqi aspektləri, əməliyyatlarda hədəf almanın hüquqi aspektləri, mülki əhalinin müdafiəsi, mədəni sərvətlərin qorunması, rəhbər heyətin məsuliyyəti, NATO missiyalarında qüvvələrin statusu və imtiyazları, həmçinin sülhməramlı əməliyyatlar zamanı beynəlxalq müqavilələr mövzularında təcrübələrin aşılanmasıdır. Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində təşkil edilən kursda NATO-da beynəlxalq humanitar hüququn normaları və Silahlı Münaqişə Hüququ üzrə nəzəri biliklərin, o cümlədən xidməti fəaliyyətlər zamanı tətbiqi imkanlarının aşılanması ilə bağlı müxtəlif mövzular tədris ediləcək. Yekunda yerinə yetirilmiş tapşırıqlar və məqsədlərlə bağlı brifinqlər təqdim olunacaq, kursun iştirakçılarına sertifikatlar veriləcək.

# Polşa Azərbaycanlıları Şurası və "Citi Bank"ın dəstəyi ilə Varşava Azərbaycan Evində təlim keçirilib

Polşa Azərbaycanlıları Şurasının təşkilatçılığı və qlobal maliyyə sektorunun aparıcı şirkətlərindən biri olan "Citi Bank"ın dəstəyi ilə bu ölkədə yaşayan soydaşlarımızın əmək bazarına daxil olmasını və karyera imkanlarını genişləndirməsini hədəfləyən təlim keçirilib.




AZƏRTAC xəbər verir ki, təlim 60-dan çox nümayəndənin iştirakı ilə Varşavada yerləşən Azərbaycan Evində baş tutub.

Polşa Azərbaycanlıları Şurasından bildiriblər ki, qurum daha əvvəl də dəfələrlə yerli iş bazarına inteqrasiya mövzusunda ödənişsiz karyera təlimləri təşkil edib və bu proqramlardan yüzlərlə azərbaycanlı tələbə faydalanıb. Lakin budəfəki tədbir beynəlxalq səviyyədə əməkdaşlığın nəticəsi olaraq fərqlənib. "Citi Bank" ilə birlikdə keçirilən bu təlim iştirakçılara qlobal iş bazarının tələblərinə uyğun bilik və bacarıqlar qazandırmaq baxımından xüsusi əhəmiyyət kəsb edib.

Təlimdə "Citi Bank"ın aparıcı insan resursları mütəxəssisləri Mixal Radeçki və Karola Sulinska iş axtarışı strategiyaları, peşəkar CV hazırlanması, müsahibə texnikaları və sosial əlaqələrin işə qəbul prosesindəki rolu barədə dəyərli bilik və təcrübələrini bölüşüblər. Spikerlər 3 saat ərzində yüksək peşəkarlıq nümayiş etdirərək, iştirakçılara əmək bazarının aktual mövzularına dair praktiki tövsiyələr veriblər.

Tədbirin ən faydalı hissələrindən biri real müsahibə şəraitinin simulyasiyası olub. Bu sessiya sayəsində iştirakçılar öz bilik və bacarıqlarını praktik şəkildə sınamaq, işə qəbul mütəxəssislərindən birbaşa rəy almaq və gələcək müsahibələrə daha yaxşı hazırlaşmaq imkanı əldə ediblər.

Polşa Azərbaycanlıları Şurası və "Citi Bank" soydaşlarımızın peşəkar inkişafını və Polşa əmək bazarına inteqrasiyasını dəstəkləmək üçün bu kimi tədbirləri davam etdirməyi planlaşdırır. Bu təşəbbüsün uğuru gələcəkdə daha çox bu tip layihələrin həyata keçirilməsinə və Polşada yaşayan azərbaycanlıların karyera inkişafına töhfə verməsinə zəmin yaradır.

# Azərbaycan İlahiyyat İnstitutunun tələbələri təhsillərini Türkiyədə davam etdirəcəklər

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) tələbələri təhsillərini 2024/2025-ci tədris ilinin yaz semestri ərzində Türkiyə Respublikasının İstanbul 29 Mayıs Universitetində davam etdirəcəklər.



Mübadilə İstanbul 29 Mayıs Universiteti ilə Azərbaycan İlahiyyat İnstitutu arasında 2018-ci ildə imzalanmış Əməkdaşlıq müqaviləsi çərçivəsində həyata keçirilib.

Əməkdaşlıq müqaviləsinə əsasən, sayca 4-cü tələbə mübadiləsi çərçivəsində Aİİ "Dinşünaslıq" ixtisasının III kurs tələbələri - Sadiq Babayev və Murad Feyzullayev İstanbul 29 Mayıs Universitetində bir semestr ərzində təhsil alacaqlar.

İstanbul 29 Mayıs Universitetində rektor Mustafa Sinanoğlu, İdarə Heyətinin sədri Tayyar Altıkulaçın tələbələr və Aİİ-nin xarici əlaqələr üzrə mütəxəssisi Şəms Bağırova ilə görüşü təşkil olunub. Görüşdə hər iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq əlaqələrinin mövcud vəziyyətindən məmnunluq ifadə olunub. Bu əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Daha sonra Aİİ-nin nümayəndə heyətinin İstanbul 29 Mayıs Universiteti İlahiyyat fakültəsinin dekanı Ahmet Yücel, Tələbələrə dəstək şöbəsinin müdiri və Oğlan tələbə yataqxanasının müdir müşaviri Ahmet Ali Tonyalı ilə görüşü keçirilib.

***"Azərbaycan"***

# Aktiv istehlakçı modeli Azərbaycanda bərpaolunan enerjidən istifadənin inkişafına töhfə verəcək

Energetika Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə bərpaolunan enerji sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri üçün kiçik həcmli "yaşıl enerji" istehsalının, başqa sözlə aktiv istehlakçının dəstəklənməsi mövzusunda məlumatlandırıcı tədbir keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, tədbirin əsas məqsədi fiziki və hüquqi şəxslərin öz fərdi bərpa olunan enerji sistemlərini qurmaq və istehsal etdikləri artıq enerjini şəbəkəyə ötürmək imkanları barədə məlumatlılığı artırmaq olub.

Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (BOEMDA) direktoru Cavid Abdullayev "yaşıl enerji" keçidinin iqtisadi, sosial və ekoloji cəhətdən vacibliyini vurğulayaraq aktiv istehlakçı modelinin Azərbaycanda bərpaolunan enerjidən istifadənin inkişafına töhfə verəcəyini bildirib. Qeyd edilib ki, bu mexanizm vətəndaşların və sahibkarların ölkəmizdə "yaşıl enerji" istehsalında iştirakını genişləndirərək uzunmüddətli perspektivdə enerji xərclərinin azaldılmasına imkan yaradacaq.



Daha sonra BOEMDA və "Azərişıq" ASC-nin mütəxəssisləri aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqinə dair qanunvericiliyin tələbləri, həmçinin texniki məqamlara dair təqdimatlarla çıxış ediblər. Təqdimatlarda günəş panelləri, külək turbinləri və digər "yaşıl enerji" qurğularının quraşdırılması, istehsal edilən artıq enerjinin şəbəkəyə ötürülməsi, tariflər, əvəzləşmə və hesablaşma mexanizmləri barədə geniş məlumat verilib.

Tədbirin davamında iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb, müzakirələr aparılıb və praktik təcrübələr bölüşülüb. Sonda Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JICA) nümayəndəsi Nigar İsmayılova çıxış edərək JICA-nın Azərbaycanda dəstəklədiyi layihələr barədə məlumat verib. Cari məlumatlandırma tədbirinin JICA kiçik qrant layihəsi çərçivəsində təşkil olunduğu diqqətə çatdırılıb.

# İqtisadiyyat və sosial həyat

## Dövlət növbəti dəfə sahibkara sahib çıxdı

### Özəl sektorda yoxlamaların dayandırılması müddəti daha bir il uzadıldı

**Azərbaycanda həyata keçirilən iqtisadi islahatların uğur qazanmasında dövlətin sahibkarlara göstərdiyi dəstək mexanizmlərinin mühüm payı var. Özəl sektorun inkişafı üçün dövlət tərəfindən atılan addımlar, verilən qərarlar, olunan güzəştlər ölkədə sahibkarlıq subyektlərinin sayının artmasına, bu isə öz növbəsində iqtisadiyyatın davamlı tərəqqisinə şərait yaradır.**

dır: "Sahibkarların fəaliyyətində müvafiq vergi yoxlamalarından savayı heç bir təftiş olmamalıdır. Sahibkarların dövlət qarşısında yeganə məsuliyyəti vergi ödənişi ilə bağlıdır. Təbii ki, əhalinin sağlamlığına təhlükə yaradacaq fəaliyyət sahələrinə ciddi nəzarət qalmalıdır".

İqtisadiyyatın prioritet istiqamətləri üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin dəstəklənməsində dövlətin maliyyə dəstəyi mexanizmlərinin xüsusi rolu var. Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi, xüsusilə kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyət göstərən İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun (SİF) maliyyə mexanizmləri ölkədə biznes mühitinin gücləndirilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi üçün əsas vasitələrdəndir. 2024-cü ildə bu vasitədən yararlanan sahibkarlıq subyektlərinin sayı əhəmiyyətli dərəcədə artmışdır. Fakt: SİF tərəfindən 2024-cü il ərzində 5722 layihənin maliyyələşdirilməsinə 248,1 milyon manat güzəştli kredit verilib. İqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən bu layihələrin icrası nəticəsində 4334 yeni iş yerinin yaradılması nəzərdə tutulub. Ötən il fondun vəsaitinin səmərəli yerləşdirilməsi üçün sənaye, kənd təsərrüfatı, logistika, anbar komplekslərinin yaradılması, turizm, balıqçılıq, "yaşıl layihə"lər, kütləvi informasiya vasitələrinin inkişafı, tibb, təhsil və xidmət layihələri prioritet istiqamətlər kimi müəyyənləşdirilmişdir. Fond tərəfindən verilmiş ümumi güzəştli kredit məbləğinin 53,3 faizi kənd təsərrüfatı məhsullarının istehsalı, 38,1 faizi sənaye məhsullarının istehsalı və emalı, 6,1 faizi xidmət, 2,1 faizi turizm və 0,4 faizi isə balıqçılıq və akvakultura sahələrinə yönəldilmişdir.

Ötən il işğaldan azad edilmiş ərazilərdə iqtisadi aktivliyin bərpa olunması və bu ərazilərdə sərmayə qoyuluşlarının sürətlənməsinə dəstək də diqqət mərkəzində saxlanılmışdır. Fevraldan etibarən "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" mexanizmi çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda investisiya layihəsi həyata keçirən sahibkarların bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlərin 90 faizədək hissəsinə dövlət zəmanətinin verilməsinə başlanılmışdır. 2024-cü ildə bu ərazilərdə sahibkarların zəmanət-subsidiya mexanizminə müraciətləri əsasında 12 layihə üzrə 23,4 milyon manat kreditə 19,2 milyon manat dövlət zəmanəti verilmişdir. Sözügedən layihələr bu gün Şuşa, Xankəndi, Ağdam, Cəbrayıl və Xocalıda həyata keçirilir.



Sahibkarlığın inkişafına nail olmaq üçün təbii ki, ölkədə əlverişli biznes mühitinin yaradılması mühüm şərtdir. Bu mühit həm də özəl sektora dövlət dəstəyidir. Dövlət tərəfindən təmin edilən azad bazar institutu ölkədə sahibkarlığın inkişafına dəstək verməklə bərabər, həm də biznes sahəsində fəaliyyət göstərənlərə geniş imkanlar yaradır.

Dövlət başçısının sahibkarlıq sektorunda apardığı məqsədyönlü siyasətin nəticələri onu deməyə əsas verir ki, bu sahədə uğurlar hələ uzun zaman davam edəcək. Prezident İlham Əliyevin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə imzaladığı növbəti qanun bunun əyani sübutudur. Qanuna dəyişikliyə əsasən, Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasının müddəti 2026-cı il yanvarın 1-nə qədər uzadılır. Bu müddətdə sahibkarlıq subyektlərində yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar da müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır. Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluğun apardığı yoxlamalara şamil edilmir. Sahibkarların bu qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti və prokurorluq orqanlarına, həmçinin inzibati və məhkəmə qaydasında şikayət etmək hüquqları var.

Məqsəd ondan ibarətdir ki, ölkədə sahibkarların fəaliyyətinə qanunsuz, kortəbii şəkildə, ehtiyac olmadan edilən müdaxilələrə yol verilməsin. Çünki bu kimi qanunsuz yoxlamalar sahibkarların səmərəli işinə və ölkə iqtisadiyyatına fayda vermələrinə maneçilik törədir. Dövlət başçısı da öz çıxışlarında dəfələrlə bildirmişdir ki, sahibkarların fəaliyyətinə kortəbii müdaxilə yolverilməzdir. İqtisadçı Pərviz Heydərov deyir ki, lazımsız yoxlamaların aparılmasına məhdudiyyət qoyulması dövlət başçısının şəxsi təşəbbüsü ilə həyata keçirilən bir addım-

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Əlilliyi olan şəxslər 11,3 min reabilitasiya vasitələri ilə təmin edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar ayında əlilliyi olan şəxsləri 11,3 min reabilitasiya vasitələri ilə təmin edib.**



Onlardan 846-sı təkərli oturacaq (o cümlədən 33-ü mühərrikli təkərli oturacaq), 265 aşağı və yuxarı ətraf protezi, habelə 135-i eşitmə aparatı, 255-i qoltuqaltı və dirsəkaltı ağac, 9-u korset olub. Həmin şəxslərə 330 cüt protez ayaqqabı, 493 cüt ortopedik ayaqqabı və s. reabilitasiya vasitələri də təqdim olunub.

Yanvar ayında ümumilikdə 1,9 min nəfər əlilliyi olan şəxs reabilitasiya vasitələri ilə təmin edilib.

## Xankəndidə təşkil olunan kurslarda artıq 400 müdavim yeni peşələrə yiyələnib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən Xankəndi şəhərində təşkil olunan peşə hazırlığı kursları davam edir.**



İşğaldan azad olunan ərazilərə köçürüləcək, hazırda ətraf ərazilərdə məskunlaşmış keçmiş məcburi köçkünlərdən artıq 400 müdavim tikiş avadanlıqlarının operatoru, tikişçi və yükdaşıma mütəxəssisi peşələri üzrə kursları başa vurub. Nəzəri və praktik hissələrdən ibarət olmaqla ikinövbəli təşkil olunan kursları uğurla başa vuran şəxslərin Xankəndi şəhərində istifadəyə verilən tikiş fabrikində işlə təminatı həyata keçirilir.

Hazırda daha 29 şəxsin "Tikiş avadanlıqlarının operatoru, tikişçi" peşəsi üzrə tədrisi davam etdirilir və yaxın günlərdə daha bir qrup şəxs üçün peşə kursuna başlanması da planlaşdırılır.

## Selim GÜVEN: "Xəzər dənizində qurulacaq KES əraziləri ilə bağlı sazişin imzalanması gözlənilir"

**Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən Xəzər dənizi üzərində qurulacaq külək enerji stansiyalarının əraziləri ilə bağlı saziş hazırlanmaq üzrədir. Bu sözləri AZƏRTAC-a açıqlamasında "ACWA Power" şirkətinin Azərbaycan və Türkiyə üzrə direktoru Selim Güven deyib.**

Onun sözlərinə görə, ən qısa vaxt ərzində bu sazişin imzalanması gözlənilir. Həmçinin "ACWA Power" şirkəti Azərbaycanın külək potensialını müəyyən etmək üçün dəniz üzərində "Offshore Wind" layihəsinin icrasını davam etdirir.

"Bu layihə ilə bağlı Energetika Nazirliyi və tərəfdaşlarla görüşlər keçirilir. Şirkət ilkin razılaşmalardan sonra bu sahədə də çalışmalarını davam etdirəcək", - deyə o bildirib.

Qeyd edək ki, ötən il noyabrın 15-də "ACWA Power", SOCAR və "Masdar" şirkətləri arasında 3,5 giqavatlıq (GVt) külək elektrik enerjisi istehsalı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bu stansiya Azərbaycanda dənizdə olacaq ilk külək-elektrik stansiyası olacaq.

## Kiçikhəcmli bərpaolunan enerji istehsalı mövzusunda məlumatlandırma tədbiri keçirilib

**Energetika Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə bərpaolunan enerji sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri üçün kiçikhəcmli "yaşıl enerji" istehsalının, başqa sözlə, aktiv istehlakçının dəstəklənməsi mövzusunda məlumatlandırıcı tədbir keçirilib.**

Nazirlikdən bildirilib ki, tədbirin əsas məqsədi fiziki və hüquqi şəxslərin öz fərdi bərpaolunan enerji sistemlərini qurmaq və istehsal etdikləri artıq enerjini şəbəkəyə ötürmək imkanları barədə məlumatlılığı artırmaq olub.

Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (BOEMDA) direktoru Cavid Abdullayev "yaşıl enerji" keçidinin iqtisadi, sosial və ekoloji cəhətdən vacibliyini vurğulayaraq aktiv istehlakçı modelinin Azərbaycanda bərpaolunan enerjidən istifadənin inkişafına töhfə verəcəyini bildirib. Qeyd edilib ki, bu mexanizm vətəndaşların və sahibkarların ölkəmizdə "yaşıl enerji" istehsalında iştirakını genişləndirərək uzunmüddətli perspektivdə enerji xərclərinin azaldılmasına imkan yaradacaq.

Daha sonra BOEMDA və "Azərişıq" ASC-nin mütəxəssisləri aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqinə dair qanunvericiliyin tələbləri, həmçinin texniki məqamlara dair təqdimatlarla çıxış ediblər. Təqdimatlarda günəş panelləri, külək turbinləri və digər "yaşıl enerji" qurğularının quraşdırılması, istehsal edilən artıq enerjinin şəbəkəyə ötürülməsi, tariflər, əvəzləşmə və hesablaşma mexanizmləri barədə geniş məlumat verilib.



Tədbirin davamında iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb, müzakirələr aparılıb və praktik təcrübələr bölüşülüb.

Sonda Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JICA) nümayəndəsi Nigar İsmayılova çıxış edərək JICA-nın Azərbaycanda dəstəklədiyi layihələr barədə məlumat verib. Cari məlumatlandırma tədbirinin JICA kiçik qrant layihəsi çərçivəsində təşkil olunduğu diqqətə çatdırılıb.

## "Xankəndi" iş başında

### Bu nadir sualtı tikinti gəmisi Xəzərdə "Şahdəniz" və AÇG layihələrinə dəstək verməyə davam edir

**Ən yüksək beynəlxalq standartlara uyğun şəkildə inşa edilmiş "Xankəndi" sualtı tikinti gəmisi səkkiz ildən çoxdur Xəzərdədir. Son texniki nailiyyətləri özündə birləşdirən bu nadir gəmi məhz "Şahdəniz-2" çərçivəsində ən böyük sualtı hasilat sistemini quraşdırmaq üçün layihələndirilib və inşa edilib. Əvvəlcədən gəminin 10 il ərzində - 2027-ci ilədək "Şahdəniz" yatağında sualtı quraşdırma və tikinti işlərini həyata keçirməsi nəzərdə tutulmuşdu.**



"Şahdəniz"in əməliyyatçısı - BP şirkəti "Xankəndi"nin layihələndirilməsi və tikintisi barədə dəyəri 400 milyon dollara yaxın olan müqaviləni "Bakı Gəmiqayırma Zavodu" MMC ilə 2014-cü il aprelin 17-də bağlamışdı. 2017-ci il sentyabrın 6-da isə Prezident İlham Əliyev gəminin təqdimat mərasimində iştirak etdi. Dövlət başçısı dedi: "Şadam ki, bu nəhəng gəmi Azərbaycanda, Bakıda inşa edilib. Bu gəmiyə "Xankəndi" adı verilib. Onun da çox böyük mənası var. Xankəndi bizim qədim şəhərimizdir. Xankəndinin adı bizim üçün əzizdir, doğmadır. Təsadüfi deyil ki, dünyada nadir standartlara cavab verən bu gəmiyə məhz bu ad verilmişdir. Bu gəminin tikintisi ölkəmizin gücünü göstərir. Onu göstərir ki, bu gün Azərbaycanda istənilən böyük tikinti işi aparıla bilər. Bu gəminin inşası, istifadəyə verilməsi eyni zamanda onu göstərir ki, vaxtilə gəmiqayırma zavodunun tikintisi haqqında verilmiş qərar düzgün qərar idi. O vaxt bu qərarı verərkən və bu zavodun tikintisinə böyük sərmayə ayırarkən biz məhz bu məqsədi güdürdük ki, Azərbaycan istənilən növ gəmini inşa edə bilsin".

"Xankəndi"nin iki iri gövdə bölməsi Bakıya müvafiq müqavilə əsasında Sinqapurda inşa edilərək təhlükəsiz şəkildə gətirilmişdi. Bunlar Bakı Gəmiqayırma Zavodunda tikinti-quraşdırma sahəsinə çıxarılaraq inşası başa çatmış burun, yaşayış və idarəetmə blokları ilə birləşdirilmiş və müvafiq inteqrasiya işləri yerinə yetirildikdən sonra 2016-cı ilin mayında suya salınmışdı.

Zavodun yanalma körpüsündə "Xankəndi" gəmisinin bütün göyərtə avadanlığı - əsas qaldırıcı kran, köməkçi kranlar, o cümlədən helikopter meydançası quraşdırılaraq gəminin bütün sistemləri, avadanlığı və qurğuları tam inteqrasiya edilib yoxlanılaraq işə salınmış və sazlanmışdı. Açıq dənizdə bütün istismar sınaqları uğurla yerinə yetirilmişdi.

"Xankəndi" gəmisinin tikintisində ümumilikdə 2 mindən çox insan çalışmışdı. Bu işçilərin 75 faizi yerli, 25 faizi əcnəbi mütəxəssislər idi.

DNV GL Norveç və Almaniya təsnifat cəmiyyətinin nəzarəti altında tikilən bu əzəmətli gəminin maksimal sürəti 13,5 knot, uzunluğu 155, eni 32, maksimal suya oturumu 7,5 və əsas göyərtəsinin hündürlüyü 13 metrdir. Gəmi 3,5 metr hündürlüyündə böyük dalğalarda fəaliyyət göstərməsi üçün dinamik mövqeləndirmə sistemi, 600 metrədək sualtı əməliyyatlar aparmaq üçün 900 metrik tonluq əsas kranı, 18 nəfərlik iki dalğıc kapsulu sistemi, məsafədən idarə olunan iki aparat, möhkəmləndirilmiş avadanlıq endirmə şaxtası və digər zəruri texnikalarla tam təchiz edilib. Gəminin ümumi çəkisi 17 min 700 tondur və suya oturumu 6,5 metr olmaqla 5 min metrik tondan artıq yükgötürmə qabiliyyətinə malikdir.

"Xankəndi" 175 nəfərlik kayutlarla təchiz olunub. Gəmi suyun dərinliyi 550 metrədək olan hissələrdə dünya standartlarına uyğun sualtı qurğular inşa etmək üçün layihələndirilib. Özünün bütün imkanlarından istifadə edərək sualtı tikinti gəmisi indiyədək "Şahdəniz"də böyükhəcmli işlər görüb. Cəsarətlə deyə bilərik ki, "Cənub qaz dəhlizi"nin reallaşmasında, bu gün Azərbaycanın 12 ölkəyə qaz ixrac etməsində və digər nailiyyətlərin qazanılmasında "Xankəndi"nin də payı var.

BP-nin 2024-cü ilin nəticələrinə həsr olunmuş hasabatında bildirilir ki, "Xankəndi" sualtı tikinti gəmisi keçən il hazırda istismarda olan bütün "Şahdəniz- 2" və "Azəri-Çıraq-Günəşli" sualtı hasilat obyektlərinə texniki xidmət göstərməyə, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə dəstək verməyə davam edib. Ümumiyyətlə, regionda tətbiq edilən vahid gəmi strategiyasına uyğun olaraq "Xankəndi" dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir və texniki xidmət işləri və fövqəladə hallara cavab tədbirləri üçün əsas gəmi kimi istifadə olunur. Bu da BP və tərəfdaşlarının əməliyyatlarının daha təhlükəsiz və daha səmərəli olmasına xidmət edir.

Bütün bunlarla yanaşı, "Şahdəniz-2" layihəsi çərçivəsində görülən işlər "Xankəndi" gəmisinin əsas iş həcmi olmaqdadır. Burada əsas diqqət layihə üzrə qalan quyuların təhvil verilməsinə yönəldilib. Gəmidən və qazma qurğularından səmərəli istifadəni təmin etmək məqsədilə fəaliyyətlərin optimallaşdırılması və quyuların işə salınması müddətinin sürətləndirilməsi üçün inteqrasiya olunmuş qrafik hazırlanıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*





# Ədəbiyyat





● Ədəbiyyat xadimlərimiz

**İyirminci yüzilliyin böyük qəzəl şairi Əliağa Vahidin ədəbiyyatımızda mövqeyi onun yaşadığı tarixi-ictimai mühitdə əruza, qəzələ göstərilən təzyiqlər, qadağalar fövqündə dayanıb, poeziyamızın bu zərif, mənalı, yığcam klassik janrını qoruyub yaşatması, yüksək sənətkarlığı və novator axtarışları sayəsində zənginləşdirməsi ilə müəyyən olunur.**

**Əliağa Vahid çox gənc yaşlarından qəzəl janrına xüsusi maraq göstərdiyi üçündür ki, Abşeron qəzəlxanlarının toplaşdıqları "Məcməüş şüəra"nın yığıncaqlarına gedir, öz şeirlərini oxuyur, deyişmələrdə iştirak edirdi. Klassik poeziya ənənələrini, əruzun musiqili bəhrlərini istedadı və dərin mütaliəsi sayəsində kamil şəkildə mənimsəmişdi. O, bədiiliyin şərtlərinə həssaslıqla yanaşmaq, sözləri vəznə görə, mənaya xələl gətirmədən ahəngdar səsləndirə bilmək məharəti ilə söz xiridarlarının diqqətini cəlb etmişdi. Məclis yığıncaqlarının birində Bakı ədəbi mühitinin tanınmış qəzəl şairi Mirzə Əbdülxalıq Yusif Əliağaya "Vahid" təxəllüsünü götürməyi məsləhət bilir.**



# XX əsr qəzəlimizin Vahidi

## "Böyük Füzulilərin yadigarı mən özüməm"

Gənc Vahidin yaradıcılığı iki istiqamətdə inkişaf edirdi: satirik şeir və klassik poeziyanın qəzəl janrı. Bu dövrdə ölkədə yeni ictimai quruluş - sosializm cəmiyyəti təşəkkül tapmaqda idi. Fəhlə-kəndli dövləti kimi fəaliyyətə başlayan yeni hakimiyyətə yoxsul təbəqələr böyük ümidlər bəsləyirdilər. Mədəni-maarif sahəsində aparılan kütləvi savadlanma tədbirləri, çoxlu sayda mətbuat, nəşriyyat, mədəniyyət ocağının açılması, işsiz adamların güzəranını yaxşılaşdıran yeni istehsalat müəssisələrinin yaradılması ilə sovet dövləti xalqın etimadını qazana bilmişdi. Ancaq keçmiş adət və ənənələrə, minillik kökü olan ədəbi-mədəni irsə qarşı aparılan sərt təbliğat-təşviqat işləri ziyalı insanları bir qədər dərindən düşünməyə, həqiqəti aydınlaşdırmağa vadar edir, seçim qarşısında qoyurdu.

1920-1930-cu illərdə Ə.Vahid ictimai-ədəbi həyatda çox fəal iştirak edir, şeirlərini müntəzəm olaraq "Kommunist", "Şərq qadını", "Yeni yol", "Maarif və mədəniyyət" və "Molla Nəsrəddin"də çap etdirirdi. Yeni ictimai mühitdə yaranan imkanlardan faydalanıb qabiliyyətinə görə iş, təhsillə bağlı arzularını gerçəkləşdirməyə can atırdı. Lakin yeni cəmiyyətin proletkultçu ideoloqları "feodalizm dövrünün qalığı" kimi qəzəli də, əruzu da, hətta Füzuli yaradıcılığını belə, bütövlükdə sosialist quruluşu üçün yararsız elan edir, Qərbin sənətkarlıq məktəblərindən öyrənməyi təkid edirdilər. Hakim qurumların ədəbi-mədəni yaradıcılığı dövlət siyasətinə uyğun istiqamətləndirmək cəhdlərinə və tələblərinə baxmayaraq Vahidin aşiqanə qəzəl yaratmağa önəm verməsi bir növ, Füzuli sənətinə dərin məhəbbətin təzahürü, bədii təsdiqi idi.

Vahid qəzəl yaradıcılığında püxtələşdikcə klassik qəzəl məktəbinin istedadlı yetirməsi kimi öz dəsti-xətti ilə seçilməyə başlayırdı. Otuzuncu illərdə və sonralar onun qəzəlləri ictimai-ədəbi mühitdəki klassik şeir janrlarına qarşı yanlış meyillər nəticəsində dövri mətbuatda dərc olunmasa da, xalq arasında sürətlə yayılır, tanınmış müğənnilərin oxuduqları muğamat və mahnı mətnləri kimi ürəklərə yol tapır, sevilir, dillərdə əzbər olurdu.

Vahidin klassik qəzəl məktəbində formalaşıb yetkinləşən bədii üslubuna illər keçdikcə mühitinin ədəbi-fəlsəfi görüşləri, bədii-estetik baxışı, ictimai-fərdi ruhu, ovqatı təsir edir, poetik ifadə tərzində yeniləşmə meyli güclənirdi:

*Yar üçün aşiq odur şövq ilə candan keçsin,*
*Kim vəfa bəsləyəcək dostuna can qıymayana...*

*Ey gül, məni sən istəsən, ömrüm hədər olmaz,*
*Sülh olmasa, övladi-vətən bəxtəvər olmaz...*

Klassik qəzəl nümunələrindən fərqli olaraq Vahidin şeirlərində emosional-hissi çalarlar daha gürşad idi, lirik ovqatda nikbinlik, çeviklik tədricən artmaqda, onun bədii üslubunun bənzərsiz əlamətinə çevrilməkdə idi. Görkəmli ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü Ə.Mirəhmədov haqlı olaraq yazırdı: "Vahidin qəzəlləri sevən aşiqin psixologiyasının saysız-hesabsız təzahürləri haqqında təsəvvür yaradır: şikayət, sevinc, şuxluq, qürur, küskünlük, ümid, peşimanlıq, xeyir-dua, tənqid, məşuqəyə valehlik, zarafat, istehza, dialoq, hətta qarğış..." Belə zəngin psixoloji-emosional rəngarənglik qəzəllərin həm obrazlı deyim tərzində, həm də ritmik ahəngində təkrarsız poetik ifadə vasitələri ilə bədiiləşirdi:

*Bu şirinlik, bu lətafət ki, sənin var gözəlim,*
*Sənə güldən də mən əla deməyim, bəs nə deyim...*

*Gözəllər içrə sən, ey mahparə, bir dənəsən,*
*Gözəllərin gözüsən, zülfü qarə, bir dənəsən...*

*Hər kəs ki, yeni meyvəsin istərsə baharın,*
*Baxsın bu gözəl dilbərə xalis çiyələkdir...*

Şairin klassik qəzəl janrına gətirdiyi ən mühüm yenilik qəzəlin ahəngini dəyişməklə yanaşı, həm də bədii dilini sadələşdirib qəliz ərəb-fars izafətlərindən təmizləməsi, bir növ xəlqiləşdirməsidir. Onun qəzəllərində ümumxalq danışıq dilində işlənən söz və ifadələr ahəngdar bir vəhdətdə yeni məzmun kəsb edir, klassik ənənədən tamamilə fərqli səmimi, nikbin təbiətli, xoş ovqatlı bir Aşiq obrazı canlanırdı. Şairin "Bir dənəsən", "Gözlərin qaradır", "Kimin istəkli yarısan", "Xoşum gəlir" və digər qəzəlləri məhz xalq bədii duyum və deyim tərzinə son dərəcə yaxınlığına görə geniş yayılmış, müəllifinə şöhrət qazandırmışdı.

Qəzəl janrının əbədiyaşarlığını bir daha təsdiq naminə Vahid zamanın ideya-məzmun tələbinə cavab olaraq onun mövzu dairəsini xeyli genişləndirir, yeri gəldikcə vətənə, xalqına məhəbbətini də əruzun geniş yayılmış bəhrləri ilə qoşamisralarda uğurla şeirə çevirirdi. Yalnız özünə xas sadə, səmimi, ritmik bir intonasiya ilə yazdığı qəzəllər tezliklə xanəndələr tərəfindən muğam təsniflərində oxunub geniş yayılırdı:

*Mən əsiri aşiqiyəm öz xalqımın, öz yurdumun,*
*Sevməyən öz xalqını, öz yurdunu divanədir...*

*Xalqına fürsət var ikən xidmət et, Vahid, müdam,*
*Ta ki, sən də bu sədaqətlə cahanda ad qıl...*

*Bu şərafət mənə nəslən qalacaqdır, Vahid,*
*Nə qədər xidmət edəm Azərbaycanım üçün...*

Ə.Vahid şeirinin mövcud sosial mühitin ictimai ovqatı ilə həmahəngliyi 1941-1945-ci illərdə İkinci dünya müharibəsi zamanı bariz müşahidə olundu. Bütün xalqla birlikdə faşist işğalçılarına qarşı döyüşə qoşulan şair onları öz satira oxunun hədəfinə tuş etmişdi. Meyxana poetikasının istehzalı deyimləri və ritmikası sayəsində onun şeirləri döyüşçülər arasında sürətlə yayılır, tezliklə dillər əzbəri olurdu. "Qanmadı Hitler", "Natamam oldu", "Peşmanam" (Hitlerin dilindən), "Quduz Hitlerə" və sair şeirlərdə işlənən şifahi xalq yaradıcılığından gələn kəsərli bədii ifadələr və atalar sözləri, məsəllər ifşanın, rişxəndin təsir gücünü xeyli artırırdı.

Müharibə illərində Ə.Vahid bir qrup ədəbiyyat və incəsənət xadimləri ilə birlikdə kənd zəhmətkeşləri, fabrik-zavod, mədən işçiləri qarşısında kütləvi tədbirlərdə iştirak edir, arxa cəbhədə gecə-gündüz fədakarlıqla çalışan insanları ruhlandırırdılar. Şairin "Əsgər nəğməsi", "Vətən", "Sərhədçi nəğməsi" və digər şeirlərinə yazılmış mahnılar da belə təsirli vasitələrdən idi. Görünür, onun bu fəaliyyətinin səmərəliliyi, xalq içərisində böyük coşqu və məhəbbətlə qarşılanmasının təsiri idi ki, şair dövlət tərəfindən 1943-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adı, bir müddət sonra isə "Əmək igidliyinə görə" medalı ilə təltif edilmişdi. Xalq ruhuna doğma şeirlərin dillər əzbəri olmasının son sübutu: 2020-ci ildə ordumuzun gözəl Qarabağı erməni işğalçılarından azad etmək üçün apardığı Vətən müharibəsində igid gizir Xudayar Yusifzadə döyüşqabağı Ə.Vahidin sözlərinə yazılmış "Vətən" mahnısını ifa etmiş və onu telefon vasitəsilə dostları lentə almışdı. O, şəhid olandan sonra həmin video çox sürətlə geniş yayılıb, "Xudayar təsnifi" kimi məşhurlaşdı. Ə.Vahidin qəzəlinə cüzi dəyişikliklə bəstələnmiş bu təsnifin musiqisi Azərbaycanın Xalq artisti, xanəndə Əlibaba Məmmədova məxsus idi.

Fəlsəfə elmləri doktoru, professor Fuad Qasımzadə Vahidin yaradıcılığını yüksək dəyərləndirərək yazırdı: "Dövrümüzün görkəmli şairi Əliağa Vahid Füzuli yolu ilə gedərək ondan dərs və ilham almış, Füzuli ənənələrini müasir həyatla, yaşadığımız mühit və zəmanə ilə bağlayaraq, fəlsəfi lirikanın qiymətli incilərini yaratmışdır". Həqiqətən şair əsasən gümrah, şux ovqat oyadan məhəbbət məzmunlu qəzəlləri ilə məşhurlaşsa da, yeri gəldikcə mühitlə, xalqın taleyi, güzəranı ilə bağlı elə beytlər yazmışdır ki, onlar bütün zamanlar üçün əhəmiyyətli sayılacaq müdrik kəlamlar xəzinəsində yer almaqdadır.

İctimai-siyasi mühitin diktə və tələb etdiyi ideoloji tərənnüm kampaniyasına qoşulmadığı üçün dövlətin ədəbiyyat və incəsənət işçilərinə hər cür diqqət göstərdiyi bir dövrdə Ə.Vahid demək olar ki, bütün rəsmi imtiyazlardan məhrum edilmiş, şəxsi həyatında maddi və mənəvi sıxıntılara məruz qalmışdı. Bu səbəbdən xüsusilə əllinci illərdə Vahidin müxtəlif məişət qayğılarından bəhs olunan "Əntiq otaq", "Xəbər var", "Vardı mənim", "Fərsiz oğul" və sair kimi şeirləri xalq içərisində çox geniş yayılmışdı. Əsasən yumorist səpkili bu şeirlərdə ümumilikdə yoxsul insanların ağır güzəranının səciyyəvi lövhələri canlandırılırdı. Adi danışıq söz və ifadələrindən ibarət bu nəzm parçaları qələmə alınmadan, çap olunmadan belə, yetkin Vahid üslubu sayəsində baməzəlik və ifadəlilik kəsb edib, Sabir şeiri kimi dillərdə əzbər olurdu. Həmin dövrdə şairin xarakterinin səciyyəvi bədii təcəssümü olan məşhur "Yalvarma" rədifli qəzəlində olduğu kimi bu şeirlər yüksək xəlqilik nümunəsi idi:

*Darıxma, yaxşı-yaman, ruzigarımız keçəcək,*
*Bu beş gün ömrə görə ruzigarə yalvarma!*

*Fəqirə, acizə, məzlumə ehtiram eylə,*
*Əduyə, qaniçənə, zülmkarə yalvarma!*

*Müxalif əhlinə baş əymə, sən də Mənsur ol,*
*Həqiqət üstə çəkilsən də darə, yalvarma!*

*Nə oldu dövləti-Cəmşid, mülki-İskəndər?*
*Nə tacidarə, nə bir şəhriyarə yalvarma!*

*Əgər həyatını, Vahid, xoş etmək istərsən,*
*Nə gül cəfasını çək, nə də xarə yalvarma!*

Ə.Vahid ömrünün kamil çağında böyük təvazökarlıqla yazmışdı:

*Deyərdim, əhli-qələm, Vahid əfv edərsə məni,*
*Böyük Füzulilərin yadigarı mən özüməm.*

Bu il ustad qəzəlxan şairin anadan olmasının 130 illiyidir.

Ə.Vahid 1965-ci il oktyabrın 1-də Bakı şəhərində vəfat etmişdir. Şairin dəfni ilə əlaqədar sovet rəsmi dairələrinin soyuq münasibətinə əhəmiyyət verməyən xalq kütlələri onun tabutunu əllərində Fəxri xiyabana gətirib görkəmli ədəbiyyat-mədəniyyət xadimləri ilə bir məkanda dəfn etmişdilər.

Vahid milli dilin bədiilik imkanlarından istifadə ilə qəzəlin nəinki obrazlar sistemini sadələşdirib xəlqiləşdirmiş, həmçinin klassik qəlibləri olan əruz vəznini anadilli sözlərin ahəngdarlıq xüsusiyyətləri ilə kökləyib doğmalaşdıra bilmişdir. Poeziyamızın Vahidi özünəxas rəngi, rayihəsi, ahəngi olan qiymətli sənət inciləri ilə ədəbiyyatımızda əbədi qərar tutmuşdur. "Şərq muğamları və Azərbaycan musiqisi ilə əkiz doğulmiş Ə.Vahid qəzəlləri musiqi qədər heyranedici və ölümsüz olacaqdır" (Məsud Əlioğlu).

***Safurə QULİYEVA,***
***Nizami Gəncəvi adına Ədəbiyyat***
***İnstitunun aparıcı elmi işçisi, dosent***

### Q Ə Z Ə L L Ə R

Bilməm bu nazənin kimin istəkli yarıdır?
Ya hansı bəxtiyarların bəxtiyarıdır!

Açdıqca qül camalını, ellər fərəhlənir,
Guya qözəllik aləminin növbaharıdır.

Dünya bu nazənin mələyin həsrətin çəkir,
Xəlqin sevimli afəti, həm şəhriyarıdır.

Yüz dəfə yansaq eşq oduna, qorxu bilmərik,
Çünki diyarımız bizim Odlar diyarıdır!

Bir vaxt səcdəgah idi atəşpərəslərə
Şəhr-Səba ki, mərkəzi dərya kənarıdır.

Qan etmə, saqi, bağrımızı, badə tez gətir,
Doldur qədəhləri, gecəmiz keçdi, yarıdır.

Hər kim deyirsə, sevmə bu rəna gözəlləri,
Bilmir ki, sevgi aləmi biixtiyarıdır.

Bir gün gələr ki, mən gedərəm, xəlq söyləyər:
Biçarə Vahidin bu qəzəl yadigarıdır.

❖❖❖

Mən vermişəm öz könlümü yarə, özü bilsin,
İstər eləsin hicrilə yarə, özü bilsin.

Bilmiş nə bəlalər gətirib başimə zülfü,
Tökmüş yenə ol mahi-üzarə, özü bilsin.

Yüz yol dedim, əğyar ilə gəzmə, yenə gəzdi,
Ölsəm, demərəm bir də dübarə, özü bilsin.

Ol gül məni xar eylədi biganə yanında,
Bir bilmədi, çox etdim işarə, özü bilsin.

Bimariyəm ol nərgisi-məstin, ölürəm mən,
Qoy eyləməsin dərdimə çarə, özü bilsin.

Hər dərdü-qəmin mən çəkirəm, kam alan özgə,
Rəhm eyləməsin qoy dili-zarə, özü bilsin.

Vahid! Məni pərvanətək ol şəmi-cəmalın
Yaxsın dəxi bundan sonra narə, özü bilsin.

❖❖❖

Dindir məni hərdən, gözəlim, fürsət olanda,
Vəslin bizə bir an, nə olar, qismət olanda?

Bax, gör məni zülfün nə pərişanlığa saldı,
Bir gün açaram dərdimi cəmiyyət olanda.

Yüzlərcə cəfa etsən, unutmaz səni könlüm,
Fikirimdəsən, ey gül, yenə hər söhbət olanda.

Biganə əgər olmasa, tez vəslə yetərdik,
Kim xeyir görüb düşməni kəmfürsət olanda?

Zülfün ki, ruyunu, çox qorxuram ondan,
Aləm toxunar bir-birinə zülmət olanda.

Könlüm necə sənsiz, gözəlim, naləsiz olsun,
Bülübül dayanarmı gülünə həsrət olanda?

Vahid, hələ qarşında böyük bir gələcək var,
Dünya bizə ləzzət verəcək cənnət olanda!

❖❖❖

Sevgilim, eşq olmasa, varlıq bütün əfsanədir,
Eşqdən məhrum olan insanlığa biganədir.

Sevgidir, yalnız məhəbbətdir həyatın cövhəri,
Bir könül ki, eşq zövqün duymasa, qəmxanədir.

Mən əsiri-eşqiyəm öz xalqımın, öz yurdumun,
Sevməyən öz xalqını, öz yurdunu divanədir.

Qoy Vətən daim işıqlansın gözəl bir şəmtək,
Könlüm ol şəmin ziyasın seyr edən pərvanədir.

Nazənin, rəna gözəllərdir - baxırsan hər yana,
Bəs bu torpaq indi bir cənnət deyil, ayə, nədir?

Ölkəmizdə gör nələr var, başqa bir aləmdəyik,
Hər çiçək bir nazənin, hər qönçə bir cananədir.

Vahidəm mən, sevgilim, məndən xəyanət görməzsən,
Şairəm, eşqim də öz qəlbim kimi mərdanədir.

❖❖❖

Könlüm yenə bülbül kimi şeydayi-vətəndir,
Məcnun edən aşiqləri Leylayi-vətəndir.

Yüzlərlə gözəl aşiqi olsam da mən, amma
Qəlbim yenə də aşiqi-sevdayi-vətəndir.

Dünyaya gözəllik verən, əlbəttə, günəşdir,
Ondan da gözəl xəlqə təcəllayi vətəndir.

Qoymaz bu müqəddəs yerə biganə toxunsun,
Hər kəs ki, sədaqətlidir, əbnayi-vətəndir.

Tərifi-behişt eyləməsin xəlqimə heç kəs,
Cənnət də, behişt də bizə səhrayi-vətəndir.

Vahid, elə zənn eylə ki, mən Yusifi-əsrəm,
Məşuqə mənə eşqi-Züleyxayi-vətəndir.

❖❖❖

Ey gül, sənə dünyada bərabər yenə varmı?
Səndən də gözəl sevgili-dilbər yenə varmı?

Gülzari cahanda, görəsən, səndən əlavə
Ən incə lətafətli güli-tər yenə varmı?

Qan tökməyə çox mahir idi o gözlərin əvvəl
Ol fitnəli gözlərdə o şakər yenə varmı?

Bülbülləri mən tək gətirən şurə çəməndə
Bir bülbüli-şeyda mənə bənzər yenə varmı?

Yüz aşiqi bir rəmzlə Məcnun eləyənlər
Ol Leyli məlahətli gözəllər yenə varmı?

Sultanlara, xaqanlara baş əyməyən əsla
Dərviş kəramətli qələndər yenə varmı?

Vahid! Hanı Yusif, hanı Səyyar ilə Saqi
Kimdən soraq: ustadımız Azər yenə varmı?

### *Vətən Yaxşıdır*

Dumanlı dağların başında durdum,
Dumandan özümə bir xeymə qurdum.
Keçdi xəyalımdan öz gözəl yurdum,
Dumanlar başında duman göründü.

Xəzər dənizi tək eşqinlə coşdum,
Xulyalar içində sanki bihuşdum.
Vətən arzusuyla nəğmələr qoşdum,
Tufanlar qarşımda dastan göründü.

Könüllər cəzb edən bu xoş mənzərə,
Şövqümü artırdı şeirə, qəzələ.
Çarpdıqca vətənim, əlim nəzərə,
Təbiət də mənə heyran göründü.

Deyirlər bülbülə çəmən yaxşıdır,
İnsançün laləzar vətən yaxşıdır.
Vahid, sorma vətən nədən yaxşıdır,
Adı gəlcək könlüm xəndan göründü.

# Yenilənmiş "Şəmkir" futbol klubunun təqdimat mərasimi keçirilmişdir

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə Şəmkir RİH-in başçısı Rəşad Tağıyev, ictimaiyyətin nümayəndələri və sahibkarlar iştirak etmişlər.



Əvvəlcə qonaqlara klubun tarixi haqqında videoçarx təqdim olunmuş, sonra klubun hazırkı durumu, gələcək layihələr haqqında məlumat verilmişdir. Qeyd edilmşdir ki, komandanın əsas məqsədi hazırda çıxış etdiyi liqada yüksək yer uğrunda mübarizə aparmaq və yuxarı liqalara çıxmaqdır. Qarşıya qoyulan məqsədlərdən biri də rayonda futbolu, xüsusən uşaq futbolunu inkişaf etdirmək, əhalidə idmana marağı artırmaqdır. Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev klubun yenidən formalaşdırılmasına töhfə vermiş hər kəsə təşəkkürünü bildirmiş, klub rəhbərliyinin "Şəmkir"in şanlı tarixini bərpa edəcəyinə inandığını bildirmiş, rayon rəhbərliyinin bu istiqamətdə onlara dəstək göstərəcəyini diqqətə çatdırmışdır.

Sonra Futbolun İnkişaf Fondunun icraçı direktoru Tural Piriyev fondun regionlardakı fəaliyyəti, "Şəmkir" futbol klubu ilə birgə layihələr və kluba dəstək imkanları barədə təqdimatla çıxış etmişdir. Təqdimat mərasimində veteran futbolçular, "Şəmkir" futbol klubunun baş məşqçisi Vüqar Nadirov, klubun idarə heyətinin üzvləri çıxış edərək rayon ictimaiyyətini kluba dəstək olmağa çağırmışlar.

Yerli sahibkarlar və ziyalılar çıxışlarında klubun inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklərini bildirmiş, bu istiqamətdə müxtəlif təkliflər səsləndirmişlər.

Sonda "Şəmkir" futbol klubunun hər zaman elit liqalar üçün mübarizə apara biləcək səviyyəyə gətirilməsi istiqamətində görüləcək işlər ətrafında müzakirələr aparılmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Əlillərin hazırladığı məhsullardan ibarət yarmarka təşkil edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan Şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzinin yetirmələri əmək yarmarkasında iştirak ediblər.



Agentlikdən AZƏRTAC-a verilən məlumata görə, yarmarka Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Sahibkarlar Konfederasiyası və Əlilliyi olan Şəxslərin Müstəqil Həyat Mərkəzi İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Əlilliyi olan Şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzinin yetirmələri və hazırda burada peşə öyrənən, ümumilikdə 20-dən çox gənc əmək yarmarkasında iştirak edən 30-a yaxın şirkətlə görüşmək imkanı əldə edib.

Yarmarkanın satış-sərgi hissəsində isə əlilliyi olan gənclərin dörd istiqamət üzrə (vitraj boya, təbii daşlarla hazırlanmış bəzək əşyaları, bədii oyma və toxuma suvenirlər) 200-dən çox əl işi sərgilənib.

# Sağlam dişlərin sirri

İnsan orqanizmində daim qulluq tələb edən üzvlərdən biri də dişlərdir. Ağız və diş sağlamlığı təkcə estetik deyil, həm də ümumi sağlamlıq üçün vacibdir. Həyat tərzi, gigiyena, yemək vərdişləri və istifadə olunan yanlış məhsullar ağız sağlamlığına təsir göstərir.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ortagəlirli ölkələrdə yaşayan hər 4 nəfərdən 3-ü diş problemlərindən əziyyət çəkir. Diş və diş əti xəstəlikləri təkcə ağız nahiyəsinə zərər vermir, həm də mədə, ürək-damar və şəkərli diabet kimi xəstəliklərə yaxalanma riskini artırır.

### Ağız gigiyenasına erkən yaşdan riayət olunmalıdır

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-stomatoloq Kəmalə Kamalovanın sözlərinə görə, sağlam dişlərin təməli ana bətnində qoyulur: "Ananın qidası nə qədər sağlamdırsa, körpənin də dişləri bir o qədər sağlam, möhkəm olur. Doğulduğu ilk günlərdən körpənin ağız boşluğu ılıq suda isladılmış steril tənziflə silinməlidir. İlk dişlər çıxdıqdan sonra isə apteklərdə satılan barmağa taxılan yumşaq diş fırçalarından istifadə edilməli, təxminən 2 yaşından sonra isə dişlər fırçalanmalıdır. Prosesin düzgün aparılması üçün ananın dəstəyi və yönləndirməsi vacibdir".

Bəzən ailələrdə "süd dişləri müəyyən vaxtdan sonra çürüyür və buna görə də onların qulluğa ehtiyacı yoxdur" kimi yanlış bir fikir formalaşdığını deyən həkim-stomatoloq bildirib ki, süd dişləri də daimi dişlər qədər önəmlidir: "Bəzən valideynlər soruşurlar ki, uşaqlarının daimi dişləri niyə belə kiçik yaşlarından çürüməyə başlayır? Bunun əsas səbəbi dişlərin təməlinin zəif olmasıdır. Çünki gigiyenaya riayət etməyən, vaxtlı-vaxtında dişlərini fırçalamayan azyaşlıların ağız boşluğunda patogen və qeyri-şərti patogen mikroflora artır. Daimi dişlər də çıxanda kariyesin yaranması üçün münbit şərait yaranır, gələcəkdə həmin dişlərdə iltihabi proseslərə səbəb olur. Daimi dişin mayası süd dişinin kökləri ilə bərabər səviyyədə olduğu üçün iltihab bu dişlərin kökünə də mənfi təsir edir, qeyri-sağlam dişlərin çıxmasına səbəb olur".



Kəmalə Kamalova onu da qeyd edib ki, uşaqlıq dövründə ağız və diş qulluğuna kifayət qədər diqqət yetirilməməsi süd dişlərinin çürüməsinə, vaxtından əvvəl tökülməsinə və ya çəkilməsinə səbəb olur. Bu zaman digər dişlər əyilir, daimi dişin boşluğunu tutur. Yeni diş öz yerindən, yuvasından çıxa bilmir, dişlərin sırası pozulur. Bu isə estetik görünüşlə birlikdə uzunmüddətli müalicə tələb edən ortodentik problemlərə səbəb olur. Buna görə də süd dişləri mütləq müalicə edilməli, dişyuma vərdişləri erkən yaşdan aşılanmalıdır.

### Dişlərin uzunömürlü, möhkəm olmamasının səbəbləri

Ağız və diş qulluğunun müntəzəm aparılmasının vacibliyini vurğulayan həkim-stomatoloq qeyd edib ki, ağızdakı bakteriyalar 12 saatdan bir çoxaldığından dişlər gün ərzində 2 dəfə fırçalanmalı, hər qida qəbulundan sonra isə yaxalanmalıdır: "Dişlər axşam fırçalandıqdan sonra isə qida qəbul edilməməlidir. Belə ki, ağız boşluğunda olan bəzi bakteriyalar qida qalıqlarını parçalayaraq turşu ifraz edirlər. Bu turşu da diş minasını zədələyir, kariyesin yaranmasına səbəb olur. Diş fırçası düzgün seçilməli, nə çox sərt, nə də çox yumşaq olmalı və hər 3 aydan bir dəyişilməlidir. Bəzi insanlar düşünürlər ki, dişləri sərt fırçalasalar, daha yaxşı təmizlənəcək. Bu, tamamilə yanlış düşüncədir. Diş fırçası ilə yanaşı, diş ipləri də ağız təmizliyində faydalıdır. Bəzən fırçalar diş aralarına daxil ola bilmir, bu zaman köməkçi vasitə kimi diş saplarından istifadə edilməlidir. Antiseptik ağız yaxalayıcılarından isə adətən ortodentiyada breket və implantlardan istifadə zamanı yararlanmaq lazımdır".

Kəmalə Kamalova onu da qeyd edib ki, dişlərin uzunömürlü, möhkəm olmamasının səbəbi əksər hallarda genetika və əlverişsiz mühitlə əlaqələndirilir: "Sağlam dişlərdə genetikanın rolu olsa da, faizlə götürdükdə bu, elə də çox deyil. Amma doğulub, böyüyən ərazinin bunda rolu böyükdür. Bəzən elə olur ki, pasiyentlər deyirlər ki, biz filan bölgədənik, buna görə də ailədə əksəriyyətimizin dişi çürüyür. Bu, doğru təxmindir. Belə ki, bəzi endemik ərazilərdəki suyun tərkibində dişlərimizin ömrünü uzadan mineralların faizi aşağıdır. Bu zaman minerallaşdırılmış sulardan və vitamin-mineral komplekslərindən istifadə etmək tövsiyə olunur".

Sağlam dişlər üçün qida rasionuna da diqqət etməyin vacibliyini vurğulayan mütəxəssisin sözlərinə görə, qazlı, şəkərli içkilərin tərkibində PH turşuluq balansı həddindən artıq yüksəkdir. Ağız boşluğu zəif qələvi mühitdür. PH maddəsi bu qələvi mühiti turş mühitə çevirir. Nəticədə dişlərin emalı zədələnir, qoruyucu təbəqə zəifləyir. "Fast food" və şirniyyatların tərkibində isə karbonidrat həddindən artıq yüksəkdir. Bu da ağız boşluğunda şərti patogen və patogen mikrofloranın artmasına zəmin yaradır. Sağlam qidalanma, düzgün qulluq və ildə iki dəfə həkim müayinəsinə getməklə sağlam dişlərə asanlıqla sahib olmaq olar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Paşinyana Qərbdən əvvəlki dəstək yoxdur

## Ermənistanda hakimiyyətdaxili savaş güclənir

Ermənistanda sosial-iqtisadi vəziyyətin davamlı şəkildə ağırlaşması fonunda müşahidə olunan proseslərdən biri də ölkədə siyasi böhranın getdikcə dərinləşməsidir.



Gözlənilən 2026-cı il seçkiləri ərəfəsində ölkədə hökumət daxilində qızğın mübarizə gedir. Belə ki, parlamentin spikeri Alen Simonyan, Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və bəziləri özlərini Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanın kürsüsündə görməyə başlayıblar.

"İravunk" qəzeti yazıb ki, hökumət dairələrində gəzən söz-söhbətlərə görə, Ermənistanın baş naziri Nikol Paşinyan Münhendən (Almaniya) tutqun əhvali-ruhiyyədə qayıdıb. Bildirilib ki, baş nazir Münhen Təhlükəsizlik Konfransının rəsmi açılış mərasimində iştirak edib, bu çərçivədə bir sıra ikitərəfli görüşlər keçirib: "Bu görüşlər, xüsusən də Münhendəki ümumi ab-hava onu göstərdi ki, Qərbdən ona əvvəlki dəstək yoxdur. Parçalanmış Avropa gözünü qırpmadan Nikolu "ikinci Zelenski"yə çevirəcək, onu taleyin ümidinə buraxacaq. Paşinyana yaxın olan Qərb dairələri dolayısı ilə ona xarici, xüsusən də kadr siyasətinə ciddi şəkildə yenidən baxmalı olduğuna dair xəbərdarlıq ediblər. Məsələn, Paşinyan artıq Böyük Britaniyanın Mİ-6 kəşfiyyat orqanının kadrlarından, ilk növbədə Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryandan yaxa qurtarmaqla amerikalıların xoşuna gəlməyə çalışmalıdır. Amma o, qurumun onun qarşısına hansı kompromatları qoya biləcəyini anlayaraq tələsmir".

Bəzi dairələrin iddialarına görə isə Qərb Paşinyan üçün sürprizə imza ata bilər. Yerli mediada yazılır ki, hakim partiya xarici işlər naziri Ararat Mirzoyandan dərin məyusdur, halbuki komandada bəziləri Paşinyanın varisi olaraq onu görürdülər. Qeyd edilib ki, Ararat Mirzoyanın atdığı bir çox addım hakim komanda üzvlərini məyus edib. Məlumatlara görə, Ararat Mirzoyan bütün addımlarını Paşinyanla razılaşdırır, hətta dar dairədə fikir ayrılığını gizlətmir və bir çox mübahisəli məsələdə ona müqavimət göstərməyə belə cəhd etmir. Mənbələr bildiriblər ki, Mirzoyan Konstitusiyanın dəyişdirilməsinə, Müstəqillik Bəyannaməsinə istinadın aradan qaldırılmasına qarşı olsa da, öz etirazını dilə gətirmir.

"4rd.am" nəşri qeyd edib ki, ötən il keçirdiyi mətbuat konfranslarından birində Ararat Mirzoyan Konstitusiyanın sülh prosesinin dayanmasına səbəb olub-olmaması ilə bağlı suala cavab verərkən Konstitusiyanın Azərbaycanın tələbi ilə dəyişdirilməsinə qarşı çıxıb. Lakin daxili müzakirələrdə o, "lider"in əleyhinə danışmaqdan qorxur, susur.

Bildirilib ki, yaxın günlərdə "Mülki müqavilə" fraksiyası qapalı iclas formatında xarici işlər nazirindən hesabat alacaq. Müşahidələrə görə, partiyada baş verənlər, əslində, Ermənistanda hakimiyyətdə olan şəxslərin dəyişdirilməsi prosesinin başlandığını göstərir.

Ölkədə gedən proseslər onu göstərir ki, Ermənistanın Rusiyadan qopması və Fransanın faktiki müstəmləkəsinə çevrilməsi siyasəti həyata keçirilir. Qərb isə etiraz əhvali-ruhiyyəsinin hökumət binalarına hücuma çevrilməsindən yayınmaq üçün Paşinyanı əvəz etmək prosesinə üstünlük verir.

Yazılanlardan və danışılanlardan belə bəlli olur ki, indi hakim elitada baş nazir olmaq uğrunda Mirzoyan və Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında qızğın mübarizə gedir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Temperatur 7-10 dərəcə enəcək, qar yağacaq

Milli Hidrometeorologiya Xidməti hava şəraitinin dəyişəcəyi barədə xəbərdarlıq yayıb.



Xidmətdən AZƏRTAC-a bildirilib ki, fevralın 19-u axşamdan 22-si gündüzədək ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, fasilələrlə yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı, şimal-qərb küləyinin əsəcəyi və arabir güclənəcəyi, havanın temperaturunun ötən günlərlə müqayisədə tədricən 7-10 dərəcə enəcəyi gözlənilir.

Havanın minimal temperaturu Aran rayonlarında 0-5, dağətəyi rayonlarda 5-10, dağlıq rayonlarda 10-15, yüksək dağlıq ərazilərdə 15-20 dərəcə şaxta olacaq. Bakıda və Abşeron yarımadasında isə gecə saatlarında havanın minimal temperaturunun 0 dərəcəyə yaxınlaşacağı, sonrakı günlərdə isə mənfi 3 dərəcəyədək olacağı proqnozlaşdırılır.

Bakıda və Abşeron yarımadasında fevralın 19-u axşamdan başlayaraq arabir yağış yağacağı, 20-si səhərdən bəzi yerlərdə sulu qara keçəcəyi, 20-si axşam və 21-də arabir qar yağacağı gözlənilir.

Azərbaycanın rayonlarında hava şəraitinin fevralın 19-u axşamdan 22-si səhərədək fasilələrlə yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Naxçıvan MR, Qarabağ və Şərqi-Zəngəzur, Qazax-Gəncə, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Mərkəzi Aran, Lənkəran-Astara bölgəsində yağıntıların intensivləşəcəyi ehtimal olunur.

Gözlənilən qarlı və şaxtalı hava şəraiti ilə əlaqədar bəzi yolların buz bağlayacağı ehtimalı var.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3496
Sifariş 367

Qiyməti 60 qəpik